www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23-24 yanvar 2016-cı il Şənbə № 16 (6337) Qiyməti 60 qəpik

**Xəbər**

## Sumqayıtda gənc qızı evində amansızlıqla öldürdülər

yazısı səh.2-də

**Gündəm**

### Eldar Mahmudov milyardların qarşılığında həbs təhlükəsindən yayına bilər



Kamerada asılmış tapılan MTN polkovniki və generalı dəmir barmaqlıqlar arxasında üz-üzə gəlib; Akif Çovdarovun İlqar Əliyevlə qovğası olub; Həbsdəki MTN-çilər üçün xüsusi korpus tikilir

yazısı səh.10-da

### Ədliyyə Nazirliyinin idarə rəisi və əməkdaşı prezidentin iradəsinə qarşı...

yazısı səh.4-də

### SOCAR niyə özəlləşdirilə bilməz?

yazısı səh.4-də

### Dövlət müşaviri Kamal Abdulla: “Bizdə ermənifobiya yoxdur...”

yazısı səh.13-də

### Krediti olanlar da ünvanlı sosial yardım ala biləcək

yazısı səh.2-də

### Müxalifət partiyaları anti-böhran toplantısı keçirəcək

yazısı səh.6-da

### Bakıda yayılan epidemiya; “Donuz qripi”, yoxsa soyuqdəymə?

yazısı səh.15-də

### Hikmət Hacızadə Etibar Məmmədovla bağlı sirri açdı

yazısı səh.6-da

### Havanın temperaturu kəskin düşəcək, Bakıya qar yağacaq

yazısı səh.14-də

### Xırdalanda evə basqın; ev sahiblərini döyüb mənzili soydular

yazısı səh.14-də

### Banklar vətəndaşlara niyə kömək etmir?

yazısı səh.12-də

**Böhrandan qurtuluş yolunda inqilabi qərar anonsu**

# AZƏRBAYCANI YENİDƏN QURMAQ PLANI - POLŞA MODELİ MASANIN ÜSTÜNDƏ...

Ölkə iqtisadiyyatı yeni modeldə qurulur; manatın ikinci devalvasiyasından sonra vəziyyətin xilası üçün üç ölkədən Bakıya ekspert-məsləhətçi qrupu çağırılıb; “Sinqapur modeli” niyə məqbul sayılmadı?; Prezident: “İslahatlar üçün yaxşı vaxtdır...”



yazısı səh.5-də

## Türkiyə-Rusiya münasibətlərində qəfil dönüş - Kreml və Ankara bir masa ətrafına gətirilir?

İki dövləti barışdırmaq üçün ABŞ-ın hərəkətə keçdiyi xəbəri yayılıb; rəsmi Vaşinqtonun yeni hədəfi və Viktoriya Nulandın gözlənilən Türkiyə səfərinin ilginc pərdəarxası; Amerika diplomatiyasının “ağır topu”nun qovluğunda nələr var?..

yazısı səh.8-də



Rüfət Səfərov

### Qiyamçı müstəntiq ev dustağı olacaq - danışmaq qadağandır

yazısı səh.10-da



*Pənah Hüseyn:*

### “Xilas yollarından biri müxalifətlə dialoqdur”

yazısı səh.6-da



### “Hesabat” dayandırıldı, Mir Şahin mətbuat konfransı keçirdi - fotolar

yazısı səh.7-də



## İlham Əliyevə Davos fəxri üzvlər klubunun nişanı təqdim olundu

**Azərbaycan prezidenti İlham Əliyev Davosda Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvabla görüşüb. APA-nın məlumatına görə, söhbət zamanı Dünya İqtisadi Forumunun əhəmiyyəti qeyd edilib, Azərbaycanın bu mötəbər tədbirdə fəal və davamlı iştirakı məmnunluqla vurğulanıb.**

Həmçinin "İpək Yolu" layihəsinə dair məsələlər müzakirə olunub, hazırkı dövrdə regional və beynəlxalq aləmdə neftlə bağlı gedən proseslər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə K. Şvab Dünya İqtisadi Forumunda onuncu dəfə iştirak etdiyinə görə Davos fəxri üzvlər klubunun nişanını prezident İlham Əliyevə təqdim edib.

## Krediti olanlar da ünvanlı sosial yardım ala biləcək

**"Ünvanlı sosial yardım verilən zaman istehlak kreditləri olanlara tətbiq olan məhdudiyyətlər aradan götÜrüləcək". APA-nın Mil-Muğan bürosunun məlumatına görə, bu barədə əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bildirib.**

Nazir qeyd edib ki, ölkə başçısının tapşırığına əsasən ünvanlı sosial yardımın təkmilləşdirilməsi istiqamətində işləri davam etdiririk: "Hazırda bu prosesin avtomatlaşdırılması istiqamətində işlər görülür. Proqram təminatları hazırdır, yaxın vaxtlarda Bakının 2 rayonunda test işlərinə start veriləcək və Nazirlər Kabinetinin müvafiq qərarı qəbul olunacaq. Ünvanlı sosial yardımın təyin olunması və bunun üçün müraciət edilməsi və yaxud imtina edilməsi qaydaları yeni avtomatlaşdırılmış qaydalarla aparılacaq. Qaydalara əsasən, kredit öhdəliyinə görə olan məhdudiyyət aradan qaldırılacaq. Yeni qaydalar yaxın vaxtlarda Nazirlər Kabineti tərəfindən təsdiqlənəcək. Bu, onunla bağlıdır ki, müəyyən qrup insanlar var ki, zamanında banklardan istehlak kreditləri götürüblər, bu gün isə həmin kreditləri qaytara bilmirlər. Eyni zamanda ailənin gəlirləri çox aşağı olduğu üçün onların kredit öhdəlikləri həmin ailənin gəlirinin 50%-dən yuxarı çıxır. Nəticədə onlar nə krediti ödəyə bilir, nə də ünvanlı sosial yardımı ala bilmirlər. Bu da onların müəyyən qədər yaşam şəraitlərini xeyli çətinləşdirir. Ona görə, ölkə prezidentinin tapşırığına əsasən, bu məhdudiyyətlər götürüləcək. Bununla, həqiqətən gəlirləri aşağı olan və yaşam şəraitində problemləri olan ailələr belə istehlak kreditləri olmalarına baxmayaraq ünvanlı sosial yardım sisteminin üstünlüklərindən istifadə edə biləcəklər".

## Azərbaycan avtomobil idxalını 60 faiz azaldıb

**Ötən il ərzində Azərbaycana 26 785 ədəd avtomobil idxal olunub. Bu göstərici 2014-cü illə müqayisədə 36 583 avtomobil və ya 57,7% azdır. Moderator.az xəbər verir ki, bu barədə Dövlət Gömrük Komitəsinin 2015-ci il yanvar-dekabr ayları üzrə açıqladığı hesabatında bildirilir.**

Belə ki, ölkəyə gətirilən avtomobillərin 816 ədədi sürücü daxil olmaqla 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitələri, 23 765 ədədi əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər motorlu nəqliyyat vasitələri, 1 961 ədədi yük daşımaq üçün motorlu nəqliyyat vasitələri, 243 ədədi isə xüsusi təyinatlı motorlu nəqliyyat vasitələridir.

## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, **Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Azay Quliyev Azərbaycan-ABŞ əməkdaşlığından danışdı

### Şirvanda ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin də iştirakı ilə növbəti yeni infrastruktur layihənin istifadəyə verilməsi mərasimi keçirilib



**Yanvarın 22-də Şirvan şəhərində yerli sakinlərin, şəhər İcra Hakimiyyətinin, bələdiyyə orqanlarının, İqtisadiyyat Nazirliyinin, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) və yerli QHT-lərin iştirakı ilə növbəti yeni infrastruktur layihənin istifadəyə verilməsi mərasimi keçirilib.**

Trend-in məlumatına görə, Azərbaycan və ABŞ hökumətlərinin birgə maliyyələşdirdiyi Sosial İqtisadi İnkişaf Fəaliyyəti (SEDA) proqramı çərçivəsində yenidən bərpa olunan 1400 metrlik asfalt yol sakinlərin istifadəsinə verilib.

Tədbiri açıq elan edən Şirvan şəhər İcra Hakmiyyətinin başçısı Mərdan Camalov belə bir layihənin hazırlanıb şəhər sakinlərinin istifadəsinə verilməsindəki xidmətinə və əməyinə görə IV çağırış Milli Məclisin Şirvandan deputatı olan Azay Quliyevə təşəkkür edib. O bildirib ki, Şirvan şəhərində yaxın vaxtlarda bir neçə belə infrastruktur layihənin tədqimatı olacaq.

Toplantıya qatılan şəhər sakinləri bu layihənin məhz Şirvanda reallaşmasının təşəbbüskarı olan millət vəkili A.Quliyevi səmimiyyətlə qarşılayıblar. Millət vəkili layihənin uğurla başa çatmasına görə hər kəsi təbrik edib. A.Quliyev çıxışında əvvəlcə Azərbaycan hökumətinin sakinlərin həyat şəraitinin yaxşılaşdırılması üçün regionlarda həyata keçirdiyi layihələrdən danışıb.

Şirvanda reallaşan bir neçə infrastruktur layihəsini Azərbaycan-ABŞ çoxillik əməkdaşlığının, iqtisadi və siyasi işbirliyinin bariz nümunəsi kimi dəyərləndirən A.Quliyev bu əməkdaşlığın regionların iqtisadi inkişafı üzrə Dövlət Proqramına töhfəsini xüsusi qeyd edib: "Şirvandan deputat olduğum vaxtlarda mənə məlumat verilirdi ki, Neftçilər icmasının icmadaxili yolunun bu hissəsi bərbad vəziyyətdədir. Yolun bu hissəsinin bərbad vəziyyətdə olması sakinlərə sosial-iqtisadi, təhsillə bağlı çətinliklər yaradırdı. Bu səbəbdən layihə üzərində işlənildi, Azərbaycan hökumətinin də iştirakçısı olduğu proqram sayəsində Şirvan sakinlərinin daha bir problemi həll olundu".

USAID-in ölkə üzrə direktoru, xanım Mikaela Meredis bu əməkdaşlıqdan məmnun qaldığını və A.Quliyevə bu layihənin reallaşmasında göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib. O, həmçinin yerli sakinlərin həyat şəraitini yaxşılaşdırmaq üçün var gücləri ilə çalışdıqlarını deyib.

Sonra SQİİ-nin ölkə üzrə direktoru Tim Mediqan, Ümid Sosial İnkişafa Dəstək İB-nin icraçı direktoru İsrail İskəndərov, Şirvan şəhər Birlik kənd İcma-İnkişaf Şurasının sədri Mehriban Əliyeva təbrik nitqi söyləyərək, əməkdaşlıqdan məmnunluqlarını ifadə ediblər.

Sonda tədbir iştirakçıları hazırda icrada olan digər layihələrin vəziyyəti ilə tanış olmaq üçün aidiyyəti icmalara baş çəkiblər.

## ABŞ-ın rəhbərliyi ilə Suriya və İraqda quru əməliyyatlarına başlanacaq

**"Koalisiya qüvvələri İŞİD-lə daha effektli mübarizə aparmaq üçün Suriya və İraqda quru qüvvələrindən istifadə etməyə qərar verib".**

APA-nın "Reuters"ə istinadən verdiyi məlumata görə, bunu ABŞ-ın müdafiə naziri Eştən Karter bəyan edib. O bildirib ki, İraq və Suriyada İŞİD-lə mübarizə strategiyası çərçivəsində yerüstü əməliyyatlar da keçiriləcək: "Biz daha çox işlər görmək istəyirik, çünki biz İŞİD-ə qalib gəlməliyik. Mən əminəm ki, buna nail olacağıq, lakin mən prosesi sürətləndirmək istəyirəm".

K. Eştən İŞİD-i İraqın Mosul və Suriyanın Rakka şəhərlərindən çıxarmaq istədiklərini söyləyib.

## Mərkəzi Bank dolları bir qədər də bahalaşdırdı

**Azərbaycan Mərkəzi Bankı (AMB) yanvarın 25-ə olan ABŞ dollarının manata qarşı məzənnəsini açıqlayıb.**

AMB-dən "APA-Economics"ə verilən məlumata görə, yanvarın 25-ə USD/AZN rəsmi məzənnəsi bu günə nisbətən 0,0026 manat artaraq 1,6054 səviyyəsində müəyyən olunub. Xatırladaq ki, bu gün dollar 1,6028 manat təşkil edib.

Yanvarın 25-ə olan məzənnə 23-25 yanvar tarixində də qüvvədə olacaq.



## "Formula-1" yarışının start günün bilindi

**Bu il iyunun 19-da Azərbaycanda ilk dəfə təşkil olunacaq Formula-1 Avropa Qran Prisinə yerli vaxtla saat 18:00-da start veriləcək. Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən (BŞH) APA-ya verilən məlumata görə, Bakıda keçiriləcək Formula-1 yarışı ilə Fransada baş tutacaq 24 saat Le Man marafonu üst-üstə düşməyəcək.**

Belə ki, Le Man marafonu 19 iyun tarixində Bakı vaxtı ilə saat 17:00-da başa çatacaq. Əməliyyat şirkəti ictimaiyyətin diqqətinə çatdırır ki, yarış günü Bakıda günəşin saat 21:14-də batacağı proqnozlaşdırılır. Yarışın başlama vaxtı ilə günəşin batması arasındakı 3 saatlıq müddət imkan verir ki, Avropa Qran Prisi hava qaralanadək yekunlaşsın.

Qeyd edək ki, Azərbaycanda təşkil olunacaq Formula-1 Avropa Qran Prisinin promouteri və eyni zamanda yarışların keçirildiyi şəhər treki "Bakı Şəhər Halqası" (BŞH) adlanır. 20 müxtəlif döngə və 6 kilometrlik uzunluğu ilə 51 dövrədə tamamlanacaq, 340 km/saat maksimal sürət toplamağa imkan verəcək Bakı Şəhər Halqasının cari F1 təqvimində ən sürətli şəhər treki statusuna imza atacağı gözlənilir. Şəhər treki pilotlardan xüsusi dəqiqlik tələb edən İçərişəhər ətrafı dar yoxuş hissəsi, inanılmaz sürət əldə etməyə imkan verən 2.2 km dənizkənarı hamar hissəsi və s. özəlliklərlə yarışı canlı olaraq tribunalarda və ya televiziya qarşısında izləyən F1 azarkeşləri üçün əsrarəngiz bir şouya ev sahibliyi edəcək.

## Sumqayıtda dəhşətli qətl: 24 yaşlı qızı amansızlıqla öldürdülər

**Sumqayıtda qətlə yetirilmiş gənc qızın şəxsiyyəti dəqiqləşdirilib. Lent.az-ın məlumatına görə, Corat qəsəbəsində fərdi yaşayış evində çoxsaylı zərbələrlə qətlə yetirilən gənc qız 1992-ci il təvəllüdlü Salayeva Səbinə Cavanşir qızı olub.**

Qətlin hansı zəmində, hansı şəraitdə və kim tərəfindən törədilməsi hələlik tam məlum deyil. Faktla bağlı Sumqayıt şəhər Prokurorluğunda cinayət işi açılıb, araşdırmalar aparılır.



## Professor İlham Rəhimov yeni beynəlxalq qurumun rəhbəri oldu

**Yanvarın 19-dan-21-dək Bolqarıstanın paytaxtı Sofiyada "Qara dəniz-Xəzər regionu ölkələrində hüquq nəzəriyyəsi və praktikasının inkişafında aktual problemlər" mövzusunda beynəlxalq dəyirmi masa keçirilib. Musavat.com-un məlumatına görə, tədbirin yekununda hüquq elmləri doktoru, professor, Azərbaycanın əməkdar hüquqşünası İlham Rəhimovun sədrliyi ilə Qara dəniz-Xəzər regionu ölkələrinin Hüquqşünaslar Assosiasiyası yaradılıb.**

Dəyirmi masa çərçivəsində Bolqarıstan Hüqüqşünaslar İttifaqının təşəbbüsü ilə İlham Rəhimovun bolqar dilinə tərcümə edilmiş "Cinayətin və cəzanın fəlsəfəsi" kitabının təqdimat mərasimi də keçirilib. Mərasimdə Rusiyadan, Türkiyədən, İrandan, Makedoniyadan və başqa ölkələrdən alimlər iştirak ediblər.

Kitabla bağlı müzakirələrdə Bolqarıstanın vitse-prezidenti M.Popova, Bolqarıstan Elmlər Akademiyasının rəhbəri, akademik C. Vodeniçarov, Makedoniyadan olan akademik B. Kambovski, Bolqaristan Milli Assambleyasının vitse-ptrezidenti Y. Notev və digər şəxslər fəal iştirak ediblər.

Səfər çərçivəsində həmçinin, İlham Rəhimovun Bolqarıstan Prezident Aparatında vitse-prezident, xanım Marqarita Popova, Konstitusiya Məhkəməsində məhkəmənin sədri Boris Velçev, Elmlər Akademiyasında isə onun sədri akademik Vodeniçarovla görüşləri olub.

❑ **Musavat.com**

## Bakıdakı 250 minlik "Lamborghini"nin sahibi məlum oldu

**Bakıda peyda olan bahalı - 90 AZ 030 dövlət nömrə nişanlı "Lamborghini Gallardo" avtomobilinin sahibi müəyyənləşib. 90 AZ 030 dövlət nömrə nişanlı avtomobil "KİA Motors" Azərbaycan şirkətinin prezidenti Faiq Səfərova məxsusdur.**

Qeyd edək ki, Lamborghini Gallardonun satış qiyməti 250 min dollardır.(azxeber.com)

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 16 (6337) 23 yanvar 2016





**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Yanvarın 22-sində Davosda Dünya İqtisadi Forumu çərçivəsində dünya iqtisadi liderlərinin "2016-cı il üçün mütləq xarakterli tövsiyələr" mövzusunda qeyri-rəsmi toplantısı keçirilib. AzərTAC-ın xəbərinə görə, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev toplantıda iştirak edib.**

Rəsmi məlumatlarda deyilir ki, prezident ötən gün ərzində bir sıra görüşlər keçirib. Belə ki, İ.Əliyevin İsveçrə Konfederasiyasının prezidenti Yohan Şnayder-Amman, Norveçin xarici işlər naziri Borge Brende, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab ilə görüşü olub. Görüşdə K. Şvab Dünya İqtisadi Forumunda onuncu dəfə iştirak etdiyinə görə Davos fəxri üzvlər klubunun nişanını prezident İlham Əliyevə təqdim edib. (APA)

Prezident TOTAL şirkətinin baş icraçı direktoru Patrik Puyanne ilə də görüşüb. Görüşdə Azərbaycan ilə TOTAL şirkəti arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib. Söhbət zamanı "Abşeron" qaz yatağının işlənilməsi və digər layihələrin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Azərbaycan prezidenti Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Yeni enerji tarazlığı" mövzusunda sessiyada iştirak edərkən sessiyanın aparıcısı, CNN-in redaktoru Con Defteriosun suallarını cavablandırıb. Ölkə başçısı deyib ki, devalvasiya qərarı qaçılmaz idi. "Bacardığımız qədər bunun qarşısını almağa çalışdıq. Milli Bank ehtiyatlarımızın bir hissəsini itirdik. Ancaq bu addımı atmalı idik"-ölkə başçısı əlavə edib. Prezident aksiyalara da toxunub. "Bu səbəbdən qiymətlərin artması bir sıra narahatlıqlara səbəb oldu. Bu, kiçik bir etiraz idi. Bunun səbəbi də insanların hazır olmadığı bir stress vəziyyəti yaşaması idi. Amma artıq bu, bitdi və zənn edirəm ki, Azərbaycandakı inkişaf davamlı olacaq. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatına sahib idi. Son 10 ildə iqtisadiyyatımız 300 faiz artmışdı və zənnimcə bu, bizim üçün bir qədər yüksək göstərici idi. İndi də bu tempin azalması vaxtıdır. Valyuta ehtiyatları ilə biz bu vəziyyətdən çıxacağıq"-deyə, İ.Əliyev əlavə edib: "Təəssüflər olsun ki, hər OPEC üzvlərinin görüşündən sonra neftin qiyməti aşağı düşür. Bu səbəbdən də yeni mümkün görüşdən ehtiyatlanırıq".



# Azərbaycanın da yer aldığı Davos Forumu nə vəd edir - ekspertlərin mövqeləri toqquşur...



**Mehman Əliyev: "Qeyri-neft sektoru inkişaf edibsə, neftin qiyməti düşməklə niyə bütün bazar çöküb?"**



**Aydın Mirzəzadə: "Prezidentin Forumda iştirakı ölkəmizin beynəlxalq aləmdə, iqtisadi münasibətlərdə fəal oyunçu olduğunu göstərir"**



**Ərəstun Oruclu: "İlham Əliyevin çıxışı əslində sosial-iqtisadi vəziyyətlə bağlı kifayət qədər informativ və açıq bir çıxış idi"**

Davos Forumu və Azərbaycan prezidentinin səsləndirdiyi fikirlərə yanaşmalar müxtəlifdir.

"Turan" Agentliyinin direktoru Mehman Əliyev bildirdi ki, ölkə başçısının dedikləri təbliğat məqsədi daşıyır: "Məsələn, turizmin inkişafından danışıldı. Azərbaycanda turizmin inkişafı harda var ki? Mən bilirəm ki, Gürcüstanda var, bunu gözümlə də görmüşəm. Ancaq Azərbaycanın yerli əhalisi xaricə qaçır, xaricilər də bura gəlmirsə, hansı turizmdən söhbət gedə bilər? Milyardlarla pullar gedib. Yaxud qeyri-neft sektoru inkişaf edibsə, neftin qiyməti düşməklə niyə bütün bazar çöküb? Yerli istehsaldan danışılır. Ancaq bizə yerli çay adı ilə bazara çıxarılan çay Hindistandan, şəkər Braziliyadan, taxıl Rusiyadan gətirilir. Ona görə də qiymətlər qalxmalıdır. Ölkədə 70 faiz yerli istehsalın olduğu barədə deyilənlərlə razılaşmaq olmaz. Çünki beynəlxalq qurumlar Azərbaycanda vəziyyətin necə olduğunu kifayət qədər gözəl bilirlər". M.Əliyev Davos Forumunun Azərbaycan üçün ciddi əhəmiyyətinin olmayacağı qənaətindədir: "Azərbaycan indi öz məsələləri ilə məşğul olmalı, problemləri həll etməlidir. Hökumət dövləti və xalqı böhrana salıb. Bu tipli böhran bizdə olmamalıydı. Bu böhran onu göstərdi ki, bu hökumət neftsiz heç nə edə bilmir. Gəlsinlər problemləri həll etsinlər. Çünki vəziyyət getdikcə pisləşir".

YAP Siyasi Şurasının üzvü, deputat Aydın Mirzəzadə isə hesab edir ki, prezident İlham Əliyevin Davos Forumunda iştirakı Azərbaycanın beynəlxalq aləmdə, iqtisadi münasibətlərdə fəal oyunçu olduğunu göstərir: "Cənab prezidentin geniş, əhatəli görüşləri, panel çıxışı onun dünya ilə bağlı Azərbaycanın prinsipial mövqeyini ortaya qoyduğunu və milli maraqlarımızı müdafiə mövqeyindən çıxış etdiyini göstərdi. Bu da auditoriya tərəfindən çox maraqla qarşılandı". A.Mirzəzadə Forumun Azərbaycan üçün əhəmiyyətindən də danışdı: "Birincisi, biz dünyanın bir hissəsiyik. Dünya üçün xarakterik olan uğurlar və çətinliklər Azərbaycan üçün də var. Azərbaycan bu situasiyada özünün maraqlarını həmişə çox yüksək səviyyədə qoruyur. Eyni zamanda Azərbaycan hökuməti dünyanın böyük şirkətlərinin marağını daim Azərbaycana cəlb etməyə çalışır və bu istiqamətdə uğurlar əldə edib. Həmçinin bu gün Azərbaycan özü artıq dünya əmək bölgüsündə fəal iştirak edir, dünyaya təkcə neft yox, qeyri-neft ölkəsi kimi də çıxır. Ona görə də bu görüşlərin və münasibətlərin iqtisadi problemlərin həllində, ümumən region və dünya üçün uğur gətirəcək həll yollarının tapılmasında Azərbaycanın böyük marağı var".

"Şərq-Qərb" Araşdırmalar Forumunun rəhbəri, politoloq Ərəstun Oruclu Davos Forumunu "sıradan bir forum" adlandırdı: "Orda qeyri-adi bir şey olmadı. Konkret olaraq İlham Əliyevin çıxışına gəlincə, əslində sosial-iqtisadi vəziyyətlə bağlı kifayət qədər informativ və açıq bir çıxış idi. Çıxışda reallıq qismən əksini tapmışdı. Əvvəlki çıxışlarında İlham Əliyev ölkədəki sosial-iqtisadi vəziyyəti tam fərqli dəyərləndirirdi. Amma həmin çıxışında beynəlxalq auditoriya qarşısında yetərincə açıq şəkildə, bəzi məqamlar sətiraltı deyilmiş də olsa, hər halda açıq şəkildə mesaj verildi ki, Azərbaycanın sosial-iqtisadi vəziyyəti hansı mərhələdədir, hansı səviyyədədir. Əslində bu, müxtəlif beynəlxalq maliyyə institutları və investorlarında Azərbaycana maraq doğura bilər. Məsələ burasındadır ki, investorların ölkəyə maraq göstərməsi üçün şərtlər təmin olunmalıdır. İlk növbədə investisiyaların qorunmasına dair qanunvericilik aktları, paketi olmalıdır. İkinci növbədə həmin o qanunvericilik aktlarını qoruyan, təmin edən məhkəmə sistemi olmalıdır. Nəhayət, Azərbaycanda investorlarla, xüsusən xarici investorlarla bağlı çox qəribə addımlar atılır. Məsələn, son müşavirədə İlham Əliyev dedi ki, biz investorları cəlb eləməli, dəvət etməliyik. Onun səhəri günü Mərkəzi Bank parlamentə valyuta dövriyyəsi haqqında qanunla bağlı düzəliş təklif etdi - ölkədən çıxarılan valyutaya 20 faiz rüsum tətbiq olunması ilə bağlı. Bu, absurddur. Belə bir şey investor nəinki ölkədən qaçırır, heç onu gəlməyə qoymur".

Ə.Oruclu qeyd etdi ki, vəziyyət parodoksaldır: "Ölkə hökumətinin bu gün sosial-iqtisadi durumla bağlı hansısa planlarının olması görünmür. Mən 5, ya 7 illik planlardan danışmıram, söhbət 2-3 həftəlik, 1-3 aylıq planlardan gedir. Ona görə də sağa-sola addımlar atılır, 1 həftə, 10 gün sonra verilən sərəncamın təsiri dayandırılır, qərar ləğv olunur. Davosdakı çıxışdan da açıq görünürdü ki, Azərbaycan hökumətinin sosial-iqtisadi vəziyyətlə bağlı hər hansı bir strateji planı, proqramı yoxdur. Daha çox neft qiymətlərinə hesablanmış ümidlər, gözləntilər. Bu isə olmayacaq. Mən inanmıram ki, bu il neftin qiyməti 35-40 dollardan yuxarı qalxacaq. Gələn il isə builkindən də ucuz olacaq, çünki alternativ enerji mənbələri sürətlə işə salınır, artıq enerji bazarında öz yerini tutmağa başlayıb. Ondan başqa da enerji bazarına daxil olan yeni oyunçular, o cümlədən konkret olaraq İran hələlik bu gün yarım milyon - 1 milyon barel həcmində bazara neft çıxarır. Ancaq onun bu imkanı 7-8 milyon barel neft çıxarmağa çatır. Belə olan halda neftin bahalaşacağını gözləmək reallıqdan uzaqdır".

**Cavid TURAN**

## "Mitinq məsələsi Müsavatda müzakirə olunur"

### Müxalifətin son bir ayda hərəkətə gəlməməsi suallar yaradıb



Razim Əmiraslanlı

**Ekspertlər iddia edir ki, ölkədəki iqtisadi böhran, işsizlərin sayının artması müxalifətin elektoral və sosial bazasını artırır, müxalifət partiyalarının mövqelərini möhkəmləndirir.**

Paradoksal hal isə odur ki, müxalifət yaranmış durumdan mitinqlər keçirmək üçün istifadə etmir. Hətta rayonlarda süni qiymət artımına qarşı əhalinin keçirdiyi etiraz aksiyalarının təşkilində heç bir şəkildə iştirakçı olmadığını müxalifət partiyaları az qala hər gün bəyan edirlər.

Normalda isə istənilən ölkədə Azərbaycandakı kimi situasiya yaransaydı etirazların önündə müxalifət dayanardı. 2015-ci ilin 21 fevralında Azərbaycanda ilk devalvasiya həyata keçiriləndən az sonra Müsavat Partiyası və Milli Şura mitinqlər keçirmişdi. 21 dekabrda daha kəskin devalvasiya və bunun ardınca dəhşətli bahalaşma, iş yerlərinin ixtisarı prosesi başlansa da müxalifətin heç bir etiraz aksiyası ortada yoxdur.

Ölkədə son bir ayda bu qədər ciddi proseslər, etiraz aksiyaları hadisələri olmağına baxmayaraq müxalifətin nədən adi bir piket belə, keçirməməsi barədə sualımıza cavabında Müsavat Partiyasının Divan üzvü Razim Əmiraslanlı bildirdi ki, ölkədə həqiqətən də çox ciddi siyasi iqtisadi kritik bir vəziyyət yaranıb. Bu vəziyyət hal-hazırda Müsavat Partiyasının strukturlarında ciddi müzakirə olunur. O cümlədən mitinq keçirmək məsələsi də müzakirə olunur: "Biz xalqın sosial vəziyyətlə bağlı keçirdiyi bütün aksiyaları dəstəkləyirik. Müsavat Partiyası da aksiya keçirəcəyi halda öncədən Konstitusiyaya və "Sərbəst Toplaşmaq Azadlığı Haqqında" Qanuna uyğun olaraq müvafiq icra hakimiyyəti orqanına rəsmi müraciət edəcək".

Bəzi müxalif siyasətçilər isə iddia edir ki, etiraz aksiyalarının müxalifət tərəfindən təşkil edilməməsinə baxmayaraq, ya bu proses özünün yeni təşkilatlanma formasını tapacaq və öz liderlərini ortalığa qoyacaq, ya da indiki siyasi müxalifətin idarəçiliyini və təşkilatçılığını qəbul edəcək. Çünki kortəbii və spontan şəkildə bu vəziyyət uzun müddət davam eləyə bilməz. Yəni özünün mütləq siyasi formasını tapacaq. İstənilən halda siyasi müxalifətin ən tez zamanda proseslərə qoşulacağı və prosesə siyasi rəhbərlik edəcəyi qanunauyğunluqdur.

**E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 16 (6337) 23 yanvar 2016



# SOCAR niyə özəlləşdirilə bilməz?

## Ekspertlər yalnız SOCAR-ın tərkibindəki qurumların və zavodların ayrılmasının mümkün olduğunu bildirirlər...

**“Yaxın vaxtda Azərbaycan hökuməti özəlləşdirməyə çıxarılacaq dövlət aktivlərinin siyahısı ilə bağlı müzakirələrə başlayacaq”. Bunu RİA “Novosti” agentliyinə açıqlamasında Azərbaycan prezidenti İlham Əliyev deyib. Dövlət başçısı qeyd edib ki, ölkənin əsas ixrac məhsulunun dəyərsizləşməsi səbəbindən Azərbaycan hökuməti strateji aktivi olan SOCAR-ı özəlləşdirilməyəcək: “SOCAR dövlətin strateji aktividir. Bu səbəbdən onun özəlləşdirilməsindən söz gedə bilməz”. Müxbirin “Rusiya şirkətləri Azərbaycanın dövlət aktivlərinin özəlləşdirilməsində iştirak edə bilərmi” sualına prezident bu cür cavab verib: “Rusiya Azərbaycanın yaxın dostudur. Əgər istəsələr, yalnız şad olarıq. Lakin hələ ki, müraciət edən olmayıb”.**

Ekspertlər isə bildirirlər ki, indiki durumda SOCAR-ın özəlləşdirilməsi doğru olmazdı: “Bu, doğru qərar olmazdı. Çünki SOCAR-ın bitməmiş layihələri var. TANAP layihəsində pay məsələsi var. TAP layihəsində, Şahdəniz 2-də işlər gedir. SOCAR-ın özəlləşdirilməsi məsələsi o zaman daha aktual olar ki, bu aktivlər, bu işlər bitmiş olsun tamam və SOCAR-ın qiyməti bazar dəyəri daha da artmış olsun. O zaman SOCAR-ın özəlləşdirilməsinə ehtiyac yarana bilər. Və bu, indiki şəraitdə doğru addım olar. SOCAR-ın özəlləşdirilməsi ən sonda atılacaq addımdır. Sadəcə SOCAR-ın özündə problemlər var ki, idarəetmənin optimallaşdırılması üçün SOCAR-a birləşdirilmiş, qaynaq edilmiş bir çox qurumlar var. Onlar SOCAR-dan yenidən ayrılıb özəlləşdirilə bilər. Məsələn, "Azəriqaz" SOCAR-ın tərkibinə verildi. Qurum SOCAR-ın tərkibindən çıxarılıb yenidən özəlləşdirilməyə, yaxud idarəetməyə verilə bilər. SOCAR-ın da çiynində yükü yüngülləşsin. Yəni “Azəriqaz”ın yükü onun çiynindən keçsin. Bundan başqa, SOCAR-ın tərkibində bir neçə institutlar, elmi idarələr, müxtəlif laboratoriyalar fəaliyyət göstərir. Hansılar ki, ciddi effektivliyi yoxdur. Onların SOCAR-ın tərkibindən çıxarılması gündəmə gələ bilər, sonra onların özəlləşdirilməsi prosesi baş verə bilər. Yəni SOCAR ümumiyyətlə, hər şeylə məşğul olan bir şirkət halına gəlib. Tikinti ilə də məşğul olur, başqa sahələrə də yatırım edir, başqa sahələrlə, ekologiya ilə də, yaşıllaşdırma ilə də məşğul olur. Regionlarda diaqnostik mərkəzlər də tikir. Ölkədə hansı sahəyə əl atsan, orada SOCAR-ın müəyyən fəaliyyəti var. Bu, doğru deyil. SOCAR neftin çıxarılması ilə məşğul olmalıdır. Neftin çıxarılmasından kənar nə fəliyyət varsa, SOCAR-dan çıxarılaraq sonradan özəlləşdirilməyə açıla bilər. Bu, daha doğru və daha effektiv ola bilər. SOCAR-ın tərkibində emal zavodları da var. Onlar da tərkibdən çıxarılaraq özlləşdirilməyə açıla bilər. Bəlkə xarici investorlar gələr, müəyyən inversitiya qoyub yeni texnologiyaların, yeni avadanlığın gətirilməsinə nail ola bilər. Çünki həmin zavodlarda çox köhnə, bərbad avadanlıqlar var. Onun nəticəsidir ki, ölkədə istehsal olunan benzin çox keyfiyyətsizdir. Hətta premium markalı benzini belə istehsal edə bilmirik, xaricdən alırıq. Dünyada hər yerdə benzinin qiyməti düşür, bizdə düşməyib. SOCAR-ın müəyyən strukturlarını ixtisar etməklə, SOCAR-dan ayırmaqla özəlləşdirməyə açıla bilər. Amma şirkətin özü, kapitallaşması ən yükdək həddə o vaxt açılacaq ki, əlində olan layihələr bitsin və o, gəlir gətirməyə başlasın. Onda SOCAR-ın bazar dəyəri də xeyli dərəcədə artacaq".

❑ RÖYA

# Ədliyyə Nazirliyinin idarə rəisi və əməkdaşı prezidentin iradəsinə qarşı...

## Redaktor ədliyyə orqanında üzləşdiyi özbaşınalıqla bağlı ölkə başçısına müraciət etdi: “Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti idarəsinin rəisi qanunları pozaraq verməli olduğu, hazırlanması maksimum 2 saata mümkün olan sənədi 10 gündür təqdim etmir”

**Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsinin Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti idarəsinin rəisi Rahim Rəhimov və bu qurumun əməkdaşı Mədinə Rəsulova, səlahiyyət hədlərini aşaraq, ictimai təşkilatlara, hüquqi şəxslərə qarşı qanunsuzluqlar edirlər.**

Burada baş verən məmur özbaşınalığı və vətəndaşlarla qanunsuz davranışlarla “Yeni Müsavat” qəzetinin redaktoru Elşad Məmmədli də üzləşib. O, başına gələnlərlə bağlı deyib: “Prezident İlham Əliyevin ictimai nəzarətin gücləndirilməsinə dair tapşırıqlar verdiyi, vətəndaşlarla qanundankənar davranışlar sərgiləyən məmurlara sərt xəbərdarlıqlar etdiyi, ortaya ciddi iradə qoyduğu bir vaxtda, Rahim Rəhimovun rəhbərlik etdiyi qurumda sözün əsl mənasında bürokratiya, süründürməçilik, qanunsuzluq, məmur özbaşınalığı, insanlarla anormal davranış hökm sürür. Burada vətəndaşı o həddə çatdırırlar ki, bir balaca əsəbləri yerində olmayan şəxs elə idarənin qarşısında özünü yandırmaq məcburiyyətində qalar. Hazırda lazımsız dövlət qurumlarının ləğvi istiqamətində addımlar atılır. Ləğvi zəruri olan qurumlardan biri də məhz buradır. Mən təmsilçisi olduğum - dövlət qeydiyyatından keçmiş, daim dövlətçiliyin güclənməsinə dair layihələr icra etmiş təşkilatın növbəti ümumi yığıncağı keçirildikdən sonra QHT-nin Dövlət Reyestrindən çıxarışını almaq üçün yanvar ayının 12-də Qeydiyyat və Notariat Baş İdarəsinə getdim. (Yeri gəlmişkən, qeydiyyatdan keçmiş, əlində şəhadətnaməsi olan təşkilata belə bir çıxarışın təkrar-təkrar verilməsinin özü absurddur. Bu ona bənzəyir ki, mən Daxili İşlər Nazirliyindən aldığım şəxsiyyət vəsiqəsini gedib hər iki ildən bir təsdiqlətməliyəm ki, bu doğrudur). Orada qəbul şöbəsində bildirdilər ki, sənədləri üzərinə "QHT-lərin sənədlərinin qəbulu" yazılmış qutuya atım, özləri gəlib götürəcək. Yanvarın 13-də 16:20 radələrində özünü Mədinə Rəsulova kimi təqdim edən bir xanım telefon açaraq, sənədlərdə müəyyən qüsurlar olduğunu bildirdi. Həmin qüsurların nədən ibarət olduğunu soruşduqda dedi ki, müraciət qaydası onların müəyyən etdiyi formaya uyğun deyil. Hansı ki, iki il əvvəl hansı formada müraciət etmişdiksə, yenə də həmin formada ərizə təqdim etmişdik. Onların bürokratik tələbi səbəbindən Mədinə xanım həmin formanı elektron poçt vasitəsi ilə mənə yolladı. Onu yenidən doldurub yanvarın 13-də saat 11:30 radələrində şəxsən Mədinə Rəsulovaya təqdim etdim. Qanunla reyestrdən çıxarış 5 gün ərzində verilməlidir. Ötən həftənin sonunda Mədinə xanımla əlaqə saxladım, bildirdi ki, sənədlər rəisdədir, imzalasın, götürəcəm. Mən bu idarəyə azı 30 dəfə telefon açdım, ancaq sənədin verilməsinin niyə yubadıldığına dair Mədinə Rəsulova mənə heç bir məlumat vermədi. Onun yalnız bir bəhanəsi var: “Rəisin qəbuluna düşə bilmirəm ki, sənədi imzaladım”. Nəhayət, o yanvarın 19-da açıqlı şəkildə mənə bildirdi ki, sənəd 5 iş günü tamam olanda veriləcək. Yanvarın 21-də mənim sənədləri o idarəyə təqdim etməyimdən artıq 9 gün, iş günü hesabı ilə 6 iş günü keçirdi. Lakin yanvarın 21-də Mədinə Rəsulova sözün əsl mənasında məni ələ saldı. O, sənədin verilməsi üçün son gün olduğunu özü də bildirdi, lakin saat 17:50 radələrində zəng etdikdə, bir xanım dəstəyi qaldıraraq, Mədinə xanımın işdən getdiyini bildirdi. Ondan sənədlərimin taleyini soruşduqda, “yəqin rəis imzalamadı, ona görə də vermədi” dedi. Həmin xanıma bildirdim ki, bu artıq özbaşınalıqdır, prezidentin ortaya qoyduğu iradəyə ziddir və mən qanunsuzluqla bağlı cənab prezidentə müraciət edəcəm. Yanvarın 22-də səhər saat 10:15 radələrində quruma bir daha telefon açıb son durumu öyrənmək istədim. Mədinə Rəsulova dəstəyi qaldırıb, mənim kimliyimi bilən kimi, ironiya ilə “bəs siz prezidentə müraciət etmədiniz?” deyərək, misli görünməmiş məmur özbaşınalığı etdi. Bu zaman həm də o bəlli oldu ki, bir gün əvvəl “Mədinə xanım getdi” deyən xanım özü elə M.Rəsulova imiş. Bu artıq o deməkdir ki, Mədinə Rəsulova rəisi Rahim Rəhimovla bərabər ölkədə nə qanun, nə də prezident göstərişinə məhəl qoyurlar. Belə adamların vətəndaşlarla işləməsi yolverilməzdir. Faktiki olaraq mənə qanunla 5 gün müddətində verməli olduqları çıxarışı 10 gündür vermirlər. Bu, hüquqi dövlətdə yaşayan vətəndaşa, qanunlara, konstitusiyaya bir məmurun meydan oxuması deməkdir".




E.Məmmədli bildirdi ki, məsələ ilə bağlı yanvarın 15-də Rahim Rəhimovla da telefon əlaqəsi saxlayıb: “Ondan sənədlərin taleyi ilə bağlı maraqlandıqda, qəribə bir tonda, əda ilə ictimai təşkilatları sanki əhəmiyyətsiz hesab edərək danışdı, minnətlə bildirdi ki, vaxtı olanda sənədi imzalayacaq. Hansı ki, onun işi məhz bu sənədləri verməkdir! O, bir daha ona zəng etməməyi "tapşırdı". Sanki bu qurum onun şəxsi ofisidir. Hansı ki, ölkə prezidenti bütün çıxışlarında məmurlara vətəndaşlarla davranışlarını qaydaya salmaq, bürokratik əngəlləri aradan qaldırmaq üçün tapşırıq verir. Görünür, dövlət başçısının bu göstərişi Rahim Rəhimov və onun idarəsinin işçisi üçün keçərli deyil. Mən müəyyən araşdırmalar apardım, bəlli oldu ki, Mədinə Rəsulova sənədlərinin qəbul edilməsi ona tapşırılan bütün QHT-lərlə bu cür, üstdən aşağı davranıb, şikayət edəcəyini bildirənlərə isə “nə bilirsiniz edin”, “siz kimsiniz ki” kimi cavablar verib. Həmin qurumda təkcə ictimai təşkilatların deyil, bütün hüquqi şəxslərin, sahibkarların, sadə vətəndaşların başına oyun açılır. Burada bu günlər ərzində olduğum müddətdə müxtəlif hüquqi şəxslərin başına oyunlar açıldığına şahidlik etmişəm. 21-ci əsrdir, hələ də bu qurum hüquqi şəxslərdən sənədləri qovluqda qəbul edir. Hansı ki, əksər qurumlar bu kimi sənədləri elektron qaydada qəbul edir və cavablandırır, effektiv fəaliyyət göstərir. Bu qurumun səlahiyyətlərinin ASAN Xidmətə verilməsi zərurəti var. Əminəm ki, cənab prezident bu məsələyə ciddi reaksiya verəcək. Habelə, hörmətli nazir Fikrət Məmmədovun rəhbərlik etdiyi nazirliyin nüfuzuna xələl gətirən bu məmurları cəzalandıracağına inanıram".

E.Məmmədli dedi ki, məsələ ilə bağlı Ədliyyə Nazirliyinin İctimaiyyətlə əlaqələr idarəsinin rəisi Faiq Qurbanovla da danışıb. O, sadəcə bu durumdan təəssüfləndiyini bildirib: “Son olaraq mən bu süründürməçiliyin səbəblərinə aydınlıq gətirmələri üçün 22 yanvarda, saat 16 radələrində Rahim Rəhimov və Mədinə Rəsulova ilə telefon əlaqəsi saxladım. Rəhimov kimliyimi bildikdən sonra dəstəyi asdı və təkrar zənglərə cavab vermədi, M.Rəsulova isə bu qanunsuzluğu hansı səbəbdən etdiklərinə dair sualıma "hazır olanda xəbər edəcəyik" kimi absurd cavablar verdi. Daha sonra Qeydiyyat və Notariat İdarəsinin rəisi İlqar Məmmədovun xidməti telefonuna da zəng etdim. Dəstəyi qaldıran şəxs özünü təqdim etməsə də, şikayəti dinlədi və əlaqə saxlayacağını bildirdi. Ancaq ondan da bir xəbər olmadı.

Mən bir vətəndaş, jurnalist və ictimai fəal olaraq, ilk dəfədir ki, bu cür misli görünməmiş məmur özbaşınalığının, qanunsuzluğun şahidi oluram.

Cənab prezidentə artıq elektron qaydada və mətbuat vasitəsilə müraciət etmişəm. Prezidentdən bu şəxslərin cəzalandırılmasına dair göstəriş verməsini, adıçəkilən qurumun mənə təqdim etməli olduğu sənədin verilməsində köməklik göstərməsini xahiş etmişəm".

❑ M.MAHRIZLI

YENİ MÜSAVAT
N 16 (6337) 23 yanvar 2016

## Böhrandan qurtuluş yolunda inqilabi qərar anonsu

**Neftin rekord həddə ucuzlaşması fonunda Azərbaycan manatının da ciddi miqyasda dəyər itirməsi və bundan doğan ağır sosial-iqtisadi fəsadlar hakimiyyəti təcili və radikal addımlar atmaq zorunda qoyub. Heç şübhəsiz ki, bu addımların qayəsində ölkə iqtisadiyyatı və büdcəsini sürəkli şəkildə "neft iynəsi"ndən qurtarmaq durmalıdır. Ancaq necə? Əsas sual da elə budur - xüsusən ölkə sükanı arxasında duranlar üçün. Çünki düşünməyə bir elə zaman qalmayıb.**



# Azərbaycanı yenidən qurmaq planı - Polşa modeli masanın üstündə...

Ölkə iqtisadiyyatı yeni modeldə qurulur; manatın ikinci devalvasiyasından sonra vəziyyətin xilası üçün üç ölkədən Bakıya ekspert-məsləhətçi qrupu çağırılıb; "Sinqapur modeli" niyə məqbul sayılmadı?; **Prezident:** "İslahatlar üçün yaxşı vaxtdır..."

Belə görünür, ölkə rəhbərliyi də getdikcə ağırlaşmağa meylli olan situasiyanın fərqindədir. Hər halda prezident İlham Əliyevin son qərarları və açıqlamaları bu qənaəti yaradıb. Həmçinin, ölkə başçısının Davos Forumunda söylədiyi fikirlər nikbinliyi artıran məqamlardan hesab oluna bilər.

Belə ki, çıxışlarında o, Azərbaycanda islahatlar aparmaq üçün yaxşı vaxt olduğunu söyləyib. Sitat: "Ölkə maliyyə sektorunda fundamental islahatlara, iqtisadi islahatlar aparmağa, ixrac yönümlü qeyri-neft məhsullarının istehsalına başlanıb". Dövlət başçısı daha sonra ölkənin böhranın öhdəsindən gələcəyinə əmin olduğunu bildirərək, pozitiv start göstəricilər qismində onu da diqqətə çatdırıb ki, xarici borc ÜDM-in cəmi 12 faizini təşkil edir və xarici valyutada böyük ehtiyatlar var.

Ölkədəki son etiraz aksiyalarına toxunan prezident deyib: "Bu, kiçik bir etiraz idi. Bunun səbəbi də insanların hazır olmadığı bir stress vəziyyəti yaşaması idi. Amma artıq bu, bitdi və zənn edirəm ki, Azərbaycandakı inkişaf davamlı olacaq... Biz bu vəziyyətdən çıxacağıq".

Ancaq gerçək belədir və bunu da hamıdan yaxşı ölkə rəhbəri yəqin bilir ki, bu il neftin bahalaşması gözlənilmir və manata təzyiqlər ciddi olaraq qalır. İlham Əliyevin Davos forumuna yollanmazdan öncə səsləndirdiyi digər analoji fikirlərin də nəzərə alsaq, güman etmək olar ki, prezident yaranmış vəziyyətdən çıxış eləməklə hansısa qeyri-ordinar, qeyri-populyar, lakin radikal qərarlar vermək ərəfəsindədir.

***

Bu yöndə redaksiyamıza mötəbərliyinə şübhə etmədiyimiz mənbədən kifayət qədər ilginc məlumat daxil olub. Məlumatın qayəsi belədir: manatın ikinci devalvasiyasından sonra hakimiyyət vəziyyətdən çıxış yolu tapmaq üçün ciddi çabalar içindədir və bu məqsədlə üç ayrı-ayrı ölkədən Bakıya ekspert-məsləhətçi qrupu çağırılıb. Bu ölkələr - iqtisadi sıçrayış eləmiş Sinqapur, Latviya və Polşadır. İddialara görə, onlar 10-15 gün ərzində ölkənin iqtisadi və biznes göstəricilərini təhlil edərək, rəhbərliyə müvafiq tövsiyələr veriblər.

Çatan bilgilərə görə, Sinqapurlu ekspertlər bir neçə amili sadalamaqla (onların arasında korrupsiyanın yüksək səviyyəsi, təhsilin aşağı göstəriciləri öndə gəlir) Azərbaycanın "Sinqapur modeli"nə keçidinin mümkün olmadığını diqqətə çatdırıblar. Qeyd edək ki, bir sıra tanınmış yerli iqtisadçı və siyasi ekspertlər zaman-zaman Azərbaycan iqtisadi inkişafı üçün məhz "Sinqapur modeli"ni məqbul sayıblar. Bu model haqda aşağıda bilgi veriləcək.

***

Məlumatın ən ilginc hissəsi isə məsləhətləşmələrin sonunda Bakının Sinqapur və Latviya yox, Azərbaycanı yenidən qurmaq, iqtisadiyyatı sıfırdan modelləşdirməyə başlamaq üçün məhz Polşa variantına üstünlük verməsi ilə ilgilidir. Bu qərara hansı motivlərin təsiri etdiyi deyilmir. İstisna deyil ki, son anda Azərbaycanın Avrasiya məkanının bir parçası və Avropa Şurasının üzvü olması gerçəkliyi, habelə Polşanın qısa zamanda iqtisadi yüksəlişə nail olması və bəzi başqa faktorlar həlledici rol oynayıb.

Bu yerdə Polşa ilə bağlı bəzi siyasi-iqtisadi özəllikləri qeyd etməyin yeri var: Polşa hazırda Avropanın, Avropa Birliyinin ən sanballı, inkişaf eləmiş və mühüm dövlətlərindən biridir, ölkədə ideal biznes şəraitinin yaradıldığı haqda rəy var. ABŞ-ın "kölgə kəşfiyyatı" sayılan "Stratfor" analitik mərkəzinin bu yaxınlarda yaydığı hesabata görə, Polşa yaxın on ildə öz inkişafı hesabına Avropa Birliyinin əsas dövlətinə, NATO-nun aparıcı dövlətlərindən birinə çevriləcək və nüfuzuna görə AB-də hətta Almaniyanı əvəzləyəcək.

Polşa həmçinin, Azərbaycanın da üzv olduğu Avropa Birliyinin "Şərq tərəfdaşlığı" proqramının təşəbbüsçüsü və müəllifidir. Eyni zamanda Ukraynada Rusiya işğalına, bütövlükdə işğala qarşı ən prinsipial mövqedə dayanan Avropanın bir neçə ölkəsindən sayılır...

***

Bəs iqtisadi sıçrayışın "Sinqapur modeli" nədir? Arayış üçün bildirək ki, Azərbaycan iqtidarı üçün yaxınlaradək cəlbedici olduğu deyilən Sinqapur tipli respublika modelində avtoritar üsullarla çox yüksək inkişafa nail olunub. Bu ölkədə sərt qanunlar, sərt cəza mexanizmləri tətbiq edilir, açıq cəmiyyət anlayışı yoxdur, media üzərində senzura var, dövlət sirri hər şeydən üstündür, məhkəmələr baş nazirə, dövlət başçısına tabedir. Korrupsiya, rüşvətxorluq yox dərəcəsindədir və buna görə ən ağır yüksək cəzalar nəzərdə tutulur. Maaş və əməkhaqları yüksəkdir.

Sinqapurda konkret olaraq korrupsiyaya ilə uğurlu mübarizə məhz xüsusi bir dövlət orqanının yaradılması hesabına mümkün olub (Azərbaycanda da formal olaraq belə bir qurum var - Korrupsiyaya Qarşı Mübarizə İdarəsi). Polisin və prokurorluğun səlahiyyətləri həmin quruma verilib. Bu qurum birbaşa baş nazirə tabedir. Korrupsiyaya qarşı mübarizə isə ən əvvəl "yuxarılar"dan start götürüb. Bu zaman hətta ölkə başçısının qohumları da həbs edilmişdi.

Bundan əlavə, ölkə qanunvericiliyinə çoxsaylı ciddi dəyişikliklər edilib və korrupsiya ilə mübarizə aparan məmurlar yüksək maaşla təmin olunublar. Daha sonra məhkəmə sistemində islahatlar aparılıb və hakimlərin maaşı qaldırılıb. Çünki bu, bir aksiomdur ki, məhkəmələr müstəqil olmadan, məmurlar yüksək maaş almadan korrupsiya və rüşvətxorluqla effektli mübarizə mümkün deyil. "Sinqapur modeli"ndə dövlət tərəfindən bütün bu proseslər üzərində ciddi nəzarət var. Korrupsiyaya qarşı mübarizənin demokratik ölkələrdəki modelinin avtoritar ölkələrdəki modeldən fərqi də elə bundadır.

***

Lakin Azərbaycan üçün hansı iqtisadi inkişaf modelinin seçilməsindən asılı olmayaraq, əksər siyasi və iqtisadçı şərhçilər bir məsələdə yekdildirlər: uğurlu islahatlardan ötrü üç mühüm şərtin təmin edilməsi vacibdir - siyasi iradə, islahatçı komanda və islahat proqramı.

Azərbaycanda bu üç şərtin keçərli olub-olmadığı yəqin ki, lap yaxında bilinəcək. Bu vaxt çox uzana da bilməz. Çünki zaman olduqca az qalıb. Azərbaycan üçün "Qum saatı" işə düşmüş sayıla bilər.

❑ **Analitik xidmət**

# İlk genosidi kim törədib?



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

## Öz gözlərində tiri görməyən rus siyasilərin xəstə məntiqi haqda

**Rusiya o unikal dövlətlərdəndir ki, zaman-zaman öz layiq olduğu adı başqasına qoyub, özünün tarixi cinayətlərini başqasının adına çıxarmağa çalışıb, işğal aktlarını azadlıq kimi xalqlara və dünyaya sırımağa səy edib. Fəlakətli haldır ki, eyni siyasət bu gün də Putinin timsalında davam edir.**

Abxaziya, Cənubi Osetiya və Krımı işğal edən, Donbasa faktiki, qoşun yeridən Moskva utanmadan beynəlxalq qanunlardan, beynəlxalq birliyə sayğıdan danışır, ona qarşı iki ildir haqlı olaraq tətbiq edilən sanksiyaları ədalətsiz hesab edir. Çünki onun öz "ədalət" anlayışı və ölçüsü var. Nə yazıqlar ki, bu anlayış az qala, irili-xırdalı bütün Rusiya siyasilərinə və ziyalılarına xasdır.

"Ədalət"dən söz düşmüşkən, Rusiyanın "Ədalətli Rusiya" partiyasının sədri, tanınmış siyasi xadimlərindən biri, Federasiya Şurasının sabiq sədri, hazırda isə Dövlət dumasının üzvü və "erməni genosidi"ni inkarına görə cinayət məsuliyyəti nəzərdə tutan bədnam qanun layihəsinin müəllifi Sergey Mironov haqqın.az saytına müsahibəsində ilk genosidin 1915-ci ildə məhz Osmanlı imperiyasında ermənilər, assuriyalılar və yunanlara qarşı törədildiyini söyləyib.

"Bu, kütləvi fiziki məhvetmə və qaçılmaz ölümə gətirib çıxaran deportasiya yolu ilə həyata keçirilib" deyən rus siyasətçi onu da əlavə edib ki, "bütöv bir xalqın sürətli kütləvi qirğını metodunu ilk dəfə məhz yenicə yaranmış Türkiyə hökuməti həyata keçirib ki, sonradan da bu, Almaniyada nasist cinayətkarları tərəfindən öz tətbiqini tapıb".

Doğrudan da utanmasan, oynamağa nə var. Adam elə danışır ki, sanki bəşəriyyət yaranandan - Adəm peyğəmbərin vaxtından bütün tarixi dönəmlərin və ermənilərin başına gələnlərin canlı hal şahididir. Təbii ki, bu absurd iddia ilk növbədə Türkiyəyə, türk toplumuna, türk soyuna nifrətdən qaynaqlanır.

Türk soyu demiş, 14-15-ci əsrlərdə, çar İvan Qroznının dövründə Rusiyada türkdilli tatar xalqına qarşı soyqırım və assimilyasiya siyasəti aparan, bu xalqın bir hissəsini xristianlaşmağa məcbur edən məhz ruslar, Moskva idi (indinin özündə Tatarıstan Respublikasında xristian tatarlar yaşayır). Bunun özü ilk genosidlərdən deyilsə, nədir?

Söhbət 1915-ci ildən əsrlər öncə törədilın soyqırımdan gedir. Ondan sonra - XX əsrdə isə öz milli azadlığı uğrunda mübarizə aparan çeçen xalqına qarşı törədilən bəşəriyyət əleyhinə cinayətlər, bu xalqın bir neçə dəfə qan gölündə boğulmasını bəs hansı dövlətin ayağına yazaq?..

***

Siz ondan danışın ki, Rusiya siyasiləri hələ də imperiya düşüncəsindən qurtula bilməyib və hələ də SSRİ adlı imperiyanın çöküşünə görə yas və ağlaşma qurmaqda, hətta Lenini günahlar çıxarmaqdadırlar. Bu da Putinin son açıqlaması: Rusiya prezidenti SSRİ-nin qurucusu Vladimir İliç Leninin vəfatının 92-ci ildönümünə həsr edilən toplantıda görün nə deyib: "Leninin müdafiə etdiyi düşüncə üzündən Sovetlər İttifaqı dağıldı. Rusiya adı verilən binanın altına atom bombası yerləşdirildi və daha sonra Rusiya sarsıldı".

Sən demə, Lenin savab iş görübmüş. Belə baxanda Vladimir İliç bunlardan qat-qat demokrat imiş, çünki yerli xalqlara muxtariyyət, hətta müttəfiq respublika yaratmaq haqqı tanımışdı. Amma indiki Putin Rusiyası - orta əsrlərdəki kimi yad və qonşu əraziləri işğal edə-edə gedir.

O ki qaldı, Rusiya imperiyasının sarsılmasına, bu sarsılma əslində nə qədər güclü olsa, bir o qədər çox xalq azadlığa qovuşar, bəşəriyyət isə daha rahat nəfəs alar.

YENİ MÜSAVAT
N 16 (6337) 23 yanvar 2016

# ADP sədrinin yeni tezisinə müxalifətdən reaksiya

**ADP sədri Sərdar Cəlaloğlu "Hürriyyət" qəzetinə müsahibəsində Azərbaycan hakimiyyətinin ölkədə yaranmış vəziyyətdə atmalı olduğu addımlar barədə danışarkən iqtidarın real müxalifət qüvvələri ilə əməkdaşlığa getməsinin zəruriliyini bildirib. O qeyd edib ki, hakimiyyət ən azı özünü xilas etmək naminə müxalifətlə çox ciddi əməkdaşlıq etməlidir: "Azərbaycanda iki qrup müxalifət var. Birinci qrup inqilabi əhval-ruhiyyədə olan müxalifətdir.**

Hökumət bu qüvvələri o qədər ədalətsiz və yersiz şəkildə təqib etdi, əzdi, repressiya etdi ki, bunlar da təbii olaraq hökumətə qarşı düşmən münasibətdədir. Bu qrup ölkədə böyük inqilabların başlanmasının tərəfdarıdır. Məsələn, AXCP Azərbaycanda proseslərin inqilabi yolla getməsinin tərəfdarıdır. Biz bunu Rusiyanın tarixindən görürük. Vaxtilə Stolıpin deyirdi ki, biz böyük Rusiya istəyirik, siz böyük çaxnaşma istəyisiniz. İndi Azərbaycan müxalifətində də bir qrup ölkənin inqilabdan keçməklə bu vəziyyətdən çıxmasını istəyir, digər qrup islahatlarla. Şəxsən mən ölkənin islahatlarla bu böhrandan çıxmasının tərəfdarıyam. O qüvvələr ki, islahatlar yolu ilə ölkəni bu vəziyyətdən çıxarmaq istəyir, hökumətə də düşmənçiliyi yoxdur, baxmayaraq ki, hökumət onlara da düşmənçilik edir, hökumət bu qüvvələrlə istəsə də istəməsə də ən azı özünü xilas etmək naminə çox ciddi əməkdaşlıq etməlidir".

S.Cəlaloğlunun hakimiyyətin ən azı özünü xilas naminə müxalifətlə əməkdaşlıq etməsinin vacibliyi barədə fikirlərinə müxalifət partiyalarının rəhbərlərinin münasibətini öyrəndik.

**Müsavat Partiyasının başqanı Arif Hacılı** öncə bildirdi ki, "Hürriyyət" qəzetinin daimi oxucusu olmadığı üçün ADP sədrinin açıqlamalarının tam məzmunu ilə tanış olmaq imkanı olmayıb. Ümumilikdə isə hesab edir ki, ölkədə yaranan bütün problemlər kompleks olaraq həll olunmalıdır: "Hər hansı ayrı-ayrı islahatlar, istər siyasi olsun, istər iqtisadi olsun problemin həlli ilə nəticələnməyəcək. Ona görə də istər siyasi, istər iqtisadi islahatlar kompleks olaraq həyata keçirilməlidir. Bununla bağlı Müsavat Partiyasının konkret təkliflər sənədini təqdim edib. Hesab edirik ki, əgər bu təkliflər paketi müzakirə olunaraq ümumi kompleks şəkildə islahatlar həyata keçirilərsə indiki böhran şəraitindən ən az itkilərlə çıxmağı təmin etmək olar. Şübhəsiz ki, indi ən çətin vəziyyətdə olan elə iqtidarın özüdür. Çünki ölkədə baş verən proseslərə görə məsuliyyət hakimiyyətin üzərinə düşür. Eyni zamanda, Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmasının fəsadları da ən çox hakimiyyətə zərbə vura bilər. Ölkədə narazılıq dalğası hakimiyyətə qarşı yönəlir və hesab edirəm ki, hələ ki o qədər də ciddi görünməyən dalğalar daha da böyüyəcək və hakimiyyət daha da çətin duruma düşəcək. Məhz ona görə də biz problemlərin kompleks olaraq həll olunması tələbini irəli sürürük. Yəni yalnız parlamentin buraxılması ilə və ya yalnız hakimiyyətin real müxalifət qüvvələri danışıqlar aparması ilə problemlər həll olunmayacaq. Azərbaycanın daxili, xarici, iqtisadi siyasətində çox ciddi dönüş yaranmalıdır. Azərbaycan cəmiyyətinin konsolidasiya olunması zərurəti ortalıqdadır. Əgər istər Azərbaycan cəmiyyəti, istərsə də Azərbaycan hakimiyyəti Müsavatın irəli sürdüyü təkliflərə diqqətlə yanaşarsa, bu təkliflər ətrafında müzakirələr başlayarsa, biz digər təklifləri də dinləməyə hazırıq. Lokal tədbirlər bütövlükdə problemi həll etməyəcək. Azərbaycan hakimiyyəti ciddi düşünüb kompleks tədbirlər istiqamətində qərarlar qəbul etsə, addımlar atsa daha ağır iqtisadi və siyasi böhranın qarşısını almaq, bu böhrandan çıxmağa başlamaq mümkün ola bilər. İki aydan sonra isə artıq hər hansı bir tədbirlərin həyata keçirilməsi belə əhəmiyyətsiz olacaq".



**Arif Hacılı:**
"İki aydan sonra hər hansı tədbirlərin keçirilməsi belə əhəmiyyətsiz olacaq"



**Pənah Hüseyn:**
"Bəlkə də xilas yollarından biri müxalifətlə dialoqudur"

**AXP sədri Pənah Hüseyn** isə bildirdi ki, böhrandan hər kəs zərər görür və zərər görəcək: "Odur ki, böhranlı vəziyyətin zərər və zərbəsindən hakimiyyət də qurtula bilməz. Hər kəs özünün üzərinə düşən işləri həyata keçirmək üzərində çalışmalıdır, xalq da özü öz problemini həll eləməlidir. Sərdar Cəlaloğlunun da tövsiyə və təklifləri ən azı bəzi hakimiyyət dairələrinə çatar. Devalvasiya sözü bir çox təhlillərlə yanaşı, bir çox lətifələrin də əsas mövzularından biridir. Ona görə də hər şeyə tənqidi yanaşanda da deyirlər devalvasiyaya uğrayıb. Bu baxımdan, hakimiyyətlə iqtidarın əməkdaşlığı, hakimiyyət-müxalifət dialoqu mövzusu da xeyli devalvasiyaya uğrayıb. Sərdar bəy düz deyir, bəlkə də xilas yollarından biri dövlət başçısı ilə müxalifətin dialoqudur, əməkdaşlıq mühitinin yaranmasıdır. Hesab edirəm ki, ölkədə yaranan ciddi problemlərin həlli barədə həqiqətən nəticəyə yönəlik ciddi münasibətlərin qurulması işin faydasına olar".

❑ **Etibar SEYİDAĞA**

# Hikmət Hacızadə Etibar Məmmədov haqqında sirri açdı

## "Mən demişdim ki, o, AXC adından orada danışa bilməz, danışırsa, qoy Vəzirovla və Nemət Pənahovla birgə üzv olduğu "Milli Müdafiə Komitəsi"nin adından danışsın"



Hikmət Hacızadə

**Milli azadlıq hərəkatının liderlərindən biri, AMİP lideri Etibar Məmmədovun 24 il əvvəl dərc olunmuş müsahibəsinin yenidən ictimailəşməsi kəskin fikir toqquşmaları ilə müşayiət olunan müzakirələrə səbəb olub.**

Xatırladaq ki, "Aydınlıq" qəzetinin 1992-ci il, 17 aprel tarixli buraxılışına verdiyi müsahibədə E.Məmmədov AXC İdarə Heyətinin üzvü olan Hikmət Hacızadəni onun həbsinə razılıq verməkdə ittiham edib. Sitat: "Mənim mətbuat konfransımdan sonra Hikmət Hacızadə Moskvaya zəng edib bildirib ki, Etibar Məmmədovun danışıqlar aparmağa heç bir səlahiyyəti yoxdur, onunla danışıqlar aparılmasın. Çox keçmədən müstəntiqin də etiraf etdiyi kimi, AXC İdarə Heyətinin belə münasibətindən sonra həbs olunmağım qərara alınımbış. Beləliklə, mənim həbs edilməyim üçün ilk növbədə AXC İdarə Heyətindən, sonra isə Ayaz Mütəllibovdan razılıq alınımbış. Bu da bəllidir ki, məni 9 ay yarım həbsdə saxlamaqda məqsəd milli hərəkatı zəiflətmək idi".

**AMİP liderinin eks-prezidentlə bağlı ittihamlarına A.Mütəllibovun reaksiyası ötən sayımızda dərc olunub. Keçmiş prezidentin kəskin cavabına E.Məmmədov və onun partiyadaşı Əli Orucovdan sərt reaksiya gəlib. Müsahibədə açı çəkilən Hikmət Hacızadədə isə "Yeni Müsavat"a açıqlamasında bunları bildirdi:** "Etibar düz deyir. İdarə Heyəti onun Moskvada danışıqlar aparması üçün heç bir razılıq verməyib. Xüsusilə də ona görə ki, bütün bu faciənin bir hisssi məhz onun məsuliyyətsizliyindən yaranıb. Bundan sonra ona bizdə heç bir etibar qalmayıb". *"Şəxsən sizin Etibar Məmmədovla bağlı Moskvaya müraciətiniz olmuşdumu"* sualına cavabında H.Hacızadə bunları bildirdi: "Şəxsən mən heç yerə müraciət etməmişəm. Etibar Məmmədov burada yanılır. Etibar Azərbaycan SSR-nin Moskvadakı nümayəndəliyinə gələndə və orada mətbuat konfransı keçirəndə oradan dərhal mənə hansısa jurnalist zəng etmişdi. Həmin jurnalist məndən soruşdu ki, Etibar Məmmədovun burada AXC adından danışmağa səlahiyyəti varmı? Mən də demişdim ki, o, AXC adından orada danışa bilməz, danışırsa, qoy Vəzirovla və Nemət Pənahovla birgə üzv olduğu "Milli Müdafiə Komitəsi"nin adından danışsın. Vəssalam! Başqa söhbət olmayıb".

**H.Hacızadə həbsində A.Mütəllibovun əlinin olması, yəni onun razılıq verməsi barədə E.Məmmədovun dedikləri barədə qısaca bunu bildirdi:** "Mütəllibov məsələsindən xəbərim yoxdur".

❑ **Cavid TURAN**

# Sabah müxalifət partiyalarının toplantısı olacaq

## Anti-böhran tədbiri ADP qərargahında keçiriləcək

**24 yanvar saat 14.00-da ADP qərargahında müxalifət partiyalarının, ictimai siyasi xadimlərin, ekspertlərin iştirakı ilə böyük toplantı keçiriləcək. Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn bu barədə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, tədbirin ümumi mövzusu ölkədə yaranan ictimai-siyasi, iqtisadi, sosial böhrandan çıxış yolları-dır. Konkret hansı sahələrin müzakirə olunması isə tədbir başlayanda müəyyənləşəcək:**



"Tədbir baş tutacaq və tədbirin ölkədə yaranmış vəziyyət və çıxış yolları mövzusunda ictimai dinləmələr şəklində alınması daha gözləniləndir. Siyasi düşərgədə vəziyyət elədir ki, ölkədə dramatik situasiya yaranmasına, yerlərdə iqtisadi-sosial böhranla bağlı spontan etiraz aksiyaların başlanmasına baxmayaraq mövcud müxalifət liderlərinin bir araya gələrək müzakirələr keçirmək, birgə qərarlar qəbul etmək üçün toplantı keçirməyə həvəsli olmaları görünmür. Mən şəxsi münasibət imkanlarından istifadə edərək bəzi siyasətçilərlə fikir mübadiləsi aparmışam. Bu gün vəziyyət belədir. Bəlkə sabah başqa cür olacaq. Odur ki, toplantı təşəbbüsçüləri ilə söhbətlərdə də demişəm ki, mümkün olanı reallaşdırmağa çalışmaq lazımdır. Yoxsa ictimai rəydə böyük gözləntilər yaradıb, sonra da tədbiri liderlər, partiyalar boykot etdi tipli kimi manşetlərə səbəb olmağa ehtiyac yoxdur. 24 yanvar tədbiri bu və ya digər formatda yeqin ki, baş tutacaq və iştirakçı tərkibindən asılı olmayaraq faydalı olacaq. Tədbirə yönəlik maraqlı təkliflər də var. Daimi fəaliyyət göstərən böhran masası funksiyalı Dəyirmi Masanın yaradılması, iqtidarla və siyasi müxalifətlə təmasların qurulması üçün heyətin seçilib formalaşdırılması, xalq hərəkatının təsis olunması və ya bunun üçün təşəbbüs qrupunun yaradılması, ictimaiyyətin tələblərinin ümumiləşdirilib hakimiyyət qarşısında irəli sürülməsi məsələlərinin müzakirəyə çıxarılması kimi təklifləri göstərmək olar".

Tədbirin aparıcısının kim olacağına gəldikdə, P.Hüseyn bildirdi ki, bu iştirakçıların tərkibindən asılı olan məsələdir: "Tutaq ki, əgər iştirak edərlərsə məsələn, Sabir Rüstəmxanlı, professor Firudin Cəlilov, Mehman Əliyev, Natiq Cəfərli, Ərəstun Oruclu kimi şəxslər sədrlik, aparıcılıq edə bilərlər. Elə də ola bilər ki, bu gün geniş ictimaiyyətin tanımadığı gənc fəallar moderator olsunlar".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 16 (6337) 23 yanvar 2016

**Milli Televiziya və Radio Şurasının (MTRŞ) növbəti iclası keçirilib. MTRŞ-dan APA-ya verilən xəbərə görə, İclasda “ANS” televiziyası tərəfindən “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması ilə əlaqədar inzibati icraata dair işə baxılıb.**

# “Hesabat” dayandırıldı, Mir Şahin mətbuat konfransı keçirdi

## “Bütün ictimaiyyət görür ki, MTRŞ bizə qarşı qərəzlidir”



MTRŞ bildirib: “ANS” televiziyasının efirində yayımlanan “Hesabat” analitik-informasiya proqramının 27 dekabr 2015-ci il və 17 yanvar 2016-cı il tarixli buraxılışlarında televiziya yayımının əsas prinsiplərinin və proqrama verilən tələblərin pozulması - proqramlarda informasiyanın tərəfsizliyi, qərəzsizliyi, əhatəliliyi, tam və doğru-dürüstlüyü prinsiplərinə əməl olunmadığını, işgüzar nüfuzun ləkələnməsinə yol verildiyini, faktlar və hadisələrin ədalətli şərh olunmadığını, birtərəfliliyə yol verildiyini nəzərə alınaraq, “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun 23.1-ci maddəsinə uyğun olaraq “ANS” televiziyasının efirində “Hesabat” analitik-informasiya proqramının yayımı 24 yanvar 2016-cı il tarixdən etibarən 1 (bir) ay müddətinə dayandırılmışdır".

ANS daha əvvəl MTRŞ tərəfin 161 manat məbləğində cərimə edilmiş, həmçinin “Sən tək deyilsən” və “Xoşqədəmlə axtarıram səni”, “Salam Azərbaycan” proqramlarının yayımı dayandırılmışdı.

Qərarla bağlı ANS telekanalında Mirşahin Ağayev mətbuat konfransı keçirib.

Musavat.com saytının konfransda iştirak edən reportyorunun verdiyi məlumata görə, Mirşahin Ağayev bir sıra ittihamlar səsləndirib: “Bizim MTRŞ ilə münasibətlərimiz göz qabağındadır. MTRŞ bütün gücünü ANS-i qarabaqara izləməyə verib. Bütün ictimaiyyət görür ki, MTRŞ bizə qarşı qərəzlidir.

Fikir versəniz, görərsiniz ki, bu qurumun qərarlarının böyük bir hissəsi ANS-lə bağlı olub. Bu gün də mən düşünürəm ki, bu məsələlər hakimiyyət tərəfindən yaradılır. Hər şeyin arxasında MTRŞ-nın başındakı məmurlar durur. MTRŞ seriallarla bağlı bizə ödəməli olduğu pulun 40 min manatını hələ də verməyib. Biz onlara müraciət etdik. Hər şey də bundan sonra başladı. Qərəzli qərarlar, cərimələr...

Azərbaycan prezidentinin serialların çəkilməsi üçün ayırdığı vəsaiti bizə tam vermirlər. Suallarımız cavabsız qalıb. O pullar haraya xərclənib? Biz televiziya kanalıyıq. Bizim işimiz budur və bizə maraqlıdır ki, bu pullar haraya xərclənib? Azərbaycan Respublikasının prezidenti öz çıxışlarında bizlərdən, mediadan xüsusi fəallıq tələb edir. Biz də bunu icra edirik".

Mirşahin Ağayev MTRŞ-nı məhkəməyə verə biləcəklərini vurğulayıb: “MTRŞ bu gün verdiyi qərarla sübut etdi ki, biz tam haqlıyıq. Təbii ki, iş belə qalmayacaq. Biz məhkəməyə qədər gedəcəyik. Bu, pis bir haldır. Söz azadlığının məmur tərəfindən tapdalanmasıdır. Bu, bizim ölkəmizə başucalığı gətirmir”.

Telekanalın hüquqşünası Sevda Məhərrəmova konfransda çıxış edərək bildirib: “Bizi bu gün MTRŞ-ya çağırdılar. Məlum oldu ki, Şura artıq qərarı çoxdan qəbul edib. Biz haqlı iradlarımızı bildirdik. Buna baxmayaraq, dinləyən olmadı. Bizi iclasdan qovdular. Biz soruşduq ki, bu nə deməkdir? Bizi qovursunuz?” Dedilər ki, bəli, qovuruq".

M. Ağayevin sözlərinə görə, MTRŞ ANS TV-ni efirdə material verərək, kimlərisə şantaj etməkdə ittiham edir: “Bizim elə bir istəyimiz olsaydı, Binəqədi rayonunda çoxmərtəbəli yaşayış binasının tikintisindən hazırladığımız reportajda bunu edərdik. Belə ki, orada sakinlərin narazılıq etdiyi binanı inşa edənlər Nuşirəvan Məhərrəmlinin yaxın qohumlarıdır. Sakinlərin bu barədə dediklərini MTRŞ ilə həssas münasibətləri nəzərə alıb, efirə vermədik. Ölkə başçısı İlham Əliyev bütün medianın olduğu kimi, ANS-in də dostudur. Buna görə də ümid edirəm ki, verilişin bərpası ilə bağlı qərar veriləcək. Hətta belə olmasa belə, ümid edirəm.

MTRŞ-nın bu qərarının arxasında hansısa qüvvələrin olduğunu düşünmürəm. Veriliş 1 ay müddətinə bağlanıb. Problem yoxdur. Oradakı məlumatları bir ay ərzində başqa verilişdə verəcəyik. Baş verən hadisələr birbaşa təxribatdır. Vəziyyətin daha da gərginləşməsi üçün atılmış addımdır. Prezidentdən, daxili işlər nazirindən və digər qurumlardan danışa bilərik, amma MTRŞ-dan yox? Nuşirəvan Məhərrəmli özünü elə aparır ki, sanki o, peyğəmbərdir, ona toxunmaq olmaz.

Bizim 43 məhkəmə prosesimiz var. Hamısı da MTRŞ-nın verdiyi qərarlarla bağlıdır. Onlardan sadəcə, birini udmuşuq. Bəziləri isə hələ də davam edir. Biz bilirik ki, Azərbaycan məhkəmələrində problemlər var. Amma həm də əminik ki, ədalətli hakimlər də var. Əgər görsək ki, yerli məhkəmə orqanlarında ədalətli qərar yoxdur, o zaman Avropa məhkəməsinə müraciət edəcəyik. Biz efirdə MTRŞ ilə bağlı bir cümlə tənqidi fikir demişik. Buna görə də veriliş 1 ay müddətinə bağlanır. Bu, birbaşa söz azadlığının tapdalanmasıdır. Mediadan xahiş edirik, bu sualı MTRŞ-ya versinlər ki, 10 milyon manatı hara xərcləmisiniz?"

# Azərbaycanla Qərb barışır - siyasilər həbsdən azad ediləcəkmi?

## Rəfiqə İsayeva: “Mənim də oğlumun vaxtıdır”



**Azərbaycan hakimiyyəti ilə Qərb arasında son günlərə qədər davam edən soyuq münasibətlərdə ılıqlaşma müşahidə olunmaqdadır. Bu münasibətlərin fonunda gələn ayın ortalarında müzakirəyə çıxarılacaq sanksiya məsələsinin arxa plana keçəcəyi deyilir.**

## Səidə Qocamanlı: “22 nəfərlik siyahıdan canımız qurtulacaq”

Bütün bunlar siyasi məhbus məsələsini bir daha gündəmə gətirib. Belə ki, ölkə iqtidarının sanksiya olmazsa, mart ayında böyük əfv sərəncamı verəcəyi barədə söz-söhbətlər yayılıb. Hətta hakimiyyətin marta qədər də, bu tipli sərəncam imzalaya biləcəyi ehtimal olunur.

İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Səidə Qocamanlı Azərbaycanla Qərb arasındakı münasibətlərin düzəlməyə doğru getdiyi qənaətindədir: “Davos forumu fevralın 15-də Azərbaycana qarşı hazırlanacaq sanksiya məsələsinə ciddi təsir edəcək. Prezidentin Davosdakı fəaliyyəti, görüşləri bizi bu barədə düşünməyə vadar edir. Bu, siyasi məhbus məsələsinə də öz təsirini göstərəcək. Yaxın günlərdə olmasa da, Novruz bayramı ərəfəsində əfv sərəncamı verilə bilər. Bildiyiniz ki, bu sərəncam artıq hazır idi. Siyasi məhbuslar dekabr ayında çıxa da bilərdilər. Çünki Yeni il ərəfəsində hüquq müdafiəçiləri toplaşaraq, 22 nəfərlik siyahı hazırlamışdılar. Amma Qərbin qıcıqlandırıcı hərəkətləri, sanksiya hədələri həmin şəxslərin həbsdə qalmalarına səbəb oldu. Amma hər halda indi yumşalma gedir. Bunun fonunda düşünürük ki, nəhayət 22 nəfərlik siyahıdan canımız qurtulacaq”.

S.Qocamanlı mart ayına qədər də bu cür sərəncamın verilə biləcəyini ehtimal etdiyini söylədi: “Buna əsas var. Biz həmişə deyirik ki, əfv sərəncamı cənab prezidentin səlahiyyətindədir. Novruz insanları sülhə, əmin-amanlığa, insansevərliyə çağıran bir bayramdır. Bu bayram ərəfəsində siyasi məhbusların böyük əksəriyyətinin azad olacağı gözlənilir. Düşünürəm ki, Davos görüşündə yaşananlar sanksiyaların aradan götürülməsinə rəvac verir”.

Siyasi məhbusların son durumları və onların ailələrinin yayılan əfv xəbərlərinə münasibətlərini öyrəndik.

Yanvarın 26-da saat 11:00-da Ali Məhkəmədə Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyevin kasasiya şikayətinə baxılacaq. Bu barədə onun vəkili Fəxrəddin Mehdiyev məlumat verdi: “Kasasiya şikayətində əsas tələbimiz bütün ittihamlar üzrə işə xitam verilməsidir. Prosesdə nələrin olacağını indidən demək tezdir. Qərara uyğun olaraq addımlar atacağıq. Ali Məhkəmədə ölkə daxili bütün hüquqi proseduralar tükənir. Ondan sonra Avropa Məhkəməsinə müraciət edilir”.

“Ayna Zerkalo” qəzetinin əməkdaşı Rauf Mirqədirova verilən hökmdən artıq Apelyasiya Məhkəməsinə müraciət olunub. Jurnalistin anası oğlu ilə eyni maddə üzrə ittiham olunan, amma hazırda azadlıqda olan Leyla və Arif Yunuslara görə, Apelyasiya Məhkəməsinin müsbət qərar verəcəyinə inanır: “Yanvarın 19-da apellyasiya şikayəti verildi. Nə zaman baxılacağı barədə məlumat yoxdur. Artıq çox şeyə inamım qalmayıb. Dekabrın 28-nə qədər ümidli idim. İndi heç nəyə inanmıram. Digər şəxslər azad olunublar, mənim də oğlumun vaxtıdır. Görüş gününün vaxtı gəlir. Hər ikinci gün sovqat aparıram”.

NİDA-çı gənc Ömər Məmmədovun atası Əlyar Məmmədov heç nəyə ümid etmədiyini bildirdi: “Sonuncu dəfə telefonla danışdıq. Hər şeyin normal olduğunu bildirdi. Saxlanıldığı yer istidir. Yeni ilə qədər daim ümidli danışırdım. Artıq heç nəyə ümidim qalmayıb. Onların heç bir sözünə inanmıram. Yeni il ərəfəsi məni Penitensiar Xidmətə çağırdılar ki, bir daha oğlunuz siyasi məsələlərlə məşğul olmayacaq. Azad edəcəklərini dedilər. Amma olmadı. Qarşıdan sanksiya məsələsi gəlir. Əgər bu olmazsa, nəyəsə ümid etmək olar”.

❑ Cavanşir ABBASLI

# Xədicə İsmayıl Amal Kluninin onu müdafiə etməsindən razıdır

## Jurnalist xanım vəkillə görüşsə, erməni məsələsini onun nəzərinə çatdıracaq

**Xəbər verdiyimiz kimi, tanınmış vəkil və aktyor Corc Kluninin həyat yoldaşı Amal Kluni Avropa İnsan Hüquqları Məhkəməsində jurnalist Xədicə İsmayılovanı müdafiə edəcək. Bu barədə “Amerikanın Səsi” xəbər yayıb. Bildirilir ki, xanım Kluni bunu Amerikanın NBC kanalına müsahibəsində deyib ki, o, medianın hüquqi müdafiəsi təşəbbüsünü təmsil edən vəkillə birlikdə İsmayılovanın həbsinə etirazla Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edəcək.**



Xədicə İsmayıl

X.İsmayıl artıq bununla bağlı mövqeyini açıqlayıb. Vəkili Fariz Namazlının verdiyi məlumata görə, A.Kluni “Əl Cəzirə” kanalının Misirdə həbsdə olan müxbiri Mühəmməd Fəhmini müdafiə edəndə X.İsmayılda onun barəsində müsbət fikir formalaşmışdı. Vəkil Azadlıq Radiosuna açıqlamasında aşağıdakıları deyib: “Amal Kluninin Misirdə həbs olunan jurnalistin müdafiəsinə qoşulub, cəsarət nümayiş etdirməsi ilə Xədicədə bir simpatiya yaratmışdı. Amal tərəfindən elə bir təklif irəli sürülüb. Xədicə xanım da razılaşıb”.

Xatırladaq ki, A.Kluni daha öncə Vikileaks saytının yaradıcısı Assanci, eləcə də Ukraynanın keçmiş baş naziri Yuliya Timoşenkonu da müdafiə edib.

X.İsmayıl vəkili vasitəsilə deyib ki, Amalın etnik mənsubiyyəti onu düşündürmür. Jurnalistin fikrincə, normal insanlar “haralısan” sualını vermirlər, etnik mənsubiyyətlə maraqlanmırlar.

X.İsmayıl ümid edir ki, Amal Kluni onun məhkəməsində qələbəyə imza atacaq. X.İsmayıl deyib ki, gələcəkdə A.Kluni ilə görüşsə, erməni məsələsini onun nəzərinə çatdıracaq.

Bununla yanaşı, X.İsmayılın Avropa Məhkəməsinə gedən yoluna süni əngəllər yaradılır. Bu barədə onun vəkili F.Namazlı social şəbəkədəki statusunda yazıb: “4 saylı Cəzaçəkmə müəssisəsi özündən yeni qaydalar çıxarır. Xədicənin Avropa Məhkəməsində 4 şikayəti üzrə 3 kommunikasiya işi başlayıb, biri üzrə kommunikasiya bitib, digərləri üzrə yazışmalar davam edir. Həmin işlər üzrə məlumdur ki, sənədlər və yazışmalar ingilis dilindədir. Həmin sənədləri müəssisəyə aparıb Xədicə ilə müzakirə etmək lazım idi. Rəhbərlik icazə vermədi. deyir ki, bu sənədləri azərbaycan dilinə tərcümə edin, gətirin baxaq. Bizdə ingilis dili bilən kadr yoxdur, ona görə siz tərcümə etməlisiniz, hətta həmin tərcüməni notarial təsdiq etdirməlisiniz ki, tərcümənin düzgünlüyü şübhə doğurmasın. Deyirəm ki, "sənədləri tərcümə etdirməyə ehtiyac yoxdur, Xədicə ingiliscə bilir, biz bunu ingiliscə müzakirə edib, cavab yazmalıyıq. Onun tərcüməsi əlavə vaxt və xərcdir". Cavabı bu olur ki, “bizlik deyil, gedin tərcümə etdirin, sonra müəssisəyə buraxarıq”. Deyirəm ki, bu işlər üzrə bizə maneçilik törədirsiz, bu da Avropa Məhkəməsində əlavə pozuntu kimi göstəriləcək, hökümətdən tərcümə xərcləri tələb edəcəyik".

❑ Sevinc TELMANQIZI



# Piti təcrübəsi

Zamin HACI
zaminhaci@gmail.com

**Qənaət rejiminə keçid münasibətiylə ləğv edilən dövlət qurumları arasında Statistika Komitəsinin Baş Hesablama Mərkəzi də vardır. Prinsipcə, daha hesablamağa bir qara qəpik qalmayıbsa, idarə özünü buraxmalı idi. 1 milyon yeni iş yeri, regionlarda açılan 500 min təzə obyekt, kənd təsərrüfatının dünyanı yedizdirəcək qədər taxıl buraxması və sairə yalanlar içinə hava doldurulan və qəfil tikana rast gələn şar kimi partlamışdır.**

Ancaq həmin hesablama mərkəzinin bağlanma xəbərində bir cümlə mənim yadımdan heç çıxmır: “Kreditorlar 2 ay ərzində öz tələblərini Dövlət Statistika Komitəsinə çatdıra bilərlər”. Lap əla, çox gözəl. Bəs biz - sadə vətəndaşlar öz tələblərimizi, iradlarımızı kimə çatdıraq? On illərdir xalqı aldatdığınıza, ona yalan sırıdığınıza görə cavab vermək fikriniz varmı? Heç olmazsa üzr istəyə, “günahımızdan keçin” deyə bilərsinizmi?

Əlbəttə, heç kim deməyəcək. Çünki bu “kreditorlar” ayrı xanədəndir. “Oba yiyəsiz qalanda donuz təpəyə çıxar” - çox sevdiyim ata sözlərimizdən birində belə deyilir. Onlar yenə yalan danışacaq, bir qrup adam milyonlardan ibarət xalqı barmağına dolayacaq. Çünki xalq, etiraf edək, savadsızdır, öz azadlığının məsuliyyətini daşımağa hazır deyil. Azadlıqdan qorxur.

Davosdan göndərilən “Neftin qiymətinin qalxmasına ümid edirik” mesajı da siyasətdə heç bir dəyişiklik olmayacağını göstərir. Repressiya maşını isə heç dayanmayıb: qanunsuz həbsdə saxlanan jurnalist Xədicə İsmayılın vəkilinə maneələr yaradılır. Vəkil cinayət işindən Avropa Məhkəməsinə şikayət sənədlərini Xədicə İsmayıla göstərmək istəyib, “Ədliyyə” Nazirliyi Penisentiar İdarəsi isə tələb edib ki, sənədlər bizim dilə çevrilsin. Yəni, türmə rəhbərliyində əyləşən hansısa savadsıza görə sənədlər iki dəfə tərcümə edilməlidir. Ancaq istəsəniz burda müsbət dəyişiklik də tapa bilərik. Bundan qabaqkı türmə rəisi Mədət müəllimin vaxtında həmin kağızları zorla vəkilə yedizdirərdilər.

Təhsilimizin təzə qoruqçusu Mikayıl Cabbarov da boş dayanmır. *(Yeri gəlmişkən, Mikayıl müəllimə bir keçmiş və indiki həmkarının iradını çatdırmaq istərdim. Məktəb qarovulçuları çox az maaş alırlar. Mikayıl müəllim İçərişəhərdə təxminən eyni vəzifədə işləyib, ümid edirəm bu yoldaşların maaşını artırmaq haqda düşünər).* Təzə təhsil nazirimiz Londonda Dünya Təhsil Forumunda iştirak eləmişdir, orda AzərTAc-ın müxbirinə demişdir: “Azərbaycanın təhsil təcrübəsi tədbir iştirakçılarında maraq doğurmuşdur”.

Əlbəttə. Buna kimin şübhəsi olar? 200-300 manata baş-beynini xarab edib əziyyətlə dərs keçən müəllimlər, uşağın dərsdə sualına cavab verməyib “dədənə denən, səni kursuma yazdırsın, orda cavab verirəm” söyləyən repetitorlar, şagirdi döyən pedaqoqlar, manıs yetişdirən filologiya fakültələri, prokurorluq oxuyan manıslar, intihar edən tələbələr, universitet yolunda bir kitab dükanı olmayan, ancaq dönərçilər olan təhsil sistemi bütün dünya üçün maraq doğurmalıdır. O cümlədən, sinəsində və tumanının başında seçki bülleteni daşıyıb yapizmin yaşamasına səs verən, hər cür yaltaqlıq tədbirlərində sıra nəfəri olmağa həvəslə yüyürən marionet “əfruz və diləfruzlar” bizim təhsil sisteminin dünyada maraq doğuracaq personajlarıdır.

Sonda bir aktual xəbəri də hörmətli oxucularımıza çatdırım. Jurnalistlər ABŞ-ın Azərbaycandakı səfirliyi ilə əlaqə saxlayıb devalvasiyadan sonra rayonlarımızda olmuş etiraz aksiyalarına münasibət öyrəniblər. Səfir Robert Sekuta demişdir ki, bu aksiyalara görə çox narahat olmuşdur: “Açığı, gələn həftə Şəkiyə paxlava və piti yeməyə gedəcəyəm, aksiyalardan sonra qorxdum rayonlarda qarışıqlıq olsun, restoranlar bağlansın. Bu baxımdan, bizim Azərbaycanda enerji, təhlükəsizlik, demokratiya və piti sahəsində dəstəyimiz həmişə olacaqdır”.



# Türkiyə-Rusiya münasibətlərində qəfil dönüş - Kreml və Ankara bir masa ətrafına gətirilir?

## İki dövləti barışdırmaq üçün ABŞ-ın hərəkətə keçdiyi xəbəri yayılıb; rəsmi Vaşinqtonun yeni hədəfi və Viktoriya Nulandın gözlənilən Türkiyə səfərinin ilginc pərdəarxası; Amerika diplomatiyasının “ağır topu”nun qovluğunda nələr var?..

**Ötən il noyabrın 24-də yaşanan “Su-24" təyyarəsi ilə bağlı insidentdən sonra Rusiya ilə Türkiyə arasında yaranmış soyuq müharibə dövrü davam edir. Hadisədən iki ay ötsə də, hələ ki tərəflər arasında münasibətlər kifayət qədər gərgin olaraq qalır.**

Doğrudur, Rusiyada iqtisadi durumun pisləşməsi fonunda rəsmi Moskvanın əvvəlki kəskin ritorikası gözə dəymir, eyni zamanda Kreml Ankaraya qarşı iqtisadi xarakterli məhdudiyyətlərin səmərəsiz olduğunu anlayaraq, əvvəlki sanksiya hədələrindən xeyli uzaqlaşıb, nəhayət, ikitərəfli diplomatik əlaqələr yerində qalır - səfirlər fəaliyyətlərini davam etdirir.

Hərgah, bu fonda Moskvadan ara-sıra anti-Türkiyə bəyanatları da eşidilir. Məsələn, srağagün Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Moskvada təşkil etdiyi mətbuat konfransında yenə Ankaranı “Suriyadakı terror qruplaşmalarına dəstək verməkdə” ittiham edib.

“Türkiyə Suriyadakı terror qruplaşmalarını dəstəkləyir. Türk hərbçiləri dəfələrlə Suriyanın sərhədlərini pozub. Suriya hökuməti suverenliyinin Türkiyə tərəfindən pozulması ilə bağlı faktları BMT-yə bildirib”, - deyə Zaxarova bəyan edib.

***

Ancaq bu kimi bəyanatlar indi daha çox ictimai rəyə hesablanmış və rəsmi Moskvanın insidentlə barışmadığını göstərməyə yönəlik təbliğati gediş kimi görünür. Hər halda xanım Zaxarovanın özünün tabe olduğu iki məsul şəxsdən birinin - Rusiyanın Xarici İşlər nazirinin müavini və Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının müvəqqəti sədri Vasili Nebenzinanın bu günlərdə Türkiyəyə səfər edəcəyi barədə xəbər yayılıb.

Nebenzinanın İstanbulda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının ofisinə baş çəkəcəyi deyilir. Səfər baş tutarsa, bu, “Su-24" olayından sonra ilk dəfə Rusiyanın yüksək vəzifəli şəxsinin Türkiyəyə səfəri demək olacaq.

Rusiya ilə Türkiyənin yaxınlaşmasını isə indi üstəlik, həm də beynəlxalq sanksiyalardan qurtulan İranın bölgədə güclənməsi perspektivi diktə edir. Hərçənd, Tehran və Moskva Suriya məsələsində müttəfiqdir, bu müttəfiqlik Rusiyanın bölgədə başqa köklü maraqlarının başladığı yerdə bitir.

Başqa sözlə, Rusiya və İran eyni zamanda “mehriban düşmənlər”, regional rəqiblərdir. Ən azı ona görə ki, İran kimi Rusiya da böyük qaz satıcısıdır və onların hər ikisi qazı Avropa bazarlarına çıxarmaq üçün Türkiyəyə əlverişli tranzit ölkə kimi baxır. Bu xüsusda Kreml “Türk axnı” layihəsindən hələ də əlini üzməyib. Bundan əlavə, həm İran, həm də Rusiya Türkiyəyə yaxınlaşmaqla Suriya məsələsi üzündən ərəb (müsəlman) dünyasında real təklənmək aqibətindən yayınmağa çalışır.

Eləcə də Türkiyə üçün İran bölgədə tərəfdaş-müttəfiqdən çox, geosiyasi rəqib qismindədir və Ankara da Moskva kimi Tehranın bölgədə ifrat güclənməsində maraqlı deyil.

***

Bu arada nə qədər qəribə də olsa, ABŞ-ın Türkiyə və Rusiyanı barışdırmaq üçün hərəkətə keçdiyi haqda ilginc informasiyalar yayılıb. Məlumata görə, ABŞ dövlət katibinin müavini, Amerika diplomatiyasının “ağır topları”ndan sayılan Viktoriya Nuland bu günlərdə Rusiya prezidentinin köməkçisi Vladislav Surkovla görüşüb və həftəsonu Nulandın türkiyəli nümayəndələrlə görüşü gözlənilir. Bununla bağlı Amerikanın kölgə kəşfiyyatı hesab olunan “Stratfor” analitik mərkəzi xəbər yayıb (teleqraf.com). Bəs motiv nəymiş?

**Mərkəz iddia edir ki, Vaşinqton Rusiya və Türkiyə arasında gərginliyi aradan qaldırmaq üçün vasitəçilik etmək və bundan sonra isə bu ölkələrin dəstəyi ilə İŞİD terror təşkilatını məğlubiyyətə uğratmaq niyyətindədir:** “İranla nüvə razılaşması əldə etdikdən sonra Amerika regionda digər məsələlərin həlli üçün daha çox güc sərf etmək istəyir. Ancaq siyasi baxımdan bunu etmək asan deyil. İŞİD-i məğlub etmək üçün ABŞ-a Türkiyənin köməyi lazımdır. Ankara da Suriyanın şimalına quru qoşunlarını göndərməyə hazır olduğunu açıqlayıb. Ancaq Rusiya Türkiyəyə bunu etməyə icazə vermir və bəyan edir ki, rus təyyarələrinə qarşı yaradılacaq hər hansı təhlükə məhv ediləcək. Buna görə də ABŞ Ankara və Moskvanın münasibətlərini yaxşılaşdırmaq üçün ötən ilin dekabrında dövlət katibi Con Kerrini Rusiyaya göndərdi. Rusiya xarici işlər naziri Sergey Lavrov yanvarın 20-də Con Kerri ilə yenidən bu məsələni müzakirə etmək üçün görüşdü”.

**“Stratfor” hesab edir ki, Ukrayna məsələsinə gəlincə, Vaşinqton Rusiya üzərindən sanksiyaların qaldırılmasına hazır olduğu siqnalını verib**: “Moskva Kiyevdən güzəştlər tələb edir. Ancaq Kiyev buna razı deyil. Bu üzdən Ukrayna məsələsinin yaxın zamanlarda həlli görünmür. Ancaq Vaşinqton başqa üsulla Moskvanı diqqətdə saxlaya bilər. Belə ki, Viktoriya Nuland Litva, Rumıniya, Bolqarıstan və Türkiyə turu çərçivəsində Vladislav Surkovla 4 saatlıq görüş keçirib. Adı çəkilən ölkələr Rusiyaya qarşı planda ABŞ üçün çox vacibdir. ABŞ bu ölkələrlə qarşılıqlı boru kəmərlərinin çəkilişi, maye qaz üçün meydançaların tikintisi və atom enerjisindən istifadə ilə bağlı müzakirələr aparıb. Bununla rəsmi Vaşinqton Avropanın enerji məsələsində Rusiyadan asılılığını aradan qaldırmaq fikrindədir. Bundan əlavə, Nuland bu ölkələrlə hərbi məsələləri də müzakirə etməyə məcburdur. Onlar Amerikadan Avropada hərbi mövcudluğunu artırmağını tələb edirlər. Ancaq Rusiya hərbi büdcə xərclərini azaltmasına baxmayaraq, görünür ki, NATO-nun Baltik və Qara dəniz sahillərində möhkəmlənməsi ilə razılaşmayacaq”.

“ABŞ Türkiyə və Rusiyanı müzakirələr masasına əyləşdirməyə çalışır. Digər tərəfdən, Moskva hiss etsə ki, Türkiyə ilə yaranmış gərginlik Ankaranın NATO ilə münasibətlərinə güclü təkan verir, onda özü də Rusiya Türkiyə ilə dialoqu bərpa edəcək” - qeyd edir analitiklər.

***

Beləliklə, Kremlin özünün də Ankara ilə barışması üçün motivlər artmaqdadır. Bu mənada yaxın perspektivdə regional proseslərdə çox ciddi və önəmli gəlişmələrin şahidi ola bilərik. Bir şey dəqiqidir ki, Türkiyə ilə gərgin münasibətlər qalması ən çox Moskvanın ziyanına, müvafiq surətdə isə sanksiyalardan qurtulan İranın xeyrinə işləyir.

**O da artıq faktdır ki, Moskva nə İŞİD-lə mübarizədə hansısa ciddi uğura imza ata bilib, nə də Bəşər Əsəd rejimini gücləndirməklə onu söz sahibinə çevirə və özü bölgədə uğurlu mövqeyə çıxa bilib. Üstəlik, iqtisadi durumu indi iki ay öncəkindən qat-qat ağırdır və ağırlaşmaqda davam edir.**

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 16(6337) 23 yanvar 2016

# Neft 20 dollar olsa, Putin gedəcəkmi...

## Şimal qonşumuzu nələr gözləyir; valyuta ehtiyatları 510 milyard dollardan 370 milyarda enən, yoxsulluğun səviyyəsi 2 faiz çoxalan, 22 milyon adam yaşayış minimumundan aşağı həddə yaşayan Rusiya ilə bağlı ilginc proqnozlar

**LUKoil şirkətinin prezidenti Vahid Ələkbərov "Rossiya 24" telekanalına verdiyi müsahibədə bildirib ki, neftin 1 barrelinin qiyməti 24 dollara düşəcəyi təqdirdə Rusiyada neft hasilatı sahəsində bir çox layihələr bağlana bilər. Şirkət rəhbərinin sözlərinə görə, 24 dollar ən aşağı mümkün olan həddir: "Analitika göstərir ki, bu həddən aşağı qiymət hətta fəaliyyətdə olan bir çox layihələrin dayandırılması deməkdir". (Virtualaz.org)**

Təyyarə böhranına görə Türkiyəyə qarşı sanksiya qərarları verən Rusiyanın özü də sərt təpkilərlə üz-üzə qalıb. Ancaq bu sanksiyaların təməli Krımın ilhaqından sonra qoyulub və Suriyaya hərbi müdaxilə qərarı ilə Putin ölkəsini beynəlxalq aləm qarşısında təklənmiş duruma salıb.

"Neftin qiyməti üç il bu şəkildə qalarsa, Rusiya tarixə qarışacaq". Bunu isə **Postsənayeləşmə Dövrünün Araşdırılması Mərkəzinin rəhbəri Vladislav İnozemtsev** deyib. Neftin qiymətinin düşməsi ölkəni iflasa aparır. İqtisadiyyatçılar proqnozlaşdırırlar ki, Rusiyanın xəzinəsi 2017-ci ilin ortalarına boşalacaq. Beynəlxalq ehtiyatlar 510 milyard dollardan 370 milyarda enib. 2010-cu illərin əvvəlindəki 4%-lik artım tempi 1%-ə qədər düşüb. Yoxsulluğun səviyyəsi 2% çoxalıb. 22 milyon adam yaşayış minimumundan aşağı həddə yaşayır. **Maliyyə naziri Anton Siluanov**un sözlərinə görə, iki ildən az bir müddət üçün ehtiyat qalıb. Türkiyə mətbuatı yazır ki, neftin qiymətinin 30 dollara düşməsi ilə milli büdcəsinin 65 %-ini neft və qaz hesabına təmin edən Rusiyanın ciddi çətinlikləri meydana çıxıb. Neftin ucuzlaşması davam etsə, ölkənin müflisləşməsi qaçılmaz olacaq.

**Məşhur amerikalı maliyyəçi Corc Soros** dünya iqtisadiyyatındakı vəziyyəti şərh edərkən sensasion fikirlər səsləndirib.

Ölkə.az-ın məlumatına görə, Corc Soros Rusiyanın gələcəyini proqnozlaşdırıb.

"Rusiyanın vəziyyəti hazırda çox ağırdır. Amma valyuta və qızıl ehtiyatları hələ var. Bu ehtiyatların tam tükənməsi üçün 2 ilə yaxın vaxt lazımdır. 2 ildən sonra Rusiya bütün rezervlərini xərcləyərək iflic iqtisadiyyatı və ac əhalisi ilə baş-başa qalacaq", deyə Corc Soros bildirib.

Belə bir situasiya Putin hakimiyyətinin taleyinin necə olacağı barədə sualları aktuallaşdırır. Bu cür davam edərsə, hətta Rusiyada "saray çevrilişi"nin baş verə biləcəyindən də danışılır. Son günlər ölkədə etirazlar da baş qaldırıb.

**Politoloq Şahin Cəferli** "Yeni Müsavat"a bildirdi ki, Putinin vaxtından əvvəl hakimiyyətdən gedəcəyinə inanmır: "Lakin iqtisadi kollaps durumunun yaranacağı, ölkə daxilində sosial gərginliyin güclənəcəyi və Qərblə münasibətlərin dalana dirənəcəyi təqdirdə onun növbəti seçkilərdə namizədliyini verməkfikrindən daşına biləcəyi istisna deyil". **Rusiyanın çöküşü ilə bağlı proqnozlara gəldikdə, ekspert bunları bildirdi:** "Əvvəlcə "çökmək" deyəndə konkret nələrin nəzərdə tutulduğunu, bu kəlmənin hansı mənanı ehtiva etdiyini aydınlaşdırmaq lazımdır. İqtisadiyyat nəzərdə tutulursa, hələlik Rusiya iqtisadiyyatının tam çökməsindən yox, böhranın dərinləşərək davam etməsindən danışmaq daha doğru olardı. İstehsalın həcminin aşağı düşməsi, resessiya, inflyasiyanın yüksəlməsi, milli valyutanın sürətlə dəyərini itirməsi, ölkədən kapital axını, əhalinin gəlirlərinin azalması və digər neqativ iqtisadi göstəricilər ciddi iqtisadi böhrandan xəbər verir. Lakin hələlik Rusiyanın 368 milyard dollar həcmində qızıl-valyuta ehtiyatları qalır və Mərkəzi Bank rublun kursunu sabit saxlamaq üçün bu ehtiyatları sərf etməyə tələsmir. Hətta prezident Putin devalvasiyanın yeni imkanlar açdığını bildirib". **Politoloq hesab edir ki, əgər valyuta ehtiyatları tükənərsə və neftin qiyməti hazırkı aşağı həddə qalarsa, onda Rusiyanın iqtisadi çöküşündən danışa bilərik:** "Rusiyadakı durumun özəlliyi ondadır ki, cəmiyyətdə passionarlıq səviyyəsi çox aşağıdır, bu səbəbdən hələlik sosial gərginlik müşahidə olunmur və Kremli arxayınlaşdıran əsas amil də budur. İnsanlar təbii ki, öz sosial vəziyyətindən məmnun deyil, lakin bu narazılıq hələlik məişət səviyyəsindədir və bu yaxınlarda ağır yük avtomobilləri sürücülərinin etirazını nəzərə almasaq, ciddi etiraz aksiyalarına çevrilmir. Televiziyalarda aparılan total təbliğat, Krımın Rusiyaya birləşdirilməsi nəticəsində ölkədə patriotik-millətçi əhval-ruhiyyənin güclənməsi, Ukraynanın şərqində "faşizmə qarşı mübarizə" və "rusdilli əhalinin müdafiəsi" hekayəsinin uydurulması və əhalinin buna inandırılması, son olaraq Suriyada hərbi əməliyyatlara başlayaraq Rusiyanın "super güc" qismində dünya məsələlərinin həllində iştirakı barədə təsəvvür yaradılması daxili auditoriyaya ciddi təsir göstərib. Əhali bir növ, zombiləşdirilib və reallıq hissini itirib".



**Ş.Cəferli xatırlatdı ki, Putinin reytinqi çox yüksəkdir, alternativ isə yoxdur:** "Çökmək siyasi mənada nəzərdə tutulursa, burada indikator kimi ilk növbədə Ukrayna məsələsini götürmək lazımdır. Hazırda Qərb-Rusiya münasibətlərində konfrontasiyaya səbəb olan əsas faktor məhz Krım və Donbas problemləridir. Putinin bu məsələdə ciddi güzəştlərə getməsi və Donbas probleminin həllinə şərait yaratması "Rusiyanın çökməsi" kimi - geri çəkilməsi mənasında -dəyərləndirilə bilərdi. Hazırda Putin vəziyyətdən çıxış yolları axtarır və addımlar atır. Kremlin son vaxtlar apardığı - ən azı, zahirən - sülhsevər siyasət və Putinin Dövlət Dumasının sabiq sədri Boris Qrızlov kimi yüksək səviyyəli dövlət adamını Donbas problemi üzrə üçtərəfli təmas qrupunda öz nümayəndəsi təyin etməsi diqqət çəkir. Bu siyasət Donbas məsələsi ilə əlaqədar tətbiq olunan sanksiyaların ləğvinə və bunun nəticəsində Qərbin maliyyə institutlarından vəsait cəlb etməyə yönəlib. Lakin Minsk razılaşmaları tam yerinə yetirilmədən, xüsusən Ukrayna-Rusiya sərhədinin separatçıların nəzarətindəki 400 km-lik hissəsi Kiyevin nəzarətinə qaytarılmadan bu problemin həllindən danışmaq mümkün olmayacaq. Rusiya hakimiyyəti Ukrayna məsələsində o qədər dərinə gedib ki, indi ciddi güzəştə razılaşaraq oradan çıxması xeyli çətinləşib. Çünki bu güzəştləri daxili ictimaiyyətə izah etmək lazım gələcək, Rusiya cəmiyyəti isə nə qədər passiv olsa da, istər-istəməz "biz Ukraynada nə əldə etdik" sualını verəcək. Güzəştə getməmək və mövcud durumu davam etdirmək, hətta hərbi əməliyyatların bərpasına rəvac vermək də Rusiyaya heç nə qazandırmayacaq, əksinə, sanksiyalar qüvvədə qalacaq, hətta yeniləri tətbiq olunacaq və Qərblə qarşıdurma davam edəcək. Ukrayna məsələsində Putinin şahmat termini ilə desək, "suqsvanq" vəziyyətində olduğunu düşünürəm, yəni hansı addımı atsa, özünə ziyan vuracaq". **Ekspert qeyd etdi ki, Rusiyanın çökməsindən danışanda onun SSRİ kimi dağıla biləcəyini nəzərdə tutanlar da var ki, bunlar şişirdilmiş fikirlərdir:** "Belə bir ehtimal yoxdur. Lakin Putin Qorbaçovun "perestroyka"sına bənzər şəkildə dövlət siyasətində radikal dəyişikliyə gedərsə və Qərblə anlaşarsa, bunu siyasi mənada çöküş kimi qiymətləndirmək olar. Lakin bu ehtimal da azdır. Güman edirəm ki, Putin mövcud siyasi kursunu müəyyən korrektələrlə növbəti prezident seçkilərinə qədər davam etdirməyi düşünür. Bir müddət sonra Putinin 2018-ci ildəki seçkilərdə iştirak edib-etməyəcəyi məsələsi gündəmə gələcək və bu amil Rusiyanın vəziyyətinə birbaşa təsir edəcək. Putin seçkidə iştirak etməsə, Rusiyada və Rusiya ətrafında yeni bir vəziyyət yaranacaq və yeni bir mərhələnin startı verilmiş olacaq. Bu, həm də Putin Rusiyasının siyasi mənada çöküşü demək olacaq. Putinin seçkidə iştirakı isə, kardinal siyasi kurs dəyişikliyi baş verməyəcəyi təqdirdə, gərginliyin və qeyri-müəyyənliyin davam etməsi mənasına gələcək".

❑ **E.PAŞASOY**

---

# Xof hasarını aşanların qarşısına necə çıxmalı?



**Xalid KAZIMLI**

**Uzun illərdir ölkəmizin politoloqları daxili çaxnaşmalar, iğtişaşlar, inqilablar, üsyanlar baş verən ölkələri izləyir, təcrübələrini öyrənirlər.**

Əlbəttə ki, öyrənməklə iş bitmir, bu hadisələr müxtəlif prizmalardan təhlil də edilir, müəyyən bir nəticəyə də gəlinir.

"Misirdə niyə elə oldu?"; "Suriya niyə bu günə düşdü?"; "Liviyada Qəzzafinin aqibəti hansı səbəbdən o cür oldu?"; "İraq rəhbərliyi harda səhvə yol verdi?" və sair bu kimi sualların cavabı böyük ölçüdə hazırdır.

Prosesləri, baş verənləri əvvəldən axıradək izləyərək təhlil edəndə anlaşılır ki, olayların gərginləşərək faciəvi duruma qədər irəliləməsinin əsas səbəbi idarə edənlərin reallıq hissini itirmələri ilə bağlıdır.

Ortaya çıxır ki, bütün hallarda idarə edən zümrə baş verənlərin mahiyyətini düzgün anlamayıb, diaqnozu düzgün qoymayıb, ən əsası və ən pisi baş verənlərə vaxtında adekvat reaksiya verməyib, situasiyanı gərginləşdirmək yolu tutub. Bu halda qurbansız ötüşmək olmur.

Xalqın narazı kütlələri xof hasarını aşaraq meydanlara çıxanda, bir qayda olaraq, bütün hakim zümrələrin reaksiyası belə olur: bu üsyandır və bu amansızcasına yatırılmalıdır.

Daha sonra üsyançılara adlar qoyulur, yarlıqlar yapışdırılır: "Bu, xarici qüvvələrin təhriki ilə qızışdırılmış bir dəstə paşıpozuq (narkoman, ekstremist) adamın təxribat cəhdidir".

Meydana dolmuş kütlələrin tələbini dinləmək, onların kütləvi həyəcanını səngitmək əvəzinə kütləvi cəzalandırma ilə hədələmə itirməyə heç nəyi olmayanları geri dönüşü olmayan bir yola itələyir və onların sırası artır. Çünki hakimiyyət öz güzəştsiz mövqeyi, sərt sifəti ilə onlara və tərəddüd edənlərə belə bir mesaj verir ki, öz zülmkar, istismarçı siyasətini dəyişməyəcək və bu adamlar bundan sonra da ağ gün görməyəcəklər.

Kütlənin sonuncu ümid yeri də məhv olandan sonra artıq onu heç nə dayandıra bilməz. Zatən, insanların reaksioner rejim qarşısındakı xofunu yenib meydana çıxması onların öz talelərinə və təhlükəsizliklərinə kütləvi əndişə duymasından irəli gəlir. Hakimiyyət öz hərəkətləri ilə bu əndişəni bir az da artıracaqsa, qarşısında daha qəzəbli və barışmaz kütlə görəcək.

Daxili təlatümlər, iqtidar-xalq qarşıdurması yaşayan ölkələrin hamısında belə olub. Həmin ölkələr bir qayda olaraq istibdad yuvaları, sərt rejimə malik ölkələrdir. Burada üsyana qalxmış xalqla, müxalifət qüvvələri ilə gerçək və ciddi dialoqa getmək, yaranmış problemi dinc yolla həll etmək praktikası yoxdur. Bütün hallarda sonda münasibətləri güc ayırd edir - ya güclü iqtidar repressiya ilə, ya da mütəşəkkil müxalifət inqilabla.

Ancaq bəzi ölkələr də var ki, adını başqa cür qoysalar da, etiraz aksiyalarının xalqın narazı kütlələrinin hərəkatı olduğunu anlayırlar və situasiyanın qəlizləşməsinə imkan verməzdən qabaq tədbirlər görürlər. Bu tədbirlərdən ən effektlisi kortəbii şəkildə aksiyaya çıxmış narazıların sosial tələblərinin siyasi tələblərə çevrilməsinin qarşısını almaq, xalqı müxtəlif vədlərlə sakitləşdirmək, bəzi populist qərarlar vermək, camaata sabaha ümidi artırmaqdır.

Ötən həftə baş verən aksiyalar zamanı Azərbaycan iqtidarı məhz bu cür etdi. Bəzi rayonlarda icra hakimiyyəti başçıları xalqın qarşısına çıxdı, tələblərini dinlədi, vədlər verdi və camaat sakitləşib evlərinə dağıldı.

Kütləvi həyəcan dalğası səngiyəndən sonra bir sıra ərzaq mallarının bahalaşmasının qarşısının alınması narazı insanları psixoloji baxımdan rahatladı, onları "hökumət bu işi belə qoymayacaq, bahalaşmanın qarşısı necə olsa alınacaq" fikrinə köklədi.

Ancaq artıq bir neçə gündür məmurların ritorikası dəyişib, baş verən hadisələri ölkə müxalifətinin, hətta xarici qüvvələrin ayağına yazmaq cəhdləri müşahidə olunur.

Dünənə qədər "ölkədə müxalifət yoxdur", "xalq müxalifətin dalınca getmir" kimi populyar ifadələrin ardınca "aksiyaları müxalifət təşkil edib" demək nə qədər ziddiyyətli görünsə də, həqiqət olmadığı üçün də qeyri-ciddi görünür.

**Bununla belə, mövcud iqtidarın bu xətti götürməsi boşuna deyil, o, müxalifət qüvvələri ilə kütlələrin arasına sədd çəkir, onları yaranmış situasiyadan faydalanmaq təşəbbüsündən çəkindirməyə çalışır. Yəni iqtidar son aksiyaları müxalifətin təşkil etmədiyini bilir, sadəcə, onun bundan sonrakı aksiyalara da qarışmamasına çalışır.**

YENİ MÜSAVAT
N 16 (6337) 23 yanvar 2016






# Rüfət Səfərov azadlığa çıxdı

## Sabiq müstəntiq "şərəflə öləcəyəm" dedi

**Dünən Binəqədi rayon Məhkəməsində Zərdab rayon Prokurorluğunun sabiq müstəntiqi, həbsdə olan Rüfət Səfərovla bağlı verilən vəsatətə baxılıb. Məhkəmə onların vəsatətini təmin edərək R.Səfərov barəsində seçilmiş həbs-qətimkan tədbirini ev dustaqlığı ilə əvəz edib. R.Səfərov məhkəmə zalından azadlığa buraxılıb.**

"Ədalət bərqərar oldu". Bunu musavat.com-a açıqlamasında **R.Səfərovun vəkili Bəhruz Bayramov** dedi. Onun sözlərinə görə, qərar onlarçün gözlənilməz olduğu qədər də sevindirici olub. Müsahibimiz dedi ki, məhkəmə onların vəsatətini təmin edərək R.Səfərov barəsində seçilmiş həbs-qətimkan tədbirini ev dustaqlığı ilə əvəz edib: "Həbs-qətimkan tədbiri ilə bağlı verilmiş qərardan apelyasiya şikayətimiz əsasında Apelyasiya Məhkəməsində proses olmalıydı. Yaxşı ki, Binəqədi rayon Məhkəməsindəki prosesdə məsələ həll olundu və digər prosesə ehtiyac qalmadı. Bu, bizimçün gözlənilməz olsa da, təqdirəlayiq haldır. Prosessual məcəllənin tələblərinə riayət olundu".

**B.Bayramov R.Səfərovun onunla birgə olduğunu desə də, bundan sonra mediaya danışmayacağını vurğuladı:** "Bilirsiniz ki, Rüfət Səfərov ağır maddə ilə ittiham olunub və hazırda təqdirləndirilən şəxs statusundadır, ev dustağıdır. Bu baxımdan onun mediaya danışmasını məqbul hesab etmirik".

**Vəkil dedi ki, cinayət işinin istintaqının gözləyirlər. Onun sözlərinə görə, mövqelərini ortaya qoyacaqlar və R.Səfərovun bəraət alması üçün hüquq müstəvisində mübarizələrini davam etdirəcəklər:** "Bu məsələ qurtarandan sonra Rüfət Səfərov gələcək planları barədə danışacaq. İndiki mərhələdə isə hər hansı açıqlama verməsi statusuna görə uyğun deyil".

*R.Səfərovun valideynləri - Eldar Sabiroğlu və Tahirə Səfərova prezident İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti, birinci xanım Mehriban Əliyevaya müraciət ediblər. Onlar övladlarının həbsdən buraxılmasına görə minnətdarlıqlarını bildiriblər:*

"Möhtərəm Prezident, hörmətli Mehriban xanım!

Oğlumuz Rüfət Səfərovun məlum işi ilə əlaqədar çox üzüntü keçirdik. Ailəmizin həyəcan və əzabını sözlə ifadə etmək çətindir. Allah kimsəyə, heç bir valideynə belə ağır günü göstərməsin. Ancaq yenə ümidlə yaşayırdıq.

Möhtərəm prezident! Şükürlər olsun ki, bu ümidimizi puça çıxarmadınız. Siz gənc bir insanın həyatını dəmir barmaqlıqlar arasında davam etdirməsinin önünü kəsdiniz. Bu günədək yüzlərlə vətəndaşımızı həbsxana divarları arasından xilas edərək onların azadlığa qovuşması üçün göstərmiş olduğunuz böyük humanizmin və bir şəxsiyyət kimi nümayiş etdirdiyiniz rəhmidilliyin yüksək dəyər və qiymətə söykəndiyini etiraf etməyə bilmirik. Sonsuz inamla qeyd etmək istərdik ki, bundan sonra da bu cür xeyrxahlığınız gözləri yolda qalan ata-analarımızı sevindirəcək və ailələrə xosbəxtlik nəsib edəcəkdir. İnsanın hiss və duyğulardan kənar yaşamasının nə qədər çətin olduğunu sübut etməyə ehtiyac yoxdur. Bu mənada Rüfətin yanına -Bakı İstintaq Təcridxanasına gedərkən qapı ağzında toplaşmış kədər və qussədolu gözlərə baxmaq, pəncərədən boylanan həbsxana "sakinlərinin" həsrətli baxışlarını görmək bir sızıltı kimi içimizi göynətdi. Daxili bir inam bizdə əminlik yaradır ki, Rüfəti azad dünyaya çıxardığınız kimi həmin təcdirxana qarşısında gözü yaşla dolu olan ana və bacılarımıza da bizə bəxş etdiyiniz sevinci onlara da qismət edəcəksiniz.

Bir daha bu sevinci ailəmizə yaşatdığınıza görə Sizə və xanımınız Mehriban Əliyevaya dərin təşəkkur və minnətdarlığımızı bildiririk. Cənab Prezident böyük ürək sahibi olduğunuzu övladımız Rüfətin qismində bir daha göstərdiniz. Çox sağ olun!"

**Günün sonunda isə R.Səfərov facebook statusunda aşağıdakıları yazıb:** "Azdlıqda xoş görüşdük. Əziz bacı və qardaşlarım! Vicdan və ədalət hissini göz ardı etməyən insanlar! Azad media təmsilciləri! Vətəndaş cəmiyyətinin ləyaqətli kəsləri! Mən Rufət Səfərov olaraq verdiyiniz dəstəyə görə sidq-ürəkdən minnətdarlıq edirəm. Mənə dəstək verənləri əmin edirəm ki, şərəflə doğuldum, şərəflə yaşayıram, şərəflə də öləcəyəm! Bu qədər!"

Qeyd edək ki, yanvarın 15-də Binəqədi rayon Məhkəməsinin qərarı ilə R. Səfərov barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçmişdi.

Məhkəmənin qərarına əsasən R. Səfərov Cinayət Məcəlləsinin 311-ci (rüşvət alma) maddəsi ilə təqsirləndirilir.

❑ SEVİNC

# Eldar Mahmudov milyardların qarşılığında həbs təhlükəsindən yayına bilər

## Kamerada asılmış tapılan MTN polkovniki ilə generalı dəmir barmaqlıqlar arxasında üz-üzə gəlib; Akif Çovdarovun İlqar Əliyevlə qovğası olub; həbsdəki MTN-çilər üçün xüsusi korpus tikilir

**Eldar Mahmudovun milli təhlükəsizlik naziri vəzifəsindən uzaqlaşdırılmasından 3 ay, Milli Təhlükəsizlik Nazirliyinin (MTN) ləğv edilməsindən 1 aydan artıq vaxt ötür. Ötən aylar ərzində MTN-in rəhbərliyinə daxil olan vəzifə daşıyıcılarının illərlə törətdikləri cinayətləri təsdiqləyən yüzlərlə zərərçəkən, şahid ortaya çıxdı.**

**2015-ci il oktyabrın 17-də Eldar Mahmudov vəzifəsindən çıxarılana qədər kimsə qurumla bağlı danışmağa, bildiklərini söyləməyə can atmırdı. Səbəb sadə idi - yenidən MTN-çilərin "ətçəkən" maşınından keçmək istəmirdilər...**

Hazırda situasiya fərqlidir. Eldar Mahmudov vəzifəsini itirib, onun komandasına daxil olan 10 general da daxil olmaqla, 100-ə yaxın xüsusi xidmət orqanı əməkdaşı həbsdədirlər. Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində cinayət işi araşdırılır.

Gələn məlumatlar onu deməyə əsas verir ki, Eldar Mahmudov üçün həbs təhlükəsi artıq sovuşub. Onu istintaqa cəlb etsələr də, vaxtilə ona tabe olmuş şəxslər sırasında üzünə dayanan yoxdur. Sabiq nazirə işdən çıxarılandan dərhal sonra əlindən alınan mobil telefonlarını geri qaytarıblar. Ona sərbəst şəkildə kimə istəsə zəng etmək hüququ da tanınıb. Hazırda Bilgəhdəki bağ evində nəzarət altında saxlanılan sabiq nazirin aktiv şəkildə qudası Cahangir Hacıyevə Beynəlxalq Bankdan çıxarılan milyardlarla dolların geri qaytarılmasında kömək etdiyi bildirilir. Belə məlumatlar var ki, Eldar Mahmudov Beynəlxalq Bank vasitəsi ilə, digər yollarla büdcədən yayındırılan milyardların geri qaytarılacağı təqdirdə həbsdən kənarda qala biləcək. Sabiq nazirin Beynəlxalq Bankdan iri məbləğdə kredit götürmüş şəxslərə zəng etdiyi, kreditlərin geri qaytarılmasının tezləşdirilməsini tapşırması haqda da xəbərlər var. Belə görünür ki, indiki mərhələdə Eldar Mahmudovun həbsdə olması məqbul sayılmır.

***

Eldar Mahmudova yaxın olan, cəmiyyətdə odioz fiqur kimi tanınan Akif Çovdarovla bağlı da bir neçə yeni xəbər var. Gələn məlumatlar onu deməyə əsas verir ki, hazırda Bakı İstintaq Təcridxanasında xüsusi nəzarət altında saxlanılan Akif Çovdarovun çöllə əlaqələri, rabitəsi qalır. Söhbət nəzarət altında onun yaxınları ilə telefon danışığından getmir.

Xəbər var ki, A.Çovdarov köhnə əlaqələrinin hesabına təcridxana divarlarından kənarda "işləri"ni davam etdirə bilir. Onun qarşısını sadəcə ala bilmirlər. Yazmışdıq, bir də yada salaq. Akif Çovdarov vaxtilə Binə qəsəbəsində yerləşən 2 saylı cəzaçəkmə müəssisəsində işləyib. Həmin vaxt Ramiz Heybətov müəssisənin rəisi, Akif Hacıyevlə Elxan Sadıqov isə müavin olublar. Akif Çovdarovun onlarla, xüsusən də Akif Hacıyev və Elxan Sadıqovla çox yaxşı dostluq münasibətləri olub və indiyədək də davam edir. Akif Hacıyev Rövşən Cavadovun bacısının həyat yoldaşıdır. Akif Çovdarovun AXC hakimiyyətə gələnə qədər Penitensiar Xidmətin rəis müavini vəzifəsində çalışdığı, Milli Təhlükəsizlik Nazirliyinə qayınatası vasitəsi ilə transfer olunduğu bildirilir. Qeyd olunur ki, A.Çovdarovun qayınatası təhlükəsizlik işçisi olub və onu bu sistemə işə də o gətirib. Akif Hacıyev isə sonralar fəaliyyətini DİN sistemində davam etdirib və Cəlilabadın polis rəisi olub. Sonuncu iş yeri DİN-də inspektor olub. A.Çovdarovun MTN-in keçirdiyi "Qara kəmər" əməliyyatı zamanı həbs olunan Hacı Məmmədovla münasibətlərinin olduğu haqda da məlumatlar var.

Bildirilir ki, Akif Hacıyev Hacı Məmmədovun həbsindən sonra DİN-dən uzaqlaşdırılıb. Akif Çovdarovla Hacı Məmmədovun Akif Hacıyevin vasitəsi ilə şəxsi münasibətlərinin ola biləcəyi də istisna edilmir. Akif Çovdarovun şəxsi keyfiyyətlərinə gəldikdə isə o, yuxarıdan verilən tapşırıqları dərhal və heç bir tərəddüdsüz, eyni zamanda, ehtiyac olanda xüsusi qəddarlıqla icra edən bir şəxs kimi xarakterizə edilir.

Eyni zamanda Akif Çovdarovun hələ cəzaçəkmə müəssisəsində çalışdığı vaxtlardan kriminal aləmlə əlaqələrinin olduğu bildirilir. Qeyd olunur ki, MTN-də Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi vəzifəsini daşıdığı dövrlərdə də Akif Çovdarov kriminal aləmlə, xüsusilə kriminal aləmdəki nüfuz sahibləri ilə əlaqələrini bir qədər də möhkəmləndirib. Onun adı kriminal aləmdə ara-sıra baş qaldıran nüfuz müharibələrində iştirak edən tərəflərdən birinə dəstək verməkdə də keçir. Bu baxımdan təcridxana divarları arasında olmaq digər MTN-çilərə münasibətdə Akif Çovdarov üçün faciə deyil. Məsələn, MTN-in Anti-Terror Mərkəzinin rəisi general-mayor Elçin Quliyevin mənəvi baxımdan sınmış olduğu haqda məlumatlarla yanaşı, ara-sıra Akif Çovdarovun özünü çox yaxşı hiss etməsi haqda da xəbərlər yayılır. Ona həbsxana divarları bir növ doğmadır. Elə bu doğmalıq, köhnə əlaqələri ona "içəri"də istədiyi işləri görmək, çölə istədiyi isməmarışı göndərmək imkanlarını verir.

Yeri gəlmişkən qeyd edək ki, onun ötən il dekabrın 20-də Bakı İstintaq Təcridxanasındakı kamerasında müəmmalı şəkildə dünyasını dəyişmiş MTN polkovniki İlqar Əliyevlə münasibətlərini son dərəcə kəskin olması xəbəri də var. Belə aydın olur ki, MTN-də işlədikləri vaxtlarda Akif Çovdarovla İlqar Əliyevin münasibətləri o qədər də yaxşı olmayıb. Hər iki MTN-çi həbsə düşəndən sonra münasibətləri daha da pisləşib. Bunun səbəbi haqda mənbəmiz bilgi verməsə də, qeyd edib ki, İlqar Əliyevin ölümündən əvvəl Akif Çovdarovla qovğası olub. Bu qovğa təbii ki, İlqar Əliyevin ölümündən sonra sona çatıb...



Eldar Mahmudov



Akif Çovdarov



İlqar Əliyev

### 9 saylı cəzaçəkmə müəssisəsində həbsdəki MTN-çilər üçün xüsusi korpus tikilir

Kriminal aləmdə "qırmızı zon" adlanan 9 saylı cəzaçəkmə müəssisəsində həbsdə olan MTN-çilər üçün ayrıca xüsusi korpus tikilir. Bu haqda redaksiyamıza daxil olan məlumat onu deməyə əsas verir ki, MTN-çilər məhkəmə qarşısına çıxarılandan sonra da xüsusi nəzarət altında, digər məhkumlardan təcrid olunmuş vəziyyətdə saxlanacaqlar. Bunun özəl səbəbləri var. Bu səbəblərdən biri də dəmir barmaqlıq arxasına salınan MTN-çilərin xidmətlə əlaqəli əldə etdikləri, tanış olmalarına vəzifələrinin yol açdığı informasiyalar azı 50 il aktuallığını saxlayır. Həmin informasiyaların onlardan digər məhkumların ala bilməsi ehtimalı var. Yada salaq ki, Bakı İstintaq Təcridxanasında saxlanılan MTN-çilər də xüsusi nəzarət altında saxlanılırlar.

### Qəssablıq - Hacı Məmmədovla Akif Çovdarovu birləşdirən peşə?!

Hazırda Dövlət Təhlükəsizlik Xidmətinin nəzarətində olan İstintaq Təcridxanasında saxlanılan Hacı Məmmədovla Akif Çovdarovun hər iki şəxsin azadlıqda olduğu dövrdən münasibətlərinin olması haqda xəbərləri bölüşdük. Hacı Məmmədovun həbsindən sonra onun kimliyi ilə bağlı yayılan məlumatlarda atasının tanınmış qəssab olduğu bildirilirdi. "Gundəm-xəbər" qəzeti yazır ki, hazırda həbsdə olan Akif Çovdarovun atası da "pasaj bazarı"nda, çoxlarının "Şüşəli bazar" kimi tanıdığı ərazidə qəssab işləyib. Generalın atasının uzun müddət bu bazarda ət kəsib, satdığı ortaya çıxıb. Qəzetə məlumatı verən mənbə deyib ki, A.Çovdarovun atası çox sərt adam olub. "Yeni Müsavat"a daxil olan məlumatda isə A.Çovdarovun atasının müəllim olduğu deyilir.

**Qeyd edək ki, Akif Çovdarova Cinayət Məcəlləsinin 308.2, 309.1, 302.2-ci və 311-ci maddələri ilə ittiham elan olunub, saxlanıldıqdan sonra Səbayel Rayon Məhkəməsi barəsində 3 ay müddətinə həbs-qətimkan qərarı verib.**

❑ E.HÜSEYNOV

**Helsinki Komissiyasının sədri, konqresmen Kris Smit tərəfindən ABŞ Konqresinə təqdim olunmuş, Azərbaycana qarşı sanksiyaları nəzərdə tutan qətnamə okeanın o tayında da etirazlara səbəb olub.**

ki, sanksiyalarla bağlı qətnamələr hələlik arxa plana keçirilib. Azərbaycanın antiterror koalisiyasının üzvü olması, Əfqanıstana yük daşımalarla bağlı məsələlərdə ölkəmizin önəmi xüsusi qeyd olunur. Düzdür, son zamanlar Tehran da öz tərəfindən Əfqanıstanla bağlı prosesdə na etdi. Ona görə də top Azərbaycanın meydanındadır”.

**Politoloq vurğuladı ki, “Pentaqon Azərbaycanla əməkdaşlığa görə Konqresə və konqresmenlərə təsir edəcəkmi”, yaxud “Pentaqon Azərbaycana görə Smitlə və digər koqnresmənlər təmasa baş vu-**

hansı məhdud siyasi elita deyil, bütövlükdə xalqlara dəyəcək”.

**Z.Oruc fikrini əsaslandıraraq qeyd etdi ki, çünki orada yer alan müddəalar bir partiyanın ölkəmizdəki hakimiyyətinə son qoymaq üçün deyil:** “Əslində hadisələrin gələcək inkişafı

# Azərbaycana qarşı sanksiyalar arxa plana düşdü?





**Zahid Oruc:** “Əgər sanksiyalar qəbul olunsa, ilk növbədə Rusiya öz çevrəsində Amerikadan qopmuş varlı bir tərəfdaş qazanacaq”
**Elxan Şahinoğlu:** “Əslində Kristofer Smitin qanun layihəsinin qəbul olunmaması rəsmi Bakının əlindədir”

**Xatırladaq ki, qanun layihəsində Azərbaycana və ölkə rəhbərliyi də daxil olmaqla, vəzifəli şəxslərə qarşı sanksiyaların tətbiq edilməsi barədə təkliflər əksini tapır.** ABŞ-ın aparıcı mətbu orqanı olan “The Washington Post” qəzetində dərc olunan məqalə də diqqət çəkir. Oksford Universitetinin doktorantı Samuel Ramaninin Azərbaycana həsr etdiyi məqalədə konqresmen K.Smitin Azərbaycan əleyhinə qanun layihəsinin qəbul edilməyəcəyinin səbəblərini açıqlayıb. Müəllif yazır ki, Azərbaycan Mərkəzi Asiya və Avropanı birləşdirən mühüm enerji tranziti qovşağıdır, prezident İlham Əliyev Gürcüstan və Ukrayna da daxil olmaqla ölkələrin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir, Azərbaycan terrorizmə və islam radikalizminə qarşı mübarizədə ABŞ-la həmrəydir.

Bir sıra mühüm məqamların qeyd olunduğu məqalədə bildirilir ki, Azərbaycan müstəqilliyinin bütün illərində beynəlxalq hüquq normalarını dəstəkləyib. Odur ki, o, Ukrayna və Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir və bununla da Birləşmiş Ştatlar ilə eyni mövqe nümayiş etdirir. Bundan başqa, Azərbaycanın ərazi bütövlüyü ölkənin Dağlıq Qarabağ regionunu işğal edən Ermənistan tərəfindən pozulub.

**Düzdür, hələ Smitin layihəsi müzakirəyə çıxarılmayıb, amma onun tam kənara qoyulduğunu da demək olmaz.** Bununla belə, ABŞ-ın yüksək çinli məmurunun yanvar ayında Azərbaycana səfər etməsi, prezident Əliyevin mart ayında ABŞ-da keçiriləcək nüvə sammitinə dəvət olunması, Amerikanın ölkəmizdəki səfirliyinin dostluq və əməkdaşlıq məsələlərindən bəhs edən son açıqlamaları onu deməyə əsas verir ərazisini təklif etməyə başlayıb. Ancaq bu, gələcəkdə reallaşa bilər, indiki situasiyada isə Bakı Qərbə çox lazımdır.

**Politoloq Elxan Şahinoğlu** bildirdi ki, K.Smitin qanun layihəsinin Konqresdən keçib-keçməyəcəyini indidən söyləmək çətindir: “Bəli, Azərbaycan enerji və təhlükəsizlik sahəsində ABŞ-ın tərəfdaşıdır, bunu amerikalı rəsmilər və diplomatlar da dönə-dönə qeyd edirlər. Ancaq Konqres Dövlət Departamentinin təlimatları ilə fəaliyyət göstərmir. Dövlət Departamenti üçün Azərbaycanla əməkdaşlığın genişləndirilməsi vacibdirsə, Konqres üçün tam ayrı dəyərlər əsas götürülür. Həm də onu nəzərə almaq lazımdır ki, Konqresin hər iki palatasında çoxluq Respublikaçılar Partiyasına məxsusdur. Onlar isə prezidenti Barak Obamanın və Dövlət Departamentinin işini çətinləşdirmək üçün istənilən addımı ata bilərlər. Çünki Respublikaçılar Partiyası prezident seçkisində indidən öz gələcək namizədinin mövqelərinin gücləndirməyə çalışır. Bunun üçün isə Barak Obama və Dövlət Departamentinin işini çətinləşdirmək lazımdır”. **E.Şahinoğlunun sözlərinə görə, çünki Smitin qanun layihəsi qəbul olunarsa, rəsmi Bakının Vaşinqtonla münasibətləri yenidən sərinləşəcək:** “Əslində Kristofer Smitin qanun layihəsinin qəbul olunmaması rəsmi Bakının əlindədir. Barak Obama azərbaycanlı həmkarını Vaşinqtona nüvə konfransına dəvət edib. Tədbir martın sonunda aprelin əvvəllərində keçiriləcək. Əgər həmin tarixə qədər Azərbaycan prezidenti siyasi və ya mübahisəli adlandırılan məhbusları əfv fərmanı ilə həbsdən azad etsə, Smitin qanun layihəsinin əhəmiyyəti qalmayacaq. Bəlkə də onun özü həmin layihədən imti-

**rub onları fikirlərindən daşındırcaqmı” kimi suallara birmənalı cavab vermək çətindir:** “Bəli, Smitin qanun layihəsinin qəbulunu nə Pentaqon, nə də Dövlət Departamenti istəyir. Ancaq hər iki qurumun Azərbaycana görə Konqreslə qarşıdurmaya gedəcəyini düşünmürəm”.

**Deputat, MM-in Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Zahid Oruc** “Yeni Müsavat”a bildirdi ki, “Vaşinqton post” kimi nüfuzlu qəzetdə Amerika-Azərbaycan münasibətlərinin köklü əsaslara malik olduğunun qabardılması müxtəlif siyasi qruplara xidmət edən lobbi hərəkatlarına qarşı təsirli informasiya hücumudur: “Gördüyünüz kimi, söhbət yalnız bir ölkənin mənafelərindən çıxış etməkdən getmir, Birləşmiş Ştatların Ukrayna və Gürcüstanla bağlı apardığı strategiyanın əngəllənməməsi üçün hansı regional dayaqlara ehtiyac duyulduğunu bir daha məsaj edir. Ağ Evə yaxın beyin mərkəzləri və siyasi institutlar indi yaşadığımız bölgəyə daha geniş nəzərlərlə baxırlar. Əgər sanksiyalar qəbul olunsa, ilk növbədə Rusiya öz çevrəsində Amerikadan qopmuş varlı bir tərəfdaş qazanacaq və mahiyyət etibarilə Kremllə savaş aparanların tam əks nəticə ilə üz-üzə qaldığı ortaya çıxacaq. Axı, Cənubi Qafqazın geopoltikasını dəyişən mühüm siyasi layihələr və iqtisadi müqavilələrin üzərindən xətt çəkilərsə, onda Qərbin burada hansı imkanlar və resurslar hesabına Putinlə müharibə edəcəyini proqnozloşadırmaq çətin olmur. Faktiki olaraq, Azərbaycan əleyhinə toparlanan qüvvələr Amerikanın əli ilə burada Qərbə hər zaman kömək edən bir dövləti cəzalandırmağı təklif edirlər və onun ziyanı hər Obama ilə cənab prezident İlham Əliyev arasındakı görüşün baş tutmasından çox asılıdır. Doğrudur, nüvə sammiti konkret gündəliyə malikdir. Lakin hər iki tərəf xoş iradə göstərərək danışıqlar və yeni çözüm planlarının hazırlanmasına dair xarici siyasət idarələrinə göstəriş verə bilərlər. Diplomatik kanallar isə sıx bir qrafikdə çalışaraq parlamentarilərin təşəbbüslərini yarıda qoyar və dövlət maraqları qalib gələr. Amerikanın İrandan sanksiyaları ləğv etdiyi bir siyasi atmosferdə beynəlxalq siyasəti müəyyənləşdirməyən və dünyanın təhlükəsizliyini təhdid etməyən başqa bir regional güc mərkəzini öz siyasətindən sərt bir şəkildə kənarlaşdırmasını heç bir müqəddəs dəyərlərlə əsaslandırmaq mümkün olmayacaq. Ona görə də Amerikanın nüfuzlu bir nəşri ilə başlanmış informativ müdafiə və gerçəklərin tanıdılması, qarşılıqlı maraqların birgə faydalarını tirajlayan fəlaiyyəti davam etdirilməsi çox arzuolunandır. Orada Azərbaycanın dostları hesabına yüksək bir düzeydə pozulmuş əlaqələri bərpa etməklə fərqli bir perspektiv gəlişdirmək olar. Hər halda Azərbaycan siyasi elitası, yaxud konkret iqtisadi maraqlı qruplar Qərblə tərəfdaşlığın yanındadılar və məlum maliyyə qeyri-sabitliyi də Avropa ilə yaxın əlaqələri həyati zərurətə çevirir. Ölkə başçısının elan etdiyi yeni iqtisadi kurs öncəsi Davosa getməsi və orada müxtəlif dövlət rəhbərləri ilə görüşməsi Azrbaycanın izolə siyasətinə qarşı tutduğu prinsipial xətti sübuta yetirir və bizi tərəfaş kimi görənlərin sayını artırır. İlham Əliyevin zamanın çağırışlarını yüksək dərəcədə bilən çevik liderlik keyfiyyətləri də məhz bunda özünü əks etdirir”.

❑ **E.PAŞASOY**



# “İlham Əliyevin proqnozu nikbindir...”

**İlham Şaban:** “Əslində dövlət başçısı 2017-ci illə bağlı ümidverici bir proqnoz verib”...

**Dövlət başçısı İlham Əliyev neftin qiyməti ilə bağlı nikbin proqnozlarını bölüşüb. İlham Əliyev Davos Forumu çərçivəsində keçirilən “The new energy equation” panelində çıxışında bu barədə bildirib: “Hesab edirəm ki, neftin qiyməti daha 2-3 dollar düşəcək. Lakin ilin ikinci yarısında bazar inkişaf edəcək”.**

Dövlət başçısının sözlərinə görə, neftin qiyməti ilə bağlı vəziyyət dövri xarakter daşıyır: “Mən xatırlayıram ki, biz 1994-cü ildə böyük neft layihələrinə başlayanda neftin qiyməti 12 dollar idi. İnkişaf layihələri hazırlayanda neftin qiymətinin 22 dollar olacağına ümid edirdik. İndi qiymət həmin rəqəmə yaxınlaşır. Ümid edirəm ki, bazar stabilləşəcək. Çünki neft sektoru investisiyaya ehtiyac duyur. Aydındır ki, neftin qiyməti qalxacaq. Proqnoz vermək istəmirəm, amma ümid edirəm ki, gələn il neftin qiyməti 60-70 dollar olacaq. Bu ilin ikinci yarısının isə stabilləşmə dövrü olacağına ümidvaram”. “Yeni enerji tarazlığı” adlı panel müzakirəsində çıxış edərkən o, neftin qiymətinin düşməsindən danışıb. O bildirib ki, dünya birjalarında neftin qiymətinin daha da ucuzlaşması təəccüblü olmayacaq. İ.Əliyev neftin qiymətinin bu səviyyədə düşməsini gözlənilməz adlandırsa da, Azərbaycanın iqtisadiyyatının stabil olduğunu deyib. “Bizim kifayət qədər ehtiyatlarımız var. Mövcud vəziyyəti kompensasiya edə bilərik. Amma uzun zaman belə davam etsə, bizim büdcəyə böyük təsiri olacaq”.

Ekspertlər də neftin qiymətinin 2017-ci ildə bahalaşmağa doğru gedəcəyini açıqlayırlar. Ancaq konkret rəqəm söyləmək o qədər də asan deyil. **Ekspert İlham Şaban** məsələ ilə bağlı musavat.com-a bildirib ki, əslində dövlət başçısı 2017-ci illə bağlı ümidverici bir proqnoz verib: “Ancaq bunu qəti zaman gələcək formasında bildirməyib. Ona görə qeyd etmək olar ki, o ümidli olduğunu bildirib, istərdi ki, bu, 2017-ci ildə baş versin. Ancaq reallıq ondan ibarətdir ki, 2017-də həqiqətən neftin qiyməti 2016-cı ildən baha olacaq. Bütün proqnozlar, istər beynəlxalq enerji agentliklərinin, istər beynəlxalq maliyyə qurumlarının proqnozları olsun, istərsə də şirkətlərin açıqlamaları bunu göstərir. Yəni 2017-ci ildə 2016-cı illə müqayisədə neft daha baha olacaq. Əgər biz nəzər salsaq, bp şirkətinin rəhbəri Robert Dadli də açıqlamasında neftin qiymətinin bu ilin ikinci yarısında artıq artmağa başlayacağını qeyd edib. Bu, ümumiyyətlə ”bp global”ın açıqladığı hesabata uyğun bir açıqlamadır. İndiyədək bp nə qədər bu cür proqnozlar verib, hamısı düz çıxıb. Çünki bu proqnozlar veriləndə ancaq neft bazarı nəzərdə tutulmur. Bütün iqtisadiyyat, iqtisadi faktorlar nəzərə alınmaqla neftin qiymətlərinə nəzər yetirilir. Burada quyuların azalması faktorundan tutmuş yataqlara qoyulan kapital qoyuluşları və Avropada iqtisadi inkişaf templəri də nəzərə alınır. Dünya Bankının hesabatında açıqladığı son proqnozlarda əgər ən böyük istehlakçı olan Çində ümumi daxili məhsul aşağı enirsə, Avropada ümumi daxili məhsul tempi artır. Dünya üzrə götürəndə, ümumi daxili məhsul 3,4-dən daha yüksək templə artım səviyyəsi göstərəcək. İnkişaf etməkdə olan ölkələrin hesabına bu, baş verəcək. Nəticə etibarı ilə ona gətirməlidir ki, neftin qiymətlərinin artmağa istiqamət götürməlidir. İndi real olaraq bahalaşma 2017-ci ilin yanvarında, ya dekabrında olacaq, bu, başqa məsələdir".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 16 (6337) 23 yanvar 2016

# Banklar vətəndaşlara niyə kömək etmir?

## Rəşad Həsənov: "Banklar kredit götürənləri ayrı-ayrılıqda dəyərləndirməlidir"

**Banklarla vətəndaşlar arasındakı kredit və əmanətlərlə bağlı problemlərin həlli istiqamətində həm hökumət, həm də ekspertlər bir çox variantlar təklif edir. Problemli kreditlərin həlli, dollarla olan bank borclarının 1.05 məzənnəsi ilə hesablanması ilə bağlı demək olar ki, hər gün mətbuatda müzakirələr gedir. Lakin görünən odur ki, problem hələ də həllini tapmayıb. Banklar vətəndaşların qorxulu kabusuna çevrilib. Bu durum bəzi bankların da müflis olmasına gətirib çıxarıb.**

Situasiya isə bundan ibarətdir ki, banklar atacaqları addımlarla bağlı hökumətin qərarını gözləyir, hökumət isə hələ ki, bu məsələdə konkret qərar vermək fikrində deyil.

Ekspertlər hesab edir ki, banklar müstəqil kommersiya qurumu olduğu üçün müştərilərlə problemlərinə aydınlıq gətirməli və mövcud situasiyadan çıxmağa onlara kömək etməlidirlər.

*Bəs, banklar niyə vətəndaşlara kömək etmir? Bunun üçün onların əlində hansı iqtisadi rıçaqlar var?*

"Yeni Müsavat"ın bu suallarını cavablandıran **iqtisadçı-ekspert Rəşad Həsənov** bildirdi ki, bankların son bir ildəki vəziyyətini nəzərə alsaq, onların vətəndaşlarla münasibəti heç də ürəkaçan deyil: "Bu səbəbdəndir ki , bir çox banklar hətta bağlanmaq təhlükəsi ilə üzləşiblər. Bəzi banklar böyük ehtimalla 2016-ci ildə birləşəcəklər. Bu daha çox bankların bu günə qədər apardığı düzgün olmayan faiz siyasətinin, eyni zamanda kütləvi şəkildə kreditləşməni həyata keçirmək, bu prosesdəki nöqsanlar, kredit götürənlərin maliyyə vəziyyətinin düzgün qiymətləndirilməməsi və kredit götürənlərin qlobal iqtisadi fonda baş verəcəkləri proqnozlaşdıra bilməməsinin nəticəsidir. Təbii ki, kredit götürənlər buna məcbur deyillər. Heç kim kredit götürərkən neftin qiymətinin düşəcəyini, ölkədə iqtisadi böhranın yaranacağını, iş yerlərinin ixtisar ediləcəyini, gəlirlərin azalacağını proqnozlaşdıra bilməzdi. Hər bir vətəndaş və ya sahibkar bu istiqamətdə təhlil apara bilməz. Ümumiyyətlə, baş verənlərin fonunda hazırda bankların imkanları kifayət qədər məhdudlaşıb. Banklar hazırki situasiyada vətəndaşlara kömək etməlidirlər. Bu vaxtın uzadılması, kreditlərin restrukturizasiya edilməsi, imkan daxilində xarici valyutada olan kreditlərin milli valyutaya çevrilməsi və əvvəlki dövrlərdə tətbiq edilən, kredit müqaviləsində göstərilən faizlərin minimuma endirilməsi şəklində ola bilər".

**Ekspert onu da qeyd etdi ki, problemli kreditlərin həlli üçün banklar fərdi yanaşma ortaya qoymalıdırlar:** "Banklar kredit götürənləri ayrı-ayrılıqda dəyərləndirməlidirlər, hər bir bank bununla bağlı komissiya yaratmalıdır. Həqiqətən kredit vermək imkanı olmayan vətəndaşlara müəyyən qədər vaxt tanınmalıdır, onların kreditləri bu böhran dalğası səngiyənə qədər və ya kredit götürənin maliyyə vəziyyətinin bərpa olunmasına qədər vaxt tanımalıdır.

Düşünürəm ki, hazırda banklar bu kimi addımlar atmaqla ilk növbədə müştərilərinin etimadını qazanarlar, digər tərəfdən yaranmış situasiyada müştərilər tərəfindən mövcud olan aqressiyanı yumşalda bilərlər. Bildiyimiz kimi, hazırda kütləvi şəkildə bank kreditlərinin ödənişindən imtina istiqamətində ictimai rəy formalaşıb. Bu son nəticədə banklar üçün ciddi problemə çevriləcək. Problemli kreditlərin həcminin 6-7 faiz göstərilir. Lakin bizim banklarla apardığımız qeyri-rəsmi danışıqlardan aydın olur ki, problemli kreditlərin həcmi təxminən 30 faizin üzərindədir. Bu da banklar üçün böyük bir itkiyə gətirib çıxara bilər. Hər bir bank bununla bağlı düşünməlidir. Banklar bu gün üçün bu istiqamətdə müəyyən fikirlərə sahibdirlər. Lakin digər tərəfdən hökumətin hansı addım atacağını gözlədikləri üçün öz qərarlarını ortaya qoymayıblar. Gözlənilir ki, hökumət hansısa formada kiçik istehlak kreditlərinə müəyyən güzəştlərlə bağlı qərar qəbul etsin. Banklar da bunun üzərində öz təkliflərini vətəndaşlara təqdim edəcəklər.

Hazırda hökumətin davranışından asılı olmayaraq banklar müştərilərin etimadını qoruyub saxlamağa çalışmalıdırlar. İmkanları daxilində vətəndaşlara güzəştlər tətbiq etməlidirlər".

Əmanətlərlə bağlı məsələyə gəlincə, Rəşad Həsənov bildirdi ki, əgər gələcəkdə bankların maliyyə durumu ilə bağlı hər hansı problem yaransa, hökumət vətəndaşlara dəyən ziyanı kompensasiya etməlidir: "Əmanətlər məsələsi hazırda çox mürəkkəb bir məsələdir. Hökumət bununla bağlı müəyyən addımlar atdı, əmanətlərin tam sığortalanması qərarını verdi. Bu müəyyən qədər gərginliyin yumşalmasına gətirib çıxaracaq. Ancaq düşünmürəm ki, Əmanətlərin Sığortalanması Fondu bu gərginliyi götürə biləcək gücdə deyil. Lakin Mərkəzi Bank da müəyyən qiymətləndirmələr aparır. Bankların aktiv və passivləri arasında mövcud disbalansı daha dəqiq bilir. Əgər Mərkəzi Bank bankların əmanətləri qaytarmaq imkanlarının olduğunu düşünürsə, bu o deməkdir ki, müəyyən ümidlər var. Təbii ki, proseslər o qədər dərinləşməyəcək ki, banklar çöksün. Əgər vətəndaşlar depozitlərini kütləvi şəkildə geri çəkməklə bağlı addım atarlarsa, bu bank sektoru üçün ciddi təhlükə formalaşdıracaq. Hökumət böyük ehtimalla banklardan depozitlərin çəkilməsini məhdudlaşdıracaq. Biz bəzi ölkələrdə bu kimi addımları müşahidə edirik. Bu cür risklər bizdə də var. Mümkündür ki, vətəndaşlar əmanətlərini vaxtında götürə bilməsinlər. Çünki problemli kreditlər banklar üçün böyük çətinlik yaradıb. Bu baxımdan kütləvi şəkildə müraciətlər olduğu təqdirdə banklar əmanətləri geri qaytarmaqdan imtina edəcəklər. Amma ümumi fonda vətəndaşlar əmanətlərini gec də olsa alacaqlar. Hökumət qarşıdakı 20-25 ildə banklara inamı sarsıdacaq hər hansı addım atmayacaq. Əgər belə bir situasiya olsa, vətəndaşlara dəyən ziyanlar kompensasiya ediləcəkdir".

❑ Nərgiz LİFTİYEVA

# "Xalqlar dostluğu" icarəyə verilir: ayı 80 min manat





**"Xalqlar dostluğu" ticarət mərkəzində çalışanlar icarə haqlarının endirilməsini tələb edirdilər. Bir neçə gün əvvəl də bazarda çalışan bir qrup ticarətçi aksiya keçirmişdi.**

Aksiyadan sonra bazarın sahibi naxçıvanlı iş adamı İman Quliyev ticarət mərkəzinə gəlib. Ticarətçilərlə görüşən iş adamı icarə haqlarının endirilməyəcəyini deyib. Bu məlumatı musavat.com-un əməkdaşına bazarda çalışanlar verib. Bazar əməkdaşları deyirlər ki, icarə haqlarının endirilməməsi və devalvasiyadan sonra ölkə bazarında yaranan ağır vəziyyət onları çətin vəziyyətdə qoyub.

"Müştərilər 60 faizədək azalıb. Qazancımız da gündəlik icarə haqqına gedir. Yol pulu və yemək pulu çıxanda sevinirik. Çox adam mağazaları bağlayıb"- deyə bazar işçiləri bildirir.

Bazar işçiləri yenidən aksiya keçirəcəkləri ilə bağlı yayılan məlumatların doğru olmadığımı dedilər: "Heç bir xeyri olmayacaq. Rəhbərlik də deyib ki, icarə haqqı endirməyəcək".

Ticarət mərkəzində olarkən xeyli sayda mağazanın bağlandığının və icarəyə verildiyinin şahidi olduq.

Əldə etdiyimiz digər məlumata görə, naxçıvanlı biznesmen bazarı aylıq 80 min manata icarəyə çıxarıb.

❑ İLKİN

# Azərbaycandakı əcnəbi məhbuslar nə üçün ekstradisiya olunmurlar?

## Yüzlərlə xarici ölkə vətəndaşı cəza çəkir; ekstradisiya prosedurları necədir?

**Hazırda Azərbaycan həbsxanalarında yüzlərlə əcnəbi məhbus cəza çəkir. Onların öz ölkələrinə ekstradisiya olunmamaları müəmmalı olaraq qalmaqda davam edir. Doğrudur, indiyə qədər çoxsaylı əcnəbi məhbuslar razılıq əsasında doğma ölkələrinə ekstradisiya olunublar.**

Məhbusun digər dövlətin ərazisində həbs olunub, öz ölkəsində cəza çəkməsinin hüquqi proseduralarını araşdırdıq.

**Hüquqşünas Müzəffər Baxış** bildirdi ki, hər bir ölkə öz məhbus vətəndaşı ilə bağlı digər ölkəyə mütləq müraciət etməlidir: "Qanunun tələblərinə görə, xarici ölkədə daimi yaşamaq hüquqi olan, lakin vətəndaşlığı olmayan şəxslər həmin ölkənin ərazisində cinayət törətdikdə, cinayət məsuliyyətinə cəlb olunurlar. Amma onların vətəndaşlıqları olan ölkələrə ekstradisiya olunmaları dövlət arasında olan müqavilələr, yaxud həmin ölkə Avropa Şurasının üzvüdürsə, qurumun konvensiyasının müddəalarına əsasən mümkündür. Konkret həmin ölkə vətəndaşının cəza çəkdiyi dövlətə müraciət edir. Xüsusi razılıq əldə olunduğu zaman ekstradisiya həyata keçirilir. Məhbus hansı ölkənin vətəndaşıdırsa, orada da cəza çəkir. Hər bir dövlət istənilən halda öz vətəndaşının öz ölkəsində cəza çəkməsi üçün Azərbaycana müraciət etməlidir. Qarşılıqlı razılıq əsasında bu məsələ həll olunmalıdır. Eləcə də, bu hal Azərbaycana da şamil olunur. Belə ki, vətəndaşımız xarici ölkələrin birində cinayət törətdikdə, Ədliyyə Nazirliyi vasitəsilə, həmin dövlətə müraciət olunur. Bunun əsasında həmin şəxsin Azərbaycanda cəza çəkməsi öz həllini tapır. Bu məsələlər yalnız bu qaydada həyata keçirilir. Əgər həmin ölkələrlə qeyd etdiyim müqavilələr varsa, məsələlər bu şəkildə həlli yolunu tapır. Əgər öz ölkəsi vətəndaşının ekstradisiyasında maraqlı deyilsə, bu mümkün deyil. Məsələn, Azərbaycan istənilən əcnəbi məhbusu müraciət yoxdursa, hara göndərməlidir?"



**Müzəffər Baxış:** "Məhbus hansı ölkənin vətəndaşıdırsa..."

**Hüquqşünas məhbusun təhvil verildiyi ölkə barədə də ciddi araşdırma aparılmasının vacibliyini vurğuladı:** "Ölkə vətəndaşını tələb edə bilər. Amma araşdırma aparılmalıdır. Bəlkə məhbus öz ölkəsinə getmək istəmir. Çünki həmin ölkədə dəhşətli rejim mövcud ola bilər. Məhbus həyatından, ona verilə biləcək işgəncələrdən qorxa bilər. Belə hallarda imtina olunur. Məhbusa öz ölkəsində işgəncə verilmə ehtimalları varsa, bu şəkildə məhbusun ekstradisiya olunması beynəlxalq normalara ziddir".

❑ Cavanşir ABBASLI

**İşğalçı Ermənistan gözlənildiyi kimi, əsas siyasi-hərbi dayağı və iqtisadi sponsoru Rusiyada yaşanan ağır sosial-iqtisadi problemlərin altını ən ciddi şəkildə çəkməyə başlayıb. Düşmən ölkədən gələn son xəbərlər buna şübhə yeri saxlamır.**





# Rusiya forpost Ermənistanın arxasından çəkilir?

## Ağır iqtisadi duruma görə Kreml müttəfiqinə vəd etdiyi güzəştli kreditləri verməyə bilər; onların arasında silah-sursat almaq üçün ayrılan 200 milyon dollarlıq vəsait də var; işğalçı ölkə isə ərazilərimizin süni məskunlaşmasını davam etdirir...

Söhbət təkcə Rusiyadan Ermənistana pul transfertlərin həcminin yarıbayarı azalmasından və erməni əmək miqrantlarının durumunun pisləşməsindən getmir. Məsələ ondadır ki, Rusiya günbəgün ağırlaşan iqtisadi vəziyyət üzündən Ermənistan qarşısında öz kredit öhdəliklərini də yerinə yetirmək problemi ilə üzləşib. Musavat.com-un məlumatına görə, bu barədə **erməni iqtisadçı-eksperti Aşot Yegizaryan** bildirib. Onun sözlərinə görə, problem o dərəcədə dərinə işləyib ki, ölkə vəd elədiyi kreditləri verə bilməyəcək.

Bundan öncə **Ermənistanın maliyyə nazirinin müavini Pavel Safaryan** Rusiyada indiki tendensiyasının qalacağı təqdirdə kredit öhdəliklərinin yerinə yetirilməsi üçün risklərin yaranacağını istisna etməmişdi.

Erməni ekspertə görə, Moskvanın günün birinə kredit vermək qabiliyyətində olmayacağı ehtimalı həmişə olub. "Bundan əlavə, Rusiya rəsmən bəyan edib ki, mövcud sosial-iqtisadi situasiyanı nəzərə alaraq, öz üzərinə yeni kredit öhdəlikləri götürməyəcək, əvvəlki razılaşmalara isə əməl eləmək niyyətindədir. Ermənistanın kreditləri hansına aid ediləcək - bilinmir", - deyə o qeyd edib.

Lakin o, Kremlin əvvəlki anlaşmalara da riayət edəcəyinə şübhə ilə yanaşır. "Doğrudur, bu, ölkənin imic məsələsidir, ancaq situasiya elədir ki, Rusiya öhdəlikləri yerinə yetirə bilməyəcək. Odur ki, elə bir əsas yoxdur iddia edək ki, Rusiya Ermənistana maliyyə yardımı edəcək. Əgər bir il öncə kimsə buna inanırdısa, indi bələləri qalmayıb" - əlavə edib erməni ekspert.

***

Xatırladaq ki, Rusiyanın Ermənistana boyun olduğu son kreditlər arasında müasir silah-sursat almaq üçün nəzərdə tutulan 200 milyon dollarlıq kredit də var. Erməni tərəfi çox ümid edirdi ki, bu kredit hesabına elə Rusiyanın özündən ucuz qiymətə alacağı silah və hərbi texnika hesabına Azərbaycanla hərbi balansı qismən öz xeyrinə dəyişə biləcək.




Göründüyü kimi, öz hayında olan Rusiya indi heç kredit vermək qabiliyyətində də deyil. Çünki öz büdcəsi ciddi çətinliklərlə üzləşib və bu çətinlikləri dünya qiymətinə silah satışı sayəsində də aradan qaldırmaq mümkün deyil, o ki ola, güzəştli qiymətlərlə satılacaq, həm də özünün ayıracağı kreditlər hesabına satılacaq silahlar hesabına.

Lakin bu, əsla o anlama gəlmir ki, Rusiya forpost Ermənistanın arxasından çəkilir, yaxud ondan imtina edir. Sözsüz ki, yox. Ermənistan şimal qonşumuzun regionda əsas hərbi qalasıdır və Moskva sonadək ondan imtina etməyəcək. Sadəcə olaraq, Rusiyanın beynəlxalq sanksiyalar üzündən *(yeri gəlmişkən, Ermənistan kimi işğalçılıq siyasətinə görə)* üzləşdiyi iqtisadi-maliyyə çətinlikləri düşmən və işğalçı ölkə də bölüşmək zorundadır.

Çünki könüllü şəkildə özünün siyasi, iqtisadi taleyini ona bağlayıb, öz təhlükəsizliyini, o sırada sərhədlərinin mühafizəsini ona həvalə edib. Bu da o anlama gəlir ki, ermənilər ruslarla diktə-tələb yox, yalnız xahiş dilində danışa bilərlər və Kremlin istənilən kaprizinə, yalan vədlərinə və bütün bunlardan qaynaqlanan iqtisadi məhdudiyyətlərə dözüm göstərməlidirlər.

***

Ancaq nə qədər qəribə də olsa, ağır iqtisadi problemlər fonunda ermənilərin işğal altındakı Azərbaycan ərazilərini süni şəkildə məskunlaşdırmağa davam etdiyi haqda xəbərlər yayılıb. Bu dəfə Laçın rayonunda yeni kənd salması haqda məlumat mətbuatda yer alıb. Məlumatlara görə, "Ariavan" adlanacaq yeni kəndin tikintisi sürətlə davam edir.

Modern.az xəbər verir ki, Laçının müharibə zamanı dağıntılara məruz qalmış Zabux kəndinin yerində salınan yeni kənd erməncə Ariavan adlanacaq və 50 evdən ibarət olacaq. Hazırda evlərdən 26-sı istifadəyə verilsə də, 24-nün tikintisi ilin sonuna qədər başa çatdırılacaq. Paralel surətdə kəndə yeni yollar salınır və kanalizasiya, su xətləri çəkilir.

**Ariavan kəndinin yaradılması fikri Livan ermənilərinə məxsusdur.** Məhz onların yaratdığı "Ari" fondu Zabux kəndinin xarabalıqları üzərində salınan kəndin maliyyə xərclərini öz üzərinə götürüb.Gələcəkdə evlərin sayı 150-ə çatdırılacaq və onlardan biri hissə Qarabağa köçən ermənilərə, qalanı isə satışa çıxarılacaq.Qeyd edək ki, Zabux kəndi Ermənistanın Gorus rayonu ilə həmsərhəd ərazisində yerləşir.

***

Bu fakt bir daha işğal edilmiş Azərbaycan ərazilərində etnik təmizləmə aparmış işğalçı Ermənistanın beynəlxalq hüquq normalarına məhəl qoymadan ərazilərimizi süni şəkildə məskunlaşdırmaq siyasətini davam etdirdiyini sübut edir. Rəsmi Bakı yəqin ki, bu faktla əlaqədar öz mövqeyini bildirəcək.

Təbii ki, Minsk Qrupu həmsədrlərinin də məsələyə reaksiyasına ehtiyac var. Əfsus ki, vasitəçilər indiyədək işğalçı tərəfin bu kimi hərəkətlərinə adekvat münasibət bildirməyiblər. Halbuki, İrəvanın süni məskunlaşma siyasəti sülh danışıqları prosesinə ən ciddi əngəllərdən biridir.

Bu, o deməkdir ki, İrəvan heç nəyə məhəl qoymadan işğalçılıq siyasətini davam etdirir. Belədə, onunla Azərbaycan tərəfinin sülh danışıqları aparmasının, o cümlədən vasitəçilərin çox səy elədikləri prezidentlərin görüşünün anlamı qalmır.

Onu da qeyd edək ki, Ermənistanın Dağlıq Qarabağda Suriyadan qaçan erməni ailələrini yerləşdirməsi barədə də indiyədək dəfələrlə məlumatlar yayılıb. Bu və digər faktlar həmçinin, Dağlıq Qarabağdakı separatçı rejimin təmsilçiləri tərəfindən etiraf edilib. Di gəl ki, həmsədrlər hətta ermənilərin özlərinin boyunlarına aldıqları faktları belə həmişə görməzlikdən gəliblər.

**Odur ki, rəsmi Bakının Ermənistanın işğalçılıq siyasətini ifşa eləməkdən ötrü Beynəlxalq Məhkəməyə, BMT və ATƏT-ə müraciət eləməkdən başqa yolu qalmır. Minsk Qrupunun özünün də səlahiyyətli və effektli bir qurum olmamasını gündəliyə gətirməyin zamanı çatıb.**

# "Münaqişənin sülh yolu ilə həll potensialı bitməyib"

## Dövlət müşaviri Kamal Abdulla:

## "Bizdə ermənifobiya yoxdur..."



**"Xalq diplomatiyası çərçivəsində ermənilər Azərbaycana gələrkən Bakıdakı erməni kilsəsini görəndə təəccüblənmişdilər ki, Azərbaycanda erməni dilində kitablar, materiallar səliqə-sahmanla qorunub saxlanılır. Onlar Moskvaya zəng vurub deyirdilər ki, mən Bakıda filan qiymətli əlyazmanı gördüm. Bu, Azərbaycan xalqının dini, mənəvi və intellektual dəyərlərə verdiyi qiymətin nümunəsidir".**

Bunu millətlərarası, multikulturalizm və dini tolerantlıq üzrə dövlət müşaviri Kamal Abdullayev deyib (APA). O bildirib ki, Azərbaycanda ermənifobiya yoxdur: "Azərbaycanda ermənifobiyanın olmadığını dünya yavaş-yavaş başa düşməkdədir. Biz ermənifobiya ilə yaşamadığımızı hər addımımızda göstəririk. Bizdə ermənifobiya yoxdur".

Dövlət müşaviri əlavə edib ki, xalq diplomatiyasının davamı maraqlı ola bilərdi: "Üçüncü ölkələr də bunu davam etmək istəyirdilər. Amma ermənilər bundan imtina etdilər. Azərbaycan xalqının ermənilərlə birgə yaşamaq potensialı var. Münaqişənin sülh yolu ilə həll olunması potensialı bitməyib. Biz sülhün tərəfdarıyıq".

# Azərbaycanda uşaqlara yeni peyvənd növü vurulacaq



**Azərbaycanda tətbiqi nəzərdə tutulan inaktivləşdirilmiş poliomielit peyvəndi ölkəyə gətirilib. Bu barədə Report-a Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini Afaq Əliyeva məlumat verib.**

Onun sözlərinə görə, peyvənd 6 ayı tamam olan uşaqlara 1 doza həcminə yalnız bir dəfə vurulacaq: "Hazırda yalnız 3 ölkədə bu virusun sirkulyasiyası var. Bunun da qarşısını almaq məqsədi ilə bu tip vaksinlər paylanılır. Ona görə də nə qədər ki, bu xəstəlik yox olmayıb, həmin peyvəndlər digər ölkələrlə yanaşı, Azərbaycanda da tətbiq olunacaq. Bununla da tədricən oral poliomielit vaksinindən inaktivləşdirilmiş poliomielit vaksinlərinə keçid həyata keçiriləcək. Yəni, bu vaksinin tətbiqindən sonra bu ilin aprel ayında Azərbaycanda üç valentli oral poliomielitli vaksindən iki valentli oral poliomielit vaksininə keçiləcək".

Azərbaycanda 1 yaşa qədər olan uşaqların sayı 170 mindir. Həmin uşaqların hamısının əhatə olunması üçün lazımi miqdarda mərhələli şəkildə vaksin gətiriləcək.

O, xatırladıb ki, yalnız bir dəfə - uşağın 6 aylığında vurulacaq peyvənd tam sağlam və həkim müayinəsindən keçən uşaqlara tətbiq olunacaq: "Vaksin ilk olaraq bizim mərkəzə veriləcək. Bundan sonra vaksin bir aylıq müddətdə lazım olan miqdarda bütün peyvənd məntəqələrinə, yəni poliklinikalara paylanacaq. Peyvəndin tətbiq olunacağı ilk aylarda Mərkəz tərəfindən nəzarət tədbirləri həyata keçiriləcək. Çünki əvvəldən bütün hazırlıq işləri görülüb və təlimlər olub. Xatırladım ki, dövlət tibb müəssisələrində aparılan bütün peyvəndlər pulsuz həyata keçirilir. Ölkəyə gətirilən yeni vaksin də ödənişsizdir".



# Gəlinini öldürən 84 yaşlı kişiyə 18 il iş verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində Qusarda gəlinini güllələyərək qətlə yetirən 84 yaşlı Amaxan Nəcəfovun işi üzrə məhkəmə prosesi keçirilib. Trend-in məlumatına görə, prosesdə cinayət işi üzrə məhkəmə istintaqı yekunlaşıb. A.Nəcəfov 18 il müddətinə azadlıqdan məhrum edilib.**

Xatırladaq ki, hadisə bu il iyulun 24-də Qusar rayonunun Avaran kəndində baş verib. Kənd sakini Nəcəfov Amaxan Elayyədin oğlu gəlini, 1977-ci il təvəllüdlü Məmmədova Sevinc Malik qızına ov tüfəngindən atəş açaraq öldürüb. Bununla kifayətlənməyən qayınata mətbəx bıçağı ilə gəlninin başını da kəsib.

Hadisəni törədən şəxs hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb.

Faktla bağlı Qusar Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.4-cü (qəsdən adam öldürmə - xüsusi amansızlıqla və ya ümümi təhlükəli üsulla törədildikdə) və 228-ci (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə cinayət işi açılıb.

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

# Xırdalanda evə basqın; ev sahiblərini döyüb mənzili soydular

**Abşeronda yaşayış evinə basqın olub. Abşeron rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, hadisə Xırdalan şəhəri, Quşçuluq yaşayış sahəsi, ev 77 ünvanında qeydə alınıb. Həmin ünvanda yaşayan Cabir Nəbiyevin evinə girən maskalı və əlisilahlı 3 nəfər ev sahibini və onun oğlu Ələsgər Nəbiyevi döyərək əl-qolunu və ağzını yapışqanla bağlayıblar. Maskalı şəxslər evdən 23 min manat pul və qızıl-zinət əşyalarını götürərək mənzili tərk ediblər.**

Daxili İşlər Nazirliyi Abşeron rayonunda törədilmiş quldurluq hadisəsi ilə bağlı məlumat yayıb. Lent.az nazirliyin saytına istinadən xəbər verir ki, Baş Cinayət Axtarışı İdarəsi və Abşeron RPİ əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yanvarın 18-də Xırdalan şəhərində yaşayan Cabir Nəbiyevin evinə girib onu və oğlu Ələsgəri döyərək oradan 650 manat və 17560 manat dəyərində qızıl və gümüş əşyalar aparmış şəxslər müəyyən edilib. Bakı şəhər sakinləri Sərxan Manafov və Kərim Süleymanov tutulmuş, digər şəxsin kimliyi isə dəqiqləşdirilib. Araşdırmalar davam etdirilir.

# Mobil telefonları cibində keçirmək istədi, amma...

## 21 ədəd mobil telefonun qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə keçirilməsinin qarşısını alıblar

**Çantasında və ciblərində gizlətdiyi mobil telefonlar aşkara çıxarıldı. ANS PRESS-in məlumatına görə, gömrükçülər üç adda 21 ədəd mobil telefonun qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə keçirilməsinin qarşısını alıblar. Dubay-Bakı aviareysilə gələn Azərbaycan Respublikasının vətəndaşı Kamal Eyvazov Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları tərəfindən nəzarətə götürülüb və ona məxsus çantaya və üzərinə baxış keçirilib.**

Yoxlamadan əvvəl sorğu-sual zamanı K.Eyvazov çantasında və üzərində gömrük nəzarətinə təqdim ediləsi əşyanın olmadığını bildirsə də, onun qeyri-səmimiliyi diqqət çəkib. Yoxlamanın nəticələri isə gömrükçülərin şübhələrini təsdiqləyib.

Çantadakı şəxsi əşyaların arasından 8 ədəd "ASUS Zenfone GO" və 1 ədəd "İphone 6S" markalı mobil telefon aşkar olunub.

K.Eyvazovun üzərində şəxsi yoxlama zamanı isə əynindəki pencəyin və gödəkcənin ciblərindən 11 ədəd "Samsung Galaxy Grand Prime" və daha 1 ədəd "ASUS Zenfone GO" markalı mobil telefon aşkar edilib. Faktla bağlı araşdırma aparılır.

# Havanın temperaturu kəskin düşəcək, Bakıya qar yağacaq

**Yanvarın 24-dən 27-dək Bakıda və Abşeron yarımadasında hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış yağacağı, yanvarın 25-dən isə sulu qara, qara keçəcəyi gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a bildirilib ki, yağıntının bəzi yerlərdə intensivləşəcəyi ehtimalı var.

Yanvarın 25-26-da güclü şimal-qərb küləyi əsəcək. Yolların buz bağlayacağı ehtimalı var.

Temperatur ötən günlərlə müqayisədə tədricən 6-8 dərəcə aşağı enəcək.

Yanvarın 23-ü axşamdan 27-si gündüzədək ölkə ərazisində hava şəraitinin kəskin dəyişəcəyi, yağış, sulu qar, qar yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var.

Temperatur ötən günlərlə müqayisədə tədricən 5-10 dərəcə aşağı enəcək. Ayrı-ayrı yerlərdə güclü qərb küləyi əsəcək. Çovğun olacağı, yolların buz bağlayacağı ehtimalı var.

# Gəncədə 3 tələbə qız təbii qazdan zəhərlənib

**Gəncədə təbii qazdan zəhərlənmə olub. APA-nın qərb bürosunun məlumatına görə, şəhərin Həsən Əliyev küçəsində kirayədə yaşayan Gədəbəy rayon sakinləri, 1998-ci il təvəllüdlü Günel Məmmədova, 1996-cı il təvəllüdlü Elşanə Nəbiyeva və 1997-ci il təvəllüdlü Nübar Qoşqarlı təbii qazdan zəhərlənmə əlamətləri ilə Gəncə şəhər Təcili Tibbi Yardım xəstəxanasına yerləşdiriliblər. Onlara dərhal tibbi yardım göstərildikdən sonra vəziyyətləri normallaşıb.**

Məlumata görə qızların zəhərlənməsinə səbəb kirayə qaldıqları evdə qaz sobasından otağa dolan təbii qaz olub. Tələbələr Gəncə Dövlət Universiteti, Humanitar və Tibb kolleclərində təhsil alırlar.

## Nərimanov Rayon Məhkəməsinin həyətində (Montində) 2 maşınlıq daş qaraj satılır

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuzdur. Sənədi var.**

**Telefon: (050) 264-49-99**

YENİ MÜSAVAT
N 16 (6337) 23 yanvar 2016

# Ölümə doğru addım-addım...

## Litvinenkonun həyatı ilə bağlı gizli həqiqətlər, bilinməyən detallar

**Son günlər Rusiya mətbuatının cidd-cəhdlə inkar etməyə, dünya mətbuatının isə israrla işıqlandırmağa davam etdiyi mövzulardan biri də sabiq FSB əməkdaşı Aleksandr Litvinenkonun qətli ilə bağlı üzə çıxan yeniliklərdir. Britaniyada keçirilən ictimai dinləmələrin nəticəsinə görə, bu qətlin prezident Vladimir Putinin razılığı ilə həyata keçirilməsi ehtimalı güclüdür. Hələlik rəsmi Rusiya bu iddiaları qətiyyətlə təkzib edir.**

**Musavat.com isə dünyanın gündəmindəki bu siyasi qətlin başvermə səbəbləri, Litvinenko personası barədə unudulan gerçəkləri yada salır.**

Litvinenkonun adı dünyaya 1998-ci ildə daha çox məlum olub. Belə ki, o, həmin vaxt bir qrup əməkdaşla birgə keçirdiyi mətbuat konfransında Boris Berezovskinin qətli ilə bağlı sifariş aldığını bəyan etmişdi. 2001-ci ildə Böyük Britaniyadan siyasi sığınacaq alıb.

Aleksandr Valteroviç Litvinenko 1962-ci ildə Voronejdə dünyaya gəlib. Daxili qoşunlarda qulluq keçib, ardınca isə Kirov adına Hərbi Məktəbdə təhsil alıb. 1991-ci ildən etibarən təhlükəsizlik sistemində çalışmağa başlayıb. Keçmiş SSRİ-nin, Rusiyanın "qaynaq nöqtə"lərində, o cümlədən Çeçenistandakı əməliyyatlarda iştirak edib. 1999-cu ilin martında Litvinenko həbs olunub. Onu vəzifə səlahiyyətlərini aşma iddiası ilə azadlıqdan məhrum ediblər. 2000-ci ildə isə onun əleyhinə bir-birinin ardınca 3 cinayət işi açılıb. Bundan sonra ölkədən çıxmama barədə iltizamı imzalasa da, öncə Türkiyəyə, ardınca isə Böyük Britaniyaya qaçıb.

Böyük Britaniyada olduğu zaman Litvinenko fəal, hüquq müdafiəçisi kimi məşhurlaşıb. Birbaşa Rusiya hakimiyyətinə, onun prezidenti Putinə qarşı öldürücü tənqidləri ilə dünyaya səs salıb. 2001-ci ildə Yuriy Felştinskinin həmmüəllifliyi ilə "FSB Rusiyanı dağıdır" adlı kitab dərc edib. Həmin kitabda Rusiya xüsusi xidmət orqanları terror aktlarının həyata keçirilməsində, insan oğurluğu və qətlində ittiham edilir. 2002-ci ildə analoji məzmunlu başqa bir kitabı da dərc edilib. Litvinenko hər iki kitabında iddia edib ki, bütün bu neqativ əməliyyatlar Putini hakimiyyətə gətirmək məqsədi güdüb.

12 oktyabr 2006-cı ildə A.Litvinenkoya Britaniya vətəndaşlığı verilib. Bəzi məlumatlara görə, o, vətəndaşlığa yeni adla - Edvin Karter adı ilə girmişdi. Amma onun vətəndaşlıq almasından sayılı günlər sonra, yəni noyabrın 1-də radioaktiv maddə ilə zəhərləndi.

A.Litvinenko 2006-cı il noyabrın 23-də Londonda vəfat edib...

Litvinenkonun niyə Böyük Britaniyada olması da bir başqa söhbətin mövzusudur. Sabiq FSB əməkdaşı 2000-ci ildə Britaniyaya qaçıb və bu ölkənin Mİ6 kəşfiyyat xidməti ilə əməkdaşlığa başlayıb. Təbii ki, onun ölkədən qaçmasının ciddi səbəbləri var idi. BBC-nin bu mövzu ilə bağlı apardığı araşdırmaların nəticələrinə görə, Rusiya televiziyasının 1999-cu ilə aid bir süjetində onun dava-dalaş və partladıcıların oğurlanması ilə bağlı məhkəməsinin görüntüləri var. O deyirdi ki, ona qarşı ittihamlar qondarmadır.



Həmin vaxt o, DTK-nın xələfi olan təşkilat - FTX-də polkovnik-leytenant idi. Bu o vaxtlar idi ki, FTX-yə Vladimir Putin rəhbərlik edirdi. Məhkəmə onun təqsirsiz olduğunu sübuta yetirsə də, Rusiya təhlükəsizlik xidmətləri tərəfindən təkrar həbs olunub aparıldı.

O, az qala bir ilini həbsxanada keçirmişdi. Azad olunandan sonra, 2000-ci ildə Litvinenko ailəsi ilə birlikdə Birləşmiş Krallığa qaçmışdı. O Londonda Rusiyada investisiya yatırmaq istəyən bizneslər üçün məsləhətçilik edirdi. O, həm də Vladimir Putinin kəskin tənqidçisi olan milyonçu Boris Berezovski üçün pullu təhlükəsizlik işi görürdü.

Litvinenko FTX-də çalışanda onun vəzifəsi Rusiya mafiyası barədə məlumatların məruzə olunması idi. Sürgündə olarkən o, keçmiş təcrübəsindən Britaniyanın Mİ6 Məxfi Kəşfiyyat Xidmətinə kömək üçün istifadə etmək istəyirdi. O Mİ6-nın adamı "Martin"lə Pikadilidəki "Waterstones" kitab mağazasının kafesində görüşərdi.

### Putini uşaqbazlıqda ittiham etməsəydi...

Məlumatlarda o da qeyd olunur ki, Litvinenko ilə Putin arasındakı münasibətlərin daha da pisləşməsinə səbəb olan ikinci hadisə qətlə yetirilməzdən dörd ay əvvəl - 2006-cı ilin iyulunda internetdə dərc etdiyi məqalə olub. Həmin məqalədə iddia olunurdu ki, Rusiya prezidenti uşaqbazdır və iddiasını Putinin bir oğlan uşağının qarnını öpməsini göstərən video görüntüsü ilə əsaslandırmağa çalışırdı.

**Bu qalmaqallı bir iddia idi. Putin izah etmişdi ki, "bu hərəkətin arxasında heç nə yoxdur". Rusiya prezidenti BBC-ə demişdi:** "Qəşəng uşaq idi. Mən onu bir balaca əzizləmək istəmişdim. Pişik balası kimi və öpməyimin də mənası bu idi".

Bütün hallarda bu, irəli sürülməsi qorxulu olan iddialar idi.

Marina Litvinenko faktları aşkara çıxarmaq üçün əsl mübarizəyə qalxmışdı. O deyirdi: "Mən Saşaya söz vermişəm ki, bir gün adamlar onun haqqında həqiqəti biləcəklər".

Litvinenko ilk gündən həkimlərə zəhərlənmə ehtimalı barədə demişdi. Bu işə əvvəlcə yerli bələdiyyə polisi müdaxilə etmişdi. Bu söhbət sonradan polisin antiterror üzrə komandanı Peter Clarke-a məruzə edilmişdi. "Bir həmkarım kabinetimə gəlib dedi ki, şimali Londondakı xəstəxanalardan birində qəribə şeylər danışan bir nəfər var. O adam deyirmiş ki, Rusiya kəşfiyyatının keçmiş casusudur və keçmiş həmkarları tərəfindən zəhərləndiyini güman edir" - deyirdi Clarke.

Litvinenkoda radioaktiv zəhərlənmənin əlamətləri var idi. Onun saçları tökülürdü. Lakin həkimlər onu Geyger sayğacı ilə müayinə edəndə, radiasiya qeydə alınmamışdı. O ağır xəstə idi, lakin heç kim nə baş verdiyini bilmirdi.

Xəstəxanaya qəbul ediləndən iki həftə sonra Litvinenko ambulansla və polisin müşaiyəti ilə mərkəzi Londondakı Universitet Xəstəxanasına (University College Hospital), reanimasiya şöbəsinə gətirilib. Onun ağ qan zərrəciklərinin sayı fəlakətli dərəcədə aşağı idi. Belə görünürdü ki, onun immun sistemi tamamilə dağılır.

Xəstəxanada olduğu 18-ci gündə də onun vəziyyəti hələ də müəmmalı olaraq qalırdı. "Biz bilirdik ki, orqanların sıradan çıxması və sümük iliyi çatışmazllığı ilə söhbət onun həyatının xilas olunmasından gedirdi" - deyir Goldstone.

Son ümid yeri kimi Litvinenkonun qan və sidik nümunələri Britaniyanın Berkşir əyalətindəki Aldermastonda yerləşən son dərəcə məxfi nüvə tədqiqatları mərkəzinə göndərilmişdi.

Aldermastondakı alimlər daha çox nüvə silahı ilə işləməyə adət etsələr də, öz biliklərindən radioaktiv zəhərlənmənin öyrənilməsi üçün istifadə etməyə çalışdılar. Onlar əvvəlcə qamma spektroskopiyası kimi tanınan metodla işlədilər. Bu təkmil analitik metod vakuum şəraitində analiz nümunələrindən enerji keçirilməsinə əsaslanır. Bu zaman qamma şüaları buraxan radioaktiv elementlər aşkar olunur. Hər bir element müəyyən enerji səviyyəsində yalnız özünə xas siqnala malikdir.

Nəticələr radioaktivlik göstərmirdi. Lakin onlar nəticəni göstərən diaqramda güclə görünən kiçicik çıxıntı tapmışdılar.

Bu cinayət işi üzrə ictimai məhkəmə dinləmələrində A.Litvinenkonin həyat yoldaşı Marina Litvinenko deyib: "Ərim danışırdı ki, ona Rusiya oliqarxı Boris Berezovskini öldürməyi təklif etdilər, lakin mən bundan imtina etdim və bunu rədd etdim."

Onun sözlərinə görə, A.Litvinenko düşünürdü ki, Sovet Dövlət Təhlükəsizliyi Komitəsinin varisində - Federal Təhlükəsizlik Xidmətində korrupsiyanın ictimai ifşası ilə çıxış etdiyi üçün ya onu öldürəcəklər, ya da həbs edəcəklər.

**Məhkəmədə çıxış edən M.Litvinenko bildirib ki, onun əri şikayətləri Federal Təhlükəsizlik Xidmətinin başçısı olmuş və hazırda Rusiya prezidenti olan Vladimir Putinə şəxsən göndərirdi.**

❑ Sevinc TELMANQIZI

# "Donuz qripi", yoxsa soyuqdəymə?

## Adil Qeybulla: "Bu, yuxarı tənəffüs yollarında infeksiyaların fəallaşmasından baş verən bir situasiyadır"



Adil Qeybulla

**Soyuq havalar son vaxtlar əhali arasında soyuqdəymə xəstəliklərinin sayını artırıb. Bu gün uşaqdan böyüyə demək olar ki, əksəriyyət insanlar soyuqdəymədən, qripdən əziyyət çəkir. Qrip mövsümü payızın ilk aylarında başlayıb, noyabr-dekabrda artır və aprel-may aylarına qədər davam edir.**

Qripin qış aylarında daha çox yayılmasının səbəbi insanların daha çox qapalı və sıx məkanlarda toplu halda cəmləşməsidir. İçəridəki havanın quru olması virusların uzun müddət yaşamasına səbəb olması əsas təsiredici faktorlardan biridir. Bəzən isə insanlar soyuqdəymə ilə qripi səhv salır. Əslində soyuqdəymə - virusların səbəb olduğu burun iltihabı xəstəliyidir. Halsızlığa gətirib çıxarmadığı üçün yataq istirahəti tələb etməyən bir xəstəlikdir və qətiyyən, qriplə qarışdırılmamalıdır. Normal qrip ən çox bir həftə çəkdiyi halda indiki xəstəliklər bir həftədən uzun çəkir ki, bu da insanların narahatlığına səbəb olur. Həkimlər bu cür halların qriplə əlaqəsi olmadığını, bunun sadəcə respirator virus, yəni soyuqdəymə olduğunu bildirirlər. Qripin ilkin əlamətlərinə gəlincə isə bunlar baş, boğaz, sinə ağrıları, öskürək, asqırma və titrətmə sayılır. Qısa müddətdən sonra isə hərarət, burun axması, əzələ ağrıları, halsızlıq da bura əlavə olunur. Qrip müalicə edildikdə bir həftə, müalicə edilmədikdə isə yeddi gündən də artıq davam edə bilər. Qrip zamanı orqanizmdəki digər xəstəliklər də baş qaldıra bilər. Bəzən insanlar yayılan donuz qripinə görə özlərini təlaşa salır, qorxuya düşürlər. Ancaq donuz qripinin əlamətləri adi, mövsümi qripdən tamamilə fərqlənir. Belə ki, donuz qripi mövsümi qripdən daha ağır cərəyan edir. Hava-damcı yolu ilə yoluxan donuz qripinin əlamətləri qusma, ishal, güclü baş ağrısı ilə başlayır, yüksək hərarət, tənəffüsün çətinləşməsi, təngnəfəsliklə müşahidə olunur. Bu virusda xəstəliyin 2-3-cü günlərində ağırlaşmalar müşahidə olunur. Həmçinin daxili orqanlar, xüsusən ağciyərlər zədələnir.

**Tibb elmləri doktoru Adil Qeybulla** yayılanın qrip yox, kəskin soyuqdəymə olduğunu dedi: "İnsanlar arasında yayılan və uzun çəkən qrip deyil. Bu yuxarı tənəffüs yollarında infeksiyaların fəallaşmasından baş verən bir situasiyadır. Yəni yuxarı tənəffüs yollarının infeksiyası fəallaşır və yoluxucu olur. Həmin mikroblar hava damcı yolu ilə digər şəxsə keçir. Yuxarı tənəffüs yolları norması adi halda xəstəlik törətməyən xeyli mikroblar var. Bunların sayı 15-dən çoxdur. Bunlar soyuq dəymədə, immun sistemi düşdükdə, bədən zəiflədikdə baş qaldırır və hüceyrənin funksiyası pozulduğundan xəstəlik törədir. Həmin əlamətlər də qripə bənzər əlamətlərdir. Yüksək temperatur, hərarət, yuxarı tənəffüs yollarının katarı, öskürək, burun axması və sairə kimi əlamətlərlə getdiyindən el arasında camaat bunu qrip adlandırır. Sovet dövründə həkimlər bu cür xəstələrə kəskin respirator xəstəlikləri diaqnozu qoyurdular. Bu qrip deyil, soyuqdəymə xəstəlikləridir. Qripin bu gün yayılan forması H1N1 virusudur. Bu ilk dəfə 2008-ci ildə Meksikada aşkar olunub. Bu gün də bu qrip aşkar olunub. Təəssüf ki bu qrip bu gün Azərbaycanla həmsərhəd ölkələrdə, Türkiyədə, Ermənistandadır. Azərbaycanda da bunun olma ehtimalı kifayət qədər böyükdür. Hesab edirəm ki, dövlət təcili profilaktik tədbirləri, trans-sərhəd zonalarda nəzarətin gücləndirilməsini və əhalinin maarifləndirilməsini həyata keçirməlidir".

**Yayılan soyuqdəymədən özünü qoruma ilə bağlı məsləhətlərə gəlincə isə A.Qeybulla insanların bol vitaminlər qəbul etmələrinin lazımlığını vurğuladı:** "Yayılmış soyuqdəymədən qorunmaq üçün insanlar düzgün geyinməli, vitaminlər qəbul etməli, meyvəni çox yeməlidir. Əslində immun sistemi möhkəm olmalıdır ki, həmin insan soyuqdəymədən qoruna bilsin. Bu cür əlamətləri, soyuqdəyməsi olan insanlardan maska ilə qorunmaq lazımdır. Bu tədbirlərə əməl etmək lazımdır. İnsanlar bu işlərə barmaq arası yanaşdıqları üçün xəstələnirlər".

**Qripdən qorunmaq üçün bol su içmək lazımdır. Çünki su maddələr mübadiləsini gücləndirir, orqanizmdəki hər cür toksinləri əridərək kənara çıxarır. Hətta isti çay və qəhvə istəyəndə, belə suyu unutmayın. Çünki kofeinli içkilər susuzluq yaradır. Ona görə də hər 100 qram çayın üstündən əlavə 150 qram su için. Həmçinin başınağacı, moruq, qarağat, limon, bal və zəncəfilli çaylar da qripi sağaldan içki sırasındadır.**

❑ Günel MANAFLI

YENİ MÜSAVAT

Son səhifə

N 16 (6337) 23 yanvar 2016

# Yaş salfetlərdəki təhlükə

Yaş salfetlər son illər gündəlik həyatda ən çox istifadə edilən məmulatlardan birinə çevrilib. Lakin gigiyena qaydalarına əməl etməyi asanlaşdıran yaş salfetlərin göründüyü qədər faydalı olmadığı üzə çıxıb.



Belə ki, yaş salfetlərin tərkibindəki spirt və ətrin bir sıra dəri xəstəliklərinə, o cümlədən allergiyaya səbəb ola biləcəyi açıqlanıb. Bu salfetlər dəridə qızartıya, onun quruyub tökülməsinə gətirib çıxara bilər. Həkimlər, xüsusilə də, uşaqlarda nəm salfetlər əvəzinə islanmış pambıqdan istifadə etməyi məsləhət görürlər. Ağız və göz ətrafının təmizliyəndə isə daha diqqətli olmaq lazımdır. Ekzema xəstələri, ümumiyyətlə, onlardan imtina etməlidirlər. Əgər yaş salfetdən istifadəni tərgidə bilmirsinizsə, heç olmasa, tərkibində ətir və spirt olmayan, keyfiyyətli salfet alın. Restoranlarda verilən, üzərində istehsal və son istifadə tarixi yazılmayan yaş salfetdən istifadə etməyin (publika.az).



## Baş müfti: "Şahmat haramdır"

**Səudiyyə Ərəbistanının baş müftisi qəribə bir fətva verib. Əbdüləziz bin Abdullah əl-Şeyx şahmatın İslam dininə zidd olduğunu açıqlayıb. Onun sözlərinə görə, şahmatı "haram" və "vaxt itkisi"dir. Bu oyun qumara təşviq edir və onu oynayanlar arasında düşmənçiliyə yol açır. Hələlik fətvanın tövsiyə xarakterli olacağı, qadağaya çevrilməyəcəyi gözlənilir.**

Bundan öncə bənzər fətvanı İraqın önəmli din xadimlərindən biri - Ayətullah Əli əl-Sistani də səsləndirmişdi. O, bu oyunun ümumiyyətlə qadağan edilməsi gərəkdiyini demişdi.

Şahmat 1988-ci ilə kimi İranda "haram" qəbul edilərək qadağan edilmişdi. Ancaq İranın keçmiş dini lideri qumar oyunu kimi istifadə edilməyəcəyi halda şahmata icazə veriləcəyini demişdi. İndi İranda Şahmat Federasiyası da var. İngiltərənin "The Guardian" qəzeti isə müsəlman bir ölkənin belə fətva səsləndirməsinin təəccüblü olduğunu yazıb. "Şahmatı qadağan etməyə yönəlik belə addımlar təəccüblə qarşılanır. Müsəlmanlar şahmatı öyrənərək Avropaya qədər çatdırıblar".

# Qış aylarında immuniteti necə qaldırmalı?



**Qış aylarında immuniteti qaldırmaq üçün bəzi tövsiyələr:**

- Pomidor, xiyar, bibər kimi qışa xas olmayan tərəvəzlərlə qidalanmanı məhdudlaşdırın.
- Çay və qəhvə yerinə C vitamini tərkibli cökə, adaçayı (sürvə), itburnu kimi bitki çayları için. Gündə 1,5-2 litr maye qəbul edin.
- Nizamlı şəkildə gimnastika edin.
- C Vitamini ilə zəngin olan sitrus bitkiləri, kivi, portağal, gül kələm, ispanaq kimi meyvə və tərəvəzlərə üstünlük verin.
- Həftədə 2 dəfə balıq yeyin. Həmçinin, balıq yağı qəbul etmək də məsləhət görülür.
- Normal miqdarda zülal qəbul etmək üçün qida rasionunuzdan süd, qatıq, pendir, ət məhsullarını əskik etməyin.
- Çox şirin və şəkərli qidalardan az istifadə edin.
- Çipsilər, kolbasa, sosiska məmulatları, yağlı ətlər və həddindən artıq yağlı qidalardan uzaq durun.
- Qızardılmış, qovurulmuş qidalar qəbul etmək yerinə, buxarda bişirilmiş və ya qaynadılmış qidalara üstünlük verin.
- Ən azından gün ərzində 10 dəqiqə təmiz havada olmaq məsləhətdir.



## Yeməyini əvvəlcə it yeyir

**Meksikanın ən yüksək səviyyədə qorunan həbsxanasından qaçdıqdan sonra yanvarın 8-də həbs edilən "Bücür" ləqəbli narkobaron Joaqin Guzmanın həbsxana həyatı ilə bağlı maraqlı faktlar açıqlanıb. Bir neçə gün əvvəl Guzmanın kamerasının qoxunu hiss edən itlərlə qorunduğu xəbəri yayılmışdı. Bu günlərdə yayılan məlumatlara görə, narkobaronun yeməklərinin dadına əvvəlcə itlər baxır. Həbsxana müdiri Guzmanın çox sayda düşməni olduğundan, təhlükəsizlik tədbirlərini artırdıqlarını bildirib.**





**QOÇ** - Səbrli olmaq, bir qədər məxfilik nümayiş etdirmək yaxşı olardı. Çünki bu gün ovqatınızı aşağı sala bilən adamlarla rastlaşa bilərsiniz. Saat 15-19 arası pul əldə etmək şansınız çox böyükdür.


**BUĞA** - Nahara qədər bir çox sahələrdə diqqətsizliyiniz ucbatından problemlərlə rastlaşa bilərsiniz. Bu səbəbdən də bütün məsələlərdə ayıq-sayıq olmalı, lazım gəldikdə məsləhətlərdən yararlanmalısınız.


**ƏKİZLƏR** - Sevgi münasibətlərində mövcud olan passivliyinizi aradan qaldırmağa çalışın. Qarşı tərəfə güzəştə gedin. İş gününün sonunda şəxsi büdcənizi artırmaq imkanı qazanacaqsınız. Özünüzü soyuqdan qoruyun.


**XƏRÇƏNG** - Sizin üçün xüsusi bir gündür. Çünki bu gündən kosmik fon xeyrinizə dəyişəcək. Deməli, digər bürclərlə müqayisədə sizi daha şanslı və perspektivli günlər gözləyir. Buna hazır olun.


**ŞİR** - Daxili sıxıntılarınızı dəf etmək üçün bir qədər təmiz havada olun. Lazımsız informasiyalarla özünüzü yükləməyin. Əgər fəaliyyət istiqamətində yeni təkliflər alsanız, razılıq verməyə tələsməyin.


**QIZ** - Bu günün planetar mənzərəsi xeyrinizə işləyəcək. Bununla da siz şanslılar sırasına düşəcək, uğurlar silsiləsinin başlanğıcına yetişəcəksiniz. Gün ərzində yalnız bu barədə düşünməlisiniz.


**TƏRƏZİ** - Günə yeni planlarla başlamalısınız. Amma ulduzlar məsləhət görür ki, bütün qlobal planlarınızda məxfiliyə riayət edəsiniz. Yalnız bu halda günün ovqatı sizi qane edəcək. Uzaq yola çıxmağa dəyməz.


**ƏQRƏB** - Səhər saatlarında azacıq gərginliyiniz olsa da, bu, tez ötüb keçəcək. Əslində bu əlamətdar təqvimdə gərək özünüzü toparlamağı bacarasınız. Çünki günortaya doğru sevindirici olaylar başlayacaq.


**OXATAN** - İxtiyarınızda olan bu təqvimdə hüquqi sənədlərlə, maliyyə-bank əməliyyatları ilə bağlı bütün yarımçıq işlərinizi başa çatdırmalısınız. Bunu bacarsanız, ayın sonuna qədər ovqatınız çox yüksək olacaq.


**OĞLAQ** - Tələsik qərarlar, riskli vədlər verməyin. Əslində bu gün siz ətrafınızda olan insanların mahiyyətini, onların sizə sədaqətliliyini yoxlamalısınız. Axşam saatlarında soyuqdəymədən qorunmalısınız.


**SUTÖKƏN** - Bürcünüzün Göy qübbəsində tam oturuşması şanslarınızı xeyli artıracaq. Hətta baş verən situasiyalarda iştirakınızdan asılı olaraq bugünkü ovqatınız bütün ilboyu davam edə bilər. Bu səbəbdən də nə olursa-olsun, nikbinliyinizi əldən verməməlisiniz.


**BALIQLAR** - Saat 13-ə qədər tamamlanması mümkün olan bütün işləri başa çatdırın. Sonrakı müddətdə isə Göy qübbəsinin sizin üçün hazırladığı sürprizlərə hazır olmalısınız. Tənqidi təhqir kimi qəbul etməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Sağlamlıq üçün saqqal?



**Amerikada yayımlanan "Hospital Infection" jurnalında dərc edilən bir araşdırma yazısına görə, saqqalı kişilərin immuniteti hər gün üzlərini taraş edənlərlə müqayisədə daha güclü olur. Çünki hər gün saqqal taraş edən kişilərin üzündə infeksiyalar, sən demə, daha çox olur. Saqqal isə orqanizmi dəri və nəfəs yolu infeksiyalarından qoruyur. Məlumatlara görə, saqqalda olan hansısa mikrob digər zərərli bakteriyaların məhv olmasına səbəb olur.**

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300